**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX VƏ ETNOLOGİYA İNSTİTUTU**

**BƏHMƏN ƏLİYEV**

# QARABAĞIN ƏNƏNƏVİ SUVARMA SİSTEMİ
## (tarixi-etnoloji tədqiqat)

**BAKI – 2024**

**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çapa məsləhət görülmüşdür**

**Elmi redaktor:** **İlhamə Məmmədova**
*tarix elmləri doktoru, dosent*

**Rəyçilər:** **İsmayıl Umudlu,**
*tarix üzrə fəlsəfə doktoru,*

**Tahir Şahbazov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Əliyev Bəhmən. Qarabağın ənənəvi suvarma sistemi (tarixi-etnoloji tədqiqat), "Nəşriyyat" şöbəsi, Bakı, 2024, -s.192.**

Qarabağda ənənəvi suvarma təsərrüfatının formalaşmasında Kür, Araz, Tərtər, Qarqar, Xaçın və Həkəri kimi iri çaylar, onların çoxsaylı qolları, arxlar, kəhrizlər, quyular, bulaqlar əsas rol oynamış, suvarma işlərinin təkamülünə, yaşayış məskənlərinin yaranmasına, bölgənin inzibati baxımdan təşkilinə, mənəvi həyata mühüm təsir göstərmişlər. Monoqrafiyada bu sistemin ən qədimdən müasir dövrədək keçdiyi inkişaf yolu araşdırılır, etnoqrafik mənzərə coğrafi, arxeoloji, folklor materialları əsasında tədqiq olunur.

Monoqrafiyada müasir dövrdə Böyük Qayıdış Hərəkatının gedişində Qarabağın təsərrüfat həyatında mühüm yer tutan suvarma sisteminin dövrün sosial-iqtisadi tələblərinə uyğun yenidən qurulması məsələləri də araşdırılır.

© A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, 2024

**MÜNDƏRİCAT**

ÖN SÖZ........................................................................................ 5

TƏBİİ-COĞRAFİ ŞƏRAİT...................................................................... 14

SUVARMA ŞƏBƏKƏSİNİN FORMALAŞMASI TARİXİ........ 19

ÇAYLAR SUVARMA SİSTEMİNİN ƏSASI KİMİ.................. 44

SUVARMA ŞƏBƏKƏSİNİN TƏRKİB HİSSƏLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ........................................................................ 70

SUDAN İSTİFADƏ QAYDALARI............................................ 118

SU İLƏ BAĞLI İNANCLARI.................................................... 130

QARABAĞDA SUVARMA SİSTEMİNİN MÜASİR VƏZİYYƏTİ....................................................................................... 131

NƏTİCƏ........................................................................................ 157

REZUMELƏR
İngilis dilində........................................................................ 169
Rus dilində........................................................................... 176
İNFORMATORLARIN SİYAHISI............................................... 183
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ............................................ 184

# ÖN SÖZ

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz 30 il davam edən işğala son qoydu, torpaqlarımız üzərində suverenliyimiz bərpa olundu və milli tariximizdə yeni dönəm başladı. 44 günlük Vətən müharibəsinin, 23 saatlıq antiterror hərəkatının Azərbaycanın taleyindəki rolu, regional və qlobal mahiyyəti, geosiyasi proseslərə təsiri məsələləri hazırda geniş şəkildə araşdırılır, gələcəkdə də çoxsaylı elmi tədqiqatların mövzusu olacaq.

Tarixi, siyasi, iqtisadi, hərbi, sosial, psixoloji və s. məsələlərlə yanaşı, Azərbaycanda baş verən dəyişikliklərin etnoloji baxımdan tədqiqi də mühüm əhəmiyyət daşıyır. Hazırda Azərbaycan etnologiya elminin qarşısında qlobal və regional səviyyəli çağırışların yeni dövrün tələbləri baxımından qiymətləndirilməsi, düzgün qərarlar verilməsinə xidmət edən tədqiqatların aparılması vəzifəsi durur.

Azərbaycan etnologiya elmində ənənəvi suvarma sisteminə adətən əkinçilik təsərrüfatının ayrılmaz hissəsi kimi baxılmış, şəhərlərin su təchizatı, kəhriz, bulaq, quyularla bağlı tədqiqatlar aparılmış, suyun inanclara təsirinə diqqət yetirilmişdir. Sovet dövrünün siyasi konyunkturasının müəyyənləşdirdiyi mövzu çərçivəsi, təsviri etnoqrafik tədqiqatlara daha çox diqqət yetirilməsi ənənəvi suvarma sisteminə geniş rakursdan baxmağa imkan verməmişdir. Kür və Araz çayları eləcə də, digər iri çayların əsasında yüzillər ərzində qurulmuş suvarma sistemi geniş tarixi-etnoloji tədqiqata cəlb

edilməmiş, milli dövlətçilik − milli mövcudiyyət tariximizdəki rolu araşdırılmamışdır.

Müasir dövrün siyasi, iqtisadi, sosial çağırışları həyatın müxtəlif sahələrində olduğu kimi, etnologiyada da yeni elmi tələbləri, vəzifələri formalaşdırmaqdadır. Bu çağırışların təkcə ölkə, region səviyyəli deyil, eləcə də, qlobal mahiyyətli olduğunu qeyd etsək, elmi vəzifələrə kompleks yanaşmanın vacibliyi önə çıxır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə su təsərrüfatının vəziyyətinə həsr olunmuş 23 iyul 2020-ci il tarixli müşavirədə çıxışı hazırda görülən və yaxın onilliklərdə görüləcək işlərin mahiyyətini, istiqamətini ortaya qoymuşdur. Müşavirədə ölkəmizdə su təsərrüfatının, suvarma sisteminin, əhalinin, kənd təsərrüfatının, sənayenin su ilə təminat-təchizatının həyati əhəmiyyəti vurğulanmaqla yanaşı, bu sahədə aparılacaq elmi tədqiqatların istiqamətləri müəyyənləşmişdir. Çıxışında ***"Su həm həyatdır, həm inkişafdır, həm təhlükəsizlikdir"***[1]− deyə vurğulayan Prezident İlham Əliyev operativ tədbirlər görülmədiyi təqdirdə, 2030-cu ildə ölkəmizdə sürətlə səhralaşma prosesinin gedəcəyi təhlükəsinə diqqət yönəltmiş, müvafiq dövlət təşkilatları qarşısında ciddi vəzifələr qoymuş, əhalinin içməli su ilə təminatı, kənd təsərrüfatının su ehtiyacının ödənilməsi, sudan yenilənən enerji mənbəyi kimi istifadə, quraqlıq və səhralaşma ilə mübarizə kimi ciddi problemlərə toxunmuşdur.

Vətən müharibəsi ərəfəsində keçirilən müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir:

---

[1] *İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib*, http:// www. president. az/az/articles/view/39990, (istifadə tarixi: 23 iyul 2020).

*“Bu gün su təsərrüfatı sahəsində fəaliyyət göstərən qurumlar, bundan sonra geniş ictimaiyyət, alimlər, ekoloqlar, Prezident Administrasiyası, Nazirlər Kabineti ümumi rəhbərlik etməlidirlər, nəzarət etməlidirlər ki, bütün bu işlər planlı şəkildə həll olunsun, biz yaxın gələcəkdə su təhlükəsizliyimizlə bağlı olan problemləri də həll edək. Necə ki, enerji təhlükəsizliyi məsələləri həll olundu, nəqliyyat təhlükəsizliyi məsələləri həll olundu. İndi biz ərzaq təhlükəsizliyi məsələlərinin həllinə yaxınlaşırıq.* ***Su təhlükəsizliyi məsələləri də öz həllini tapmalıdır****”*[2].

Hazırda ölkəmizdə su təsərrüfatının yeni dövrün tələbləri, yeni texnologiyalar əsasında qurulması istiqamətində böyük işlər görülür. Son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin ölkə miqyasında su təsərrüfatının yenidən qurulması, bərpasına xidmət edən sərəncam, fərman və qərarları, 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi, respublikanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri: **“Təmiz ətraf mühit və yaşıl artım ölkəsi”** kimi müəyyən edilməsi kimi məsələlər genişmiqyaslı fəaliyyətin mühüm tərkib hissələridir. “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” prioritetinə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

---

[2] *İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib*, http:// www. president. az/az/articles/view/39990,(istifadə tarixi:23 iyul 2020).

Vətən müharibəsinin, antiterror hərəkatının nəticəsində torpaqlarımız üzərində suverenliyimizin tam bərpa olunması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsindəki çay, göl, bulaq, eləcə də, su mənbələrimiz olan qarlı-buzlu yüksəkliklərimizin işğaldan azad olunması ölkənin su təhlükəsizliyinin təmin olunması üçün böyük imkanlar yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, su təhlükəsizliyi məsələlərinin həllini tapması üçün alimlərin, tədqiqatçıların da üzərinə böyük məsuliyyət düşür. Su təhlükəsizliyi anlayışı həyatın bütün sahələrini özündə cəmləyən kompleks məsələləri birləşdirir. Çay, göl, dənizlərin siyasi-iqtisadi, hərbi əhəmiyyəti, əhalinin, təsərrüfatın su ilə təminatı, suyun maddi və mənəvi mədəniyyətdə rolu, sudan optimal istifadə və s. məsələlər əvvəlki yüzilliklərdə olduğu kimi, gələcəkdə də strateji əhəmiyyət daşıyacaq.

Ənənəvi suvarma təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyətin inkişaf səviyyəsi, su ilə bağlı inanc və inamlarla bağlıdır. Bu monoqrafiyanın yazılmasında məqsəd Qarabağ bölgəsində təşəkkül tapmış suvarmanı tarixi-etnoloji baxımdan tədqiq etmək, yüzillər ərzində formalaşmış ənənəvi suvarmanın milli yaddaşımızın, milli mövcudluğumuzun yaşam kodlarından biri olduğunu, suyun, suvarmanın gələcəyə baxışımızdakı yerini açıb göstərməkdir.

***

Qədimdən bəri Azərbaycan ərazisində yaşayış məskənlərinin salınmasında, təsərrüfatın, əkinçilik sistemlərinin təşəkkülündə su mənbələri mühüm rol oynamışdır. Suvarma ilk növbədə əkinçiliklə bağlı olduğundan bu sahəyə aid arxeoloji mate-

riallara əsasən qədim dövrlərdə suvarma sistemlərinin formalaşması xüsusiyyətlərini üzə çıxarmaq mümkündür. Təsadüfi deyildir ki, Azərbaycanın arxeoloji-tarixi mədəniyyətlərindən biri "Kür-Araz mədəniyyəti" adlandırılmış, tarixi, arxeoloji, etnoqrafik tədqiqatlarda su mənbələrinin, suvarmanın roluna diqqət yetirilmişdir.

Azərbaycanın bütün bölgələrinin, o cümlədən Qarabağın təbii-coğrafi şəraiti, relyef və iqlim xüsusiyyətləri, hidroqrafik şəbəkəsi həm əkinçiliyin, həm də maldarlığın inkişafına əlverişli şərait yaratmış, dəmyə və suvarma əkinçiliyi, qışlaq-güzdək-yaylaq şəklində köçmə maldarlıq və oturaq maldarlıq təsərrüfatı formalaşmışdır. Bir çox təbii-coğrafi, tarixi, arxeoloji, folklor faktlarını nəzərə almaqla suvarma sistemini də etnoloji yaddaşın mühüm tərkib hissələrindən biri saymaq mümkündür. Etnoqrafik materialların təhlili bu etnoloji yaddaşın ənənəviliyin tipik, spesifik elementi olduğunu, eyni zamanda, xalqın təsərrüfatında maddi və mənəvi həyatında baş verən dəyişiklikləri, o cümlədən təcrübəni nəsildən-nəslə ötürdüyünü üzə çıxarır.

Tarixən Qarabağ bölgəsi Tozağac, Cidalar, Qızılburun, Uzunyan, Cabbay, Daşbulaq, Keşişdağ, Cillik, Qırxqız, Sarıdərə, Sarıbaba, Qızıldaş, Kəluçan və s. elat yaylaqları, Gülüstan, Talış, Dizaq, Vərəndə və s. meşələri ilə məşhur idi. Burada çaylar, bulaqlar və kəhrizlər əkinçiliyin inkişafında əsas rol oynamış, suvarma mənbəyi kimi çıxış etmişlər. Burada dəmyə əkinçiliyi ("dəmistan") dağlıq və dağətəyi, süni suvarma əkinçiliyi isə əsasən dağətəyi və düzənlik ərazilərdə həyata keçirilmişdir. Dəmyə ərazilərində yağışların, rütubətin bolluğu süni suvarma olmadan taxılın, kətanın yetişməsində mühüm rol oynayırdı.

Qədimdən Azərbaycanın suvarmaya əsaslanan əkinçilik təsərrüfatı əsasən iri və kiçik çaylardan götürülən ana arxlar

vasitəsilə suvarılmışdır. Bu məqsədlə çaylardan ana arxlar ayrılır, həmin əsas arxlardan isə ayrı-ayrı kəndlərin əkinlərini suvarmaq üçün iri və ya kiçik qol arxlar qazılırdı. Ümumiyyətlə, suvarma üçün suyun götürülməsi mümkün olan bütün çaylardan yüzlərlə ana arx çəkilmişdir. Hazırda Azərbaycanda yüzə qədər yaşayış məskəninin adının suvarma ilə bağlılığı iqtisadi həyatda suvarmanın rolunu təsdiqləyir. Belə kənd adlarından Hindarx, Kəhrizli, Daşarx, Dəhnə, Kotanarx, Əmirarx və başqalarını göstərmək olar.

Etnologiyanın məqsədlərindən birinin etnik özünəməxsusluğu, o cümlədən xalqların etnik mədəniyyətinin kompleks şəkildə öyrənmək olduğunu nəzərə alsaq, suvarma sistemini azərbaycanlıların təsərrüfat həyatının, eləcə də, maddi və mənəvi həyatının bütövlüyünü göstərən, elmi baxımdan bəzi tarixi problemlərin həllinə kömək göstərən amil saymaq mümkündür.

XX əsr boyu və bəzən müasir dövrdə də əkinçilik və maldarlıq təsərrüfatlarını bir-birindən ayırmaq, "əkinçi tayfalar", "maldar tayfalar", "köçəri tayfalar", "oturaq tayfalar" anlayışları altında xalqların etnogenezini, etnik tarixini ideoloji konyukturalar çərçivəsində izah edilməsi tendensiyası özünü göstərməkdədir. Bir sıra hallarda ən qədim dövrlərdə əkinçilik və maldarlığın bir-birindən ayrılması kimi təsərrüfat hadisəsi birmənalı şəkildə orta əsrlərə də aid edilir, öz dövlətlərini, imperiyalarını qurmuş xalqlar "köçəri", "əkinçi" anlayışları müstəvisində izah edilməyə çalışılır. Apardığımız tədqiqatda isə orta əsrlərdə əkinçilik və maldarlığın bir-birindən ayrı olmadığını, əksinə, bir-birini tamamladığı ortaya çıxır. Bu iki mühüm təsərrüfat sahəsinin bağlılığının sübuta yetirən ən mühüm faktorlardan biri isə təbii-coğrafi şəraiti, relyefi, iqlimi

ilə yanaşı, hidroqrafik şəbəkənin xüsusiyyətləri eləcə də, suvarma şəbəkəsinin təşəkkül və inkişaf tarixidir.

Azərbaycanın hər bir bölgəsinin, o cümlədən Qarabağın hidroqrafik və suvarma şəbəkəsi dəmyə və suvarma əkinçiliyi, qışlaq-güzdək-yaylaq maldarlığı arasında əlaqələndirici, yönləndirici, qurucu funksiyasını yerinə yetirmişdir. Əkinlər, qışlaq və yaylaq əraziləri eləcə də, müvəqqəti və daimi yaşayış yerlərinin çay, göl, bulaq və s. su hövzələrinin yaxınlığında yerləşmiş, sonralar süni suvarma şəbəkəsinin qurulması ilə yaşayış məskənlərinin, təsərrüfatın coğrafiyası genişlənmiş, təbii-hidroqrafik şəbəkəyə qoşulan süni suvarma sistemi əlaqələndirici, yönləndirici, qurucu funksiyasını davam etdirmişdir.

Qarabağın dağlıq ərazilərində əkinçilik dəmyə, dağətəyi və düzənlik ərazilərdə isə süni suvarmaya əsaslanmışdır. Dağətəyi və düzənlik ərazilərində əkinlərin məhsuldarlığı suvarma şəbəkəsinin inkişafından çox asılı olmuşdur, çox quru iqlimli, yay aylarında istiliyi gündüz vaxtı 45 dərəcəyə çatan bir ərazidə nəinki taxıl bitkiləri, hətta alaq otları belə bitmir. Dağ çaylarını cilovlayaraq, düzənliklərə-əkin sahələrinə yönəldən suvarma şəbəkəsi sayəsində yazlıq və payızlıq buğda, arpa əkib-becərmək, yüksək məhsul əldə etmək, meyvə, tut bağları, üzümlüklər salmaq mümkün olur. Qaraçayın mənsəbindən Xudafərin körpüsünədək davam edən quru iqlimli Qarabağ çöllərində süni suvarma sayəsində əkinçilik və bağçılıq (üzümçülük,çəkillik) geniş yayılmışdır. Mil düzünə birləşən Qarabağ çöllərinin bir hissəsi də qış aylarında, 3-4 ay ərzində yaşıllaşır, bu ərazidə su hövzələrinin, arxların olması da maldarlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Çoxsaylı arxeoloji, etnoqrafik materiallar, tarixi mənbələr təsdiqləyir ki, bir tayfanın qışlaq yeri çayın lal axan, daha böyük çaylara qovuşduğu yerlər olduğu halda yaylaq yerləri çayın yuxarı axarları, alp çəmənlikləri, güzdək-payızlıq isə dağətəyi-çayın axınının azaldığı, süni qollara-arxlara ayrıldığı sahələr idi. Dəmyə taxılını üyütmək üçün çaylardan ayrılmış "dəyirman arxları" ilə hərəkətə gələn dəyirmanlar işləməli, çaylardan ayrılan arxları qazmaq üçün ayrı-ayrı tayfalar, kəndlər işə qoşulmalı, "dəhnə basmalı" idilər. Arxeoloji qazıntılar göstərir ki, ən qədim dövrlərdən bəri Qarabağ ərazisində hər el, hər boy, hər tayfa bir çaya, gölə, bulağa əsaslanmış, çaylar sahilində olan tayfaların adı ilə (Qarqar, Tərtər) adlanmış, yaşayış məskənləri çayların yerləşməsinə, suların axınına görə formalaşmışdır.

Zəngin hidroqrafik şərait Qarabağ bölgəsində tarixin erkən çağlarından suvarma əkinçiliyinin  yaranmasında həlledici olmuş, bu zəmində bölgənin  suvarma əkinçiliyi formalaşmış, böyük bir təkamül yolu keçmişdir.

İndiyədək Azərbaycan etnologiya elmi çərçivəsində aparılan tədqiqatlarda suvarma təsərrüfatı-suvarma şəbəkəsi, sudan istifadə qaydaları, üsulları, suvarmada qarşılıqlı yardım formaları, suvarmada xalq təqvimi və s. məsələlər öyrənilmişdir. Lakin heç bir bölgəyə, onun tarixən formalaşmış təsərrüfatına suvarma sistemi müstəvisində baxılmamışdır və bu monoqrafiyada ilk dəfə olaraq Azərbaycanın Qarabağ bölgəsi suvarma sistemi müstəvisində tədqiqata cəlb edilmişdir. Monoqrafiyada gəlinən nəticələrdən biri budur ki, Qarabağ ərazisinin qədim dövrlərdən bəri məskunlaşması, tarixi, iqtisadi, inzibati baxımdan formalaşmasında, əkinçiliyi və maldarlığı eləcə də, təsərrüfatın digər sahələri, adətləri və inancları ilə bir bütövə çevrilməsində suvarma sisteminin əsaslı rolu olmuşdur.

Tədqiqatımız belə deməyə əsas verir ki, qədimdə Qarabağ ərazisində suvarma sistemi dağ çaylarının dağətəyi ərazilərə, düzənliklərə qovuşduğu yerlərdə formalaşır, mədəni-arxeoloji təbəqələr şəklində formalaşan ən qədim qazıntı məskənləri də məhz həmin yerlərdə başlayır. Burada məskunlaşmanın tarixi minillərlə hesablanır və etnik yaddaşdakı suvarma ilə bağlı məskunlaşma təcrübəsi unudulmur.

Tarixi mənbələrin, hidronim, etnonim, oykonim və s. toponimlərin təhlili göstərir ki, bu suvarma mədəniyyətinin yaradıcıları, qoruyub saxlayaraq nəsildən-nəslə ötürənlər Azərbaycan türkləridir. Qədimdən bu suvarma təsərrüfatının yaradıcılarının eyni etnos olması faktı suvarma sisteminin formalaşmasının ardıcıl olaraq davam etməsi, əkinçilik və mal-darlığın (qışlaq-güzdək-yaylaq) eləcə də, təsərrüfatın başqa sahələrinin arasında bağlayıcı zəncirə (elementə, ünsürə) çev-rilməsində özünü göstərir. Orta əsr tarixi qaynaqları, özəlliklə də çox qiymətli məxəzlər olan Osmanlı maliyyə-vergi dəftərləri, "Qarabağnamə"lər və s. mənbələr isə Qarabağda suvarma sis-temini quranların Otuzikilər, İyirmidördlər, Əhmədli, Cavan-şirlər, Kəbirli və başqa türk tayfalarının olduğunu dönə-dönə təsdiqləyir.

Monoqrafiyanın strukturu Qarabağ kontekstində – coğrafi şərait, suvarma şəbəkəsinin təkamülü, çaylar suvarma sisteminin əsası kimi, suvarma şəbəkəsinin tərkib hissələri və xüsusiyyətləri, sudan istifadə qaydaları, su ilə bağlı inanclar, Qarabağda suvarma sisteminin indiki vəziyyəti kimi bölmələri əhatə edir. Bu bölgünün tədqiqatın məqsəd və vəzifələrinə, gəlinən nəticələrə, yeni tarixi-etnoloji (etnoqrafik) baxışa uyğun olduğunu düşünürük.

# TƏBİİ-COĞRAFİ ŞƏRAİT

Alp-Himalay dağlıq qurşağında yerləşən Azərbaycan Respublikasının hidroqrafik şəbəkəsinin formalaşmasında relyef və iqlim xüsusiyyətləri mühüm rol oynayır. Ölkəmizin ərazisi dağ silsilələri, dağ tirələri, yayla-platolar, düzənlik və ovalıqlardan ibarətdir. Əsas oroqrafiya vahidləri Böyük Qafqaz dağ sistemi, Samur-Dəvəçi ovalığı (Qusar maili düzənliyi ilə birlikdə), Kür çökəkliyi, Kiçik Qafqaz və Talış dağ sistemləri təşkil edir. Kiçik Qafqaz dağ sisteminin Azərbaycan Respublikasındakı hissəsinə isə müxtəlif istiqamətlərində uzanan bir neçə silsilə-Murovdağ, Qarabağ, Şahdağ, Şərqi-Göyçə Zəngəzur, Dərələyəz silsilələrinin bir hissəsi, vulkanik yayla (Qarabağ yaylasının çox hissəsi), çökəklik (Başkənd-Dəstəfur çökəkliyi və s.) aiddir.

Qarabağın bir hissəsi ilə Kiçik Qafqazın orta və son silsiləsi uzanır: buranı Böyük və Kiçik Kirs dağ silsiləsi**,** Qırxqız və Murovdağ silsiləsi, Xonaşen və Ziyarət silsiləsi, Ala qaya və başqa dağ silsilələri təşkil edir. Kiçik Qafqazın cənub-şərq çıxıntısına aid edilən Qarabağda dağların hündürlüyü 1400 metr-3740 metr arasındadır. Yüksək dağlıq zona (1800-3000 metr yüksəklik) çəmənli yaylaqlardan (illik yağıntı 600 mm), dağlıq zona (950 metrdən 1800 metrə qədər yüksəklik) tünd boz torpaqlı (illik yağıntı 400-600 mm), enliyarpaq meşələrdən ibarətdir. Qarabağ bölgəsinin hidroqrafiyasının formalaşmasında Kiçik Qafqaz dağ sistemi əhəmiyyətli rol oynayır, bu dağ sisteminin cənub-şərq qurtaracağı olan Qarabağ silsiləsi Araz



**Tərtər çayı**

çayına doğru get-gedə alçalır, tədricən dağətəyi maili düzənliklərə keçir[3].

Ən yüksək zirvələri Qızqala (2843 metr), Qırxqız (2830 metr), Böyük Kirs (2725 metr) və s. geniş suayrıcında tənha qayalıq yüksəklikləridir, silsilənin şimal yamacında köndələn qollar və çökəkliklər vardır. Qarabağ silsiləsi şimal-qərbdə Mıxtökən silsiləsi (Dəlidağ 3613 metr) ilə birləşir, Zəngəzur və Dərələyəz silsilələrinin cənub qərb və cənub yüksəklikləri Naxçıvan ərazisinə düşür, Qarqar, Xaçın, Tərtər, Köndələnçay, Ağvan, Quruçay, Qozluçay çayları Qarabağ silsiləsinin qar və bulaq sularından götürür. Böyük və Kiçik Qafqaz dağ sistemlərinin arasında yerləşən Kür çökəkliyinin əsas oroqrafiya

---

[3] "Fiziki coğrafiya", *Azərbaycan Respublikasının coğrafiyası*, I cild, Bakı, Avropa, 2014, s.300,530; Müseyib Müseyibov, *Azərbaycanın fiziki coğrafiyası*, Bakı, Maarif, 1998, s.18-19.

vahidi Kür-Araz ovalığıdır.Bu ovalıq Kür-Araz çayları vasitəsilə Mil-Qarabağ, Şirvan, Muğan-Salyan düzlərinə bölünür, şimal qərbdə Kür çayının sağ sahili boyunca Gəncə-Qazax, cənub-qərbdə isə Araz çayı sahili boyunca Aşağı Arazboyu maili düzənlikləri uzanır [4].

Kür-Araz ovalığının bir hissəsi olan Qarabağ düzü şimal-qərbdən Gəncə-Qazax düzənliyi, qərbdən isə Kiçik Qafqazın Murov dağı və Qarabağ silsilələri, cənubdan və cənub-şərqdən Mil düzü ilə əhatə olunur. O, Şirvan düzündən Kür çayı vasitəsilə ayrılır. Qonur, tünd qonur, şabalıdı torpaqlı dağətəyi zona (300-dən 950 m-ə qədər yüksəklik) mülayim-isti iqlimə, tünd-boz torpaqlı aşağı zona (150-dən 300 m-ə qədər yüksəklik) mülayim isti iqlimə (illik yağıntı 260-300 mm) malikdir. Səthi zəif dalğavarı və terraslıdır, dağətəyi hissədə relyefi dərə və yarğanlıdır. Qarabağ düzünün iqlimi əsasən mülayim, isti və quru subtropikdir. İllik yağıntı az (250-350 mm) olsa da, ərazisindən İncəcay, Tərtər, Xaçın, Qarqar və s. çayların keçməsi Qarabağ düzündə əkinçilik üçün əlverişli şərait yaradır[5].

Azərbaycan Respublikasında iqlimin formalaşmasına arktik (Kontinental və Skandinaviya antisiklonları), mülayim enliklərin kontinental (Sibir antisiklonu) və dəniz (Azor maksimumu), tropiklərin isti hava kütlələri (subtropik anti-siklonlar və cənub siklonları), Mərkəzi Asiya üzərində yaranan antisiklon, o cümlədən yerli atmosfer prosesləri təsir göstərir. Hava kütlələrinin relyef və Xəzər dənizi ilə qarşılıqlı əlaqəsi yağıntılara təsir göstərir, yağıntıların miqdarı Xəzərdən qərbə və

---

[4] Müseyib Müseyibov, *Azərbaycanın fiziki coğrafiyası,* Bakı, Maarif, 1998, s.18-19; "Fiziki coğrafiya", *Azərbaycan Respublikasının coğrafiyası*, I cild, Bakı, 2015, s.300.

[5] Zemfira Hacıyeva, *Qarabağ xanlığı: Sosial iqtisadi münasibətlər və dövlət quruluşu,* Bakı, Təhsil, 2007, s.67.

düzənliklərdən dağlara doğru tədricən artır. Yağıntıların miqdarı, illik rejimi landşaftın biotik komponentlərinin xarakterini, eləcə də, ərazinin səth suları ilə təmin olunma dərəcəsini müəyyənləşdirir. Məsələn, Böyük və Kiçik Qafqaz dağ sisteminə aid kiçik dağ çaylarında il boyu axın kəsilmir.

Xaçın və Tərtər çaylarının keçdiyi, Qarqarçayın sol sahilindəki Ağdamda və s. dağətəyi məntəqələrdə yağıntıların miqdarının Kür-Araz ovalığının mərkəz və şərq hissəsi ilə müqayisədə iki dəfə çox olması ərazinin yüksəkliyindən yox, onların yaxınlığındakı maneələrin (dağ sistemlərinin) hündürlüyündən, morfologiyasından, rütubət gətirən hava kütlələrinin qarşısında yerləşməsi ilə sıx bağlıdır. Belə hündürlük morfologiyası rütubətin yağış şəklində ayrılmasına Kür-Araz ovalığının mərkəz və şərq hissəsi ilə müqayisədə daha çox yağıntının düşməsinə şərait yaradır [6].

Ağdamın Eneolit dövrü yaşayış yerləri Seyid Mustafa (Bala Baharlı kəndi), I və II Qoşatəpə (Əhmədağalı), Əhmədoğlu, Əzgillitəpə, Məscidtəpə (Əhmədağalı), Vəlibəy təpələri (Eneolit-Tunc-Orta əsrlər dövrü, Əhmədağalı), Sarıhacılı (Eneolit-Tunc dövrü), Vəlixantəpə (Eneolit), Şomullutəpə (Eneolit, Mirəşəlli kəndi), Bənövşələr (Eneolit, Mirəşəlli və Armudlu kəndlərinin arası), Gültəpə (Eneolit dövrü) və s. eləcə də, Tunc dövrü yaşayış yerləri-Çıraqtəpə, Qarahacı (İlk Tunc dövrü), Qarahacılı nekropolu, Dəyirmantəpə kurqanı (Tunc və Dəmir dövrü, Orta Qərvənd və Mirəşəlli kəndlərinin arası), Rəsultəpə (Orta Tunc dövrü-Orta əsrlər, Armudlu kəndi), Boyəhmədli, Qızıl Gəngərli, Salahlı Gəngərli kəndləri arasında 80 kurqan, Paprəvənd -Boyəhmədli kurqanları (Möhülü, Əli

[6] Müseyib Müseyibov, *Azərbaycanın fiziki coğrafiyası*, Bakı, Maarif, 1998, s.132-135.

kişi, Molla Mustafa, Həmşəri təpələri, Qarapirim təpələri (Tunc və İlk Dəmir dövrü təpələri), II Gültəpə yaşayış yeri (Son Tunc-İlk Orta əsrlər, Paprəvənd), Misir qışlağı (Son Tunc-İlk Dəmir dövrü, Paprəvənd), Göytəpə kurqanları və s. burada yaşayışın minillər ərzində ardıcıl davam etdiyini, dəmyə əkinçiliyinin, suvarma əkinçiliyinin inkişafına iqlim şəraitinin mühüm təsir göstərdiyini təsdiqləyir.

Çəmənliklərdən ibarət yaylaqlardan aşağıda, meşə və kolluqlarla örtülü sahələrdə dağ kəndləri əhalisinin istifadə etdiyi ara-sıra kiçik əkin sahələri vardır. Burada yazlıq və payızlıq buğda, arpa əkilib-becərilir, ərazi rütubətli iqlimi, qısamüddətli və dövrü yağışları, dolu, sıx dumanı ilə xarakterizə olunur. Tədricən yüksəkliyi azalan dağları yaylalar, vadilər, çökəkliklərdən ibarət mülayim iqlimli dağətəyi zona əvəzləyir. Düzənliyə yaxınlaşdıqca vadilər daha da genişlənir və daha sonra quru iqlimli, isti düzənliklər gəlir.

Eyni zamanda, qışı quraq keçən mülayim iqlim yarımsəhra və quruçöl iqlimi Kür-Araz ovalığı Ağdaş-Qarqarçayın aşağı axını istiqamətindən qərbə uzanan Qarabağ düzünün bir qismini, Gəncə-Qazax düzünü, Boz dağı, Ceyrançölü və Acınohur öndağının cənub-qərbdəki ucqar hissəsini əhatə edir[7]. Bu ərazilər isə tarixən qışlaqların geniş yayıldığı, qoyunçuluğun inkişaf etdiyi çöllüklər olmuşdur.

---

[7] *Azərbaycan arxeologiyası*, altı cilddə, I cild, Bakı, Şərq-Qərb, 2008, s.56.

## SUVARMA ŞƏBƏKƏSİNİN FORMALAŞMASI TARİXİ

Ən qədim zamanlarda çaylar insanların diqqətini cəlb etmiş və onlar çay kənarlarında olan sığınacaqlarda məskən salmağı daha münasib bilmişlər. Yaxınlıqdakı meşəliklər, su və əmək alətləri hazırlamaq üçün xammal mənbəyi kimi daşla zəngin olan bu ərazilər çox əlverişli idi. Çay daşından istifadə edərək, yaşayış tərzini təmin etmək üçün heyvanları ovlamış və bu ərazilərdə özlərinin təsərrüfat işləri üçün əlverişli şərait yaratmışlar[8].

Qarabağ bölgəsində ən qədim paleolit abidələri olan çox-təbəqəli, 10 arxeoloji təbəqədən ibarət Azıx mağara düşərgəsi, Tağlar mağarası və s. bu ərazidə ibtidai insanın ən qədim dövr-lərdən bəri mövcud olduğunu, ardıcıl olaraq mədəni qatların bir-birini əvəz etdiyini göstərir. Bir neçə inkişaf mərhələsindən ibarət olmuş, Quruçay arxeoloji mədəniyyəti dövründə qədim insanların əsasən ovçuluq,yığıcılıqla məşğul olmaları və Azərbaycan ərazisində bəşər tarixinin Quruçay arxeoloji mədəniyyəti dövründən başlaması sübuta yetirilmişdir[9]. Quruçay və Köndələnçay vadilərində yerləşən Azıx və Tağlar paleolit düşərgələrində, Daşaltı çayının sol sahilində Şuşa mağara düşərgəsində çoxsaylı daş məmulatı, ovlanmış heyvan sümükləri tapılmışdır. Göründüyü kimi, qədim insanların həyatında düşərgələrin yaxınlığından axan Quruçayın, Daşaltıçayın mühüm əhəmiyyəti olmuşdur.

Mustye dövrü yaşayış yerlərinin bir qrupu Tərtərçay hövzəsində qeydə alınmışdır. Burada həmin çay hövzəsinin

---

[8] Əsədulla Cəfərov,*Quruçay dərəsində*, Bakı, Azərnəşr, 1990, s.4-5.
[9] *Azərbaycan tarixi*, yeddi cilddə, I cild, Bakı, Elm, 2007, s. 49

axarında Bəzirxana suyu ilə Zar kəndi arasındakı sıldırım qaya altında torpaq işləri vaxtı mədəni təbəqələrdən-dəvəgözü daşından hazırlanmış alətlər təsadüf edilmişdir[10].

Qarabağda Neolit (Kamiltəpə, Əhədtəpə, Kəlbə Hüseyntəpə, Şomulutəpə, Çardaxlıtəpə, İsmayılbəytəpə və s.), Eneolit (Çalağantəpə, İlanlıtəpə, Leylatəpə, Kültəpə və s.), Tunc dövrü (Nərgiztəpə, Üzərliktəpə və s.) abidələri bölgədə ən qədim dövrlərdən orta əsrlərədək yaşayışın izlərini, təsərrüfatın səviyyəsini izləməyə imkan verir. Ümumiyyətlə, burada müxtəlif tarixi dövrlərə aid çoxsaylı qazıntı məskənləri, arxeoloji abidələr diqqəti cəlb edir. Təkcə Mil düzündə son Neolit dövrünə aid 65-



**Qarqar çayı**

[10] *Azərbaycan arxeologiyası*,altı cilddə, I cild, Bakı, Şərq-Qərb, 2008, s.311.

ə yaxın irili-xırdalı məskən – “Neolit kəndi” qeydə alınmışdır[11].

Hələ 1989-cu ilədək Cənubi Qafqazda üzə çıxarılmış erkən əkinçilik mədəniyyətinə aid 150-yə maddi-mədəniyyət nümunəsi, onlardan 70 faizdən çoxu (üçdə ikisi) Azərbaycanın Kür çayı hövzəsindən, Mil-Qarabağ düzənliyindən, Muğandan, Araz boyu ərazilərdən tapılmışdır. Onların müqayisəli və sinxron tədqiqi nəticəsində müəyyən edilmişdir ki, “Kür-Araz eneoliti” mədəniyyətindən çox-çox əvvəl, hələ e.ə. VI-III minilliklərdə Azərbaycan ərazisində erkən əkinçilərdən ibarət istehsal təsərrüfatı meydana gəlmiş, intensiv surətdə inkişaf etmişdir[12].

Arxeoloji tədqiqatlar təsdiqləyir ki, hələ Eneolit dövründə Qarabağın erkən əkinçiləri su hövzələri kənarlarında məskən salmışlar. Məsələn, bu dövrə aid Çalağantəpə, İlanlıtəpə, Leyla-təpə yaşayış məskənləri Qarqar çayının şimal hissəsində yerləşir. Mil-Qarabağ düzənliyində, xüsusən Qarqar və Xaçın çayları arasında da çoxsaylı qədim yaşayış yerləri cəmləşmişdir[13].

Ağdam ərazisinə aid Eneolit dövrü qazıntı məskənləri İsmayılbəy təpəsi (Armudlu kəndi), Kəbləhüseyn, Namazəli təpəsi, Gülməmməd, Çaqqallıtəpə, Əjdahatəpə (Quzanlı), Yüzbaşlı təpəsi, Ağabəy təpəsi, Abdüləzim təpəsi, Şükürbəyli təpəsi (Aşağı Yüzbaşlı) Kərimtəpə (Üçoğlan), Güllütəpə, Kazımtəpə (Alıbəyli), Səfərli təpələri, II Leyla təpəsi, Nəsirbəy təpəsi, Kərimtəpə, Əhəd təpəsi, Düyü təpəsi, Nazlıxan təpəsi (Eyvazlı) və s. yaşayış yerləri Qarqar, Xaçın çaylarının hövzə-

---

[11] Təvəkkül Əliyev, Barbara Helving, “Düzən Qarabağ Son Neolit dövründə” (Kamiltəpə yaşayış yerinin materialları əsasında), *Azərbaycan Arxeologiyası,* cild 24, №1, 2021, s.77.

[12] Yusif Səfərov, *Qədim Azərbaycan: Nə bilirik,* Bakı, Azərnəşr, 1989, s.24.

[13] *Azərbaycan tarixi*, yeddi clddə, I cild, Bakı, Elm, 2007, s.76.

sində yerləşir.

Eneolit dövründə Quruçay mədəniyyəti sakinləri ilk metalın, yəni misin emalı sirlərinə bələd olmuş, əkinçilik və maldarlıqla məşğul olmuş, Quruçay və Köndələnçay vadisində yeni yaşayış məskənləri salmışlar. Əsasən yüksək təpələrdə salınmış belə yaşayış yerlərindən biri Qaraköpəktəpə adı ilə məşhurdur. İndiki Füzuli şəhəri yaxınlığında olan bu təpə Köndələnçayın sağ sahilində yerləşir. Çoxtəbəqəli, yəni Eneolitdən Orta əsrlərə kimi geniş bir dövrü əhatə edən Qaraköpəktəpə yaşayış yeri e.ə. V-IV minilliklərdən başlayaraq XII-XIV əsrlərə qədər mövcud olmuşdur[14].

Eneolit dövründə burada əkinçilik və maldarlıq təsərrüfatın əsas sahələri olmuş, müxtəlif taxıl növləri becərilmişdir. İlk tunc dövründə (Kür-Araz mədəniyyəti) inkişaf etmiş əkinçi-maldar təsərrüfatı zəminində yaranan yaşayış məskənlərinin bəziləri böyük yaşayış məntəqələrinə çevrilmiş, əkinçilik və maldarlığın yüksək inkişafı əhalinin artımına və patriarxal münasibətlərin möhkəmlənməsinə səbəb olmuşdur. Orta Tunc dövründə əsasən düzənliklərdə və çay vadilərində salınmış, uzunmüddətli oturaq həyat tərzini əks etdirən yaşayış məskənləri əkinçilik təsərrüfatı mərkəzləri idi. Xocalı, Axmaxı, Dovşanlı, Xaçınçay, Xankəndi, Borsunlu, Bəyimsarov, Sarıçoban və başqa kurqanlar e.ə. III minilliyin əvvəllərindən e.ə. I minilliyin ortalarına qədərki tarixi mərhələni əhatə edir. Ümumiyyətlə, Qarabağ bölgəsində bir çox yaşayış yerlərində ardıcıl olaraq və ya fasilələrlə yaşayış olmuşdur. Məsələn, Balatəpə abidəsi Erkən Tunc dövründən antik dövrə qədər böyük bir tarixi mərhələni, Şortəpə arxeoloji abidəsi antik və ilk orta əsrlər dövrünü əhatə edir. Oxşar vəziyyət əksər qədim

---

[14] Rəşid Göyüşov, *Qarabağın keçmişinə səyahət,* Bakı, Azərnəşr, 1993, s.7.

yaşayış yerlərinə də aiddir. Bütövlükdə isə Qarabağ bölgəsində Neolit dövründən orta əsrlərə qədərki tarixi mərhələni əhatə edən 180-ə yaxın arxeoloji abidə əkinçiliyin inkişafı haqqında təsəvvür yaradır[15].

E.ə. III minillikdə - tuncun mənimsənilməsi dövründə əkinçilik təsərrüfatının genişlənməsi və maldarlığın sürətli inkişafı ilə əlaqədar bu yerlərdən istifadə daha intensiv şəkil almışdır. Bu tarixi dövrün ardıcıl inkişaf mərhələlərində Quruçay və Köndələnçayın sahillərində olan təpələrin hamısı nəsli qəbilə və tayfa icmalarının yaşayış yerlərinə çevrilmişdir[16].

*"Azərbaycanda süni suvarma öz qədimliyi və inkişafına görə suvarma əkinçiliyinin mərkəzlərindən hesab olunan Yaxın Şərq və Orta Asiya ölkələri ilə bir səviyyədə durur. Ölkəmizdə suvarma əkinçiliyinin tarixini hələ Eneolit dövründən izləmək olar. Kür çayının sağ sahili ərazilərində isə suvarma əkinçiliyinin mövcudluğu e. ə. I minilliyə aid edilir"*[17]**.**

Suvarma sisteminin formalaşmasında çayların mənbəsi, mənsəbi, suların axın surəti, suyun az və çoxluğu və s. mühüm rol oynayır. *"Azərbaycanın çayları dağ çaylarıdır, bunlar əsasən ilin soyuq fəsillərində çox sulu, isti aylarında isə az sulu olur. Bu da qismən quraq iqlimə malik olan dağarası çökəkliklərdə, dağ ətəklərində, düzənlik və otlaqlarda suvarma əkinçiliyi üçün ciddi maneə törədir. Buna görə də tarixən ən intensiv əkinçilik və bağçılıq çay dərələri, çay yataqları boyu və çayların dağlıq ərazilərdən düzənliyə qovuşduğu zolaqlarda*

---

[15] Bəhmən Əliyev, Şövqi Həsənov, *Əkinçilik/Qarabağ:Maddi, mədəni və mənəvi irs (tarixi-etnoloji tədqiqat),* II kitab, Bakı, AZPoliqrAF, 2023, s.47.
[16] Qüdrət İsmayılov, *Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri,* Bakı, Elm, 1981, s.5.
[17] Şahpələng Quliyev, "Suvarma*", Azərbaycan etnoqrafiyası,*üç cilddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.138.

*yaranmışdır"*[18].

*Coş, Tərtərim, dağdan enib*
*Gəz dağlığı, aranlığı!*[19]

Ehtimal etmək olar ki, qədim insanın həyat qaynağı olan çayların, göllərin, bulaqların yaxınlığında yaşaması sonralar ilk suvarma təcrübəsinin yaranması baxımdan mühüm əhəmiyyət daşımışdır. Tədricən suvarma əkinçiliyinin ən qədim formalarından biri olan çala əkinçiliyinin rüşeymləri ortaya çıxmışdır. Qarabağ bölgəsində dağ çaylarının sıldırım və ya yarğan olmayan, çay suyundan asanlıqla arx çəkilməsi mümkün olan sahillərində kiçik, minerallarla zəngin məhsuldar ərazilərdə taxıl, arpa əkilib-becərilməsi və ya bağ salınmasının qədim təcrübəyə əsaslandığını söyləmək mümkündür. Bu ərazilərin əkin üçün hazırlanması üçün meşədən təmizlənmiş, ağaclar çıxarılaraq yandırılmış, beləliklə, tala əkinçiliyi də formalaşmışdır.

Quruçay və Köndələnçay vadisində toxa əkinçiliyindən xış əkinçiliyinə keçid, məhsuldar qüvvələrin inkişafında əhəmiyyətli irəliləyişlərə səbəb olmuş, böyük sahələrin əkinçilik üçün mənimsənilməsinə şərait yaratmışdı. İlk Tunc dövründə bu vadidə süni suvarmanın olub-olmaması haqqında hələlik əsaslı dəlil yoxdur. Bununla belə, bəzi yaşayış yerlərinin suvarma üçün əlverişli topoqrafiyasını nəzərə alsaq, onda ehtimal edə bilərik ki, İlk Tunc dövründə vadinin Araz çayına yaxın düzən yerlərində əkinçilik bilavasitə süni suvarmaya əsaslanmışdır. Hazırda belə vadinin yuxarı hissəsində dəmyə əkinçiliyi mövcud

---

[18] *Azərbaycan arxeologiyası*, altı cilddə, I cild, Bakı, Şərq-Qərb, 2008, s.56.
[19] Mikayıl Müşfiq, *Seçilmiş əsərləri*, Bakı, Şərq-Qərb, 2004, s.155.

olduğu halda, aşağı hissəsində əkinçilikdə süni suvarmadan istifadə edilir[20].

İlk Tunc dövrü yaşayış yerləri də əksər hallarda dağa yaxın, kiçik çay sahillərində salınır, sadə  süni suvarma şəbəkələri yaradılır, səpin üçün daha münasib, məhsuldar buğda, arpa dənləri seçilib əkilirdi. Bu dövrdə Mil-Qarabağ düzənlərində əvvəllər sıx məskunlaşmış ərazilərdə iqlimin dəyişməsi, quraqlıq dövrünün başlanması, kiçik çayların və bulaqların quruması ilə əlaqədar əhali əkinçiliyin inkişafı üçün əlverişli ərazilərə köçmüşdür. Qarabağ ərazisində Kür-Araz mədəniyyəti dövrünə aid Qaraköpəktəpədən (Füzuli rayonu, Köndələnçayın sağ sahilindəki yaşayış yeri) ba°qa, Günəştəpə (Füzuli, Bala Bəhmənli kəndi), Kültəpə (Füzuli), Çardaxlıtəpə (Beyləqan), Cüttəpə (Ağcabədi), Şortəpə (Bərdə), Borsunlu (Tərtər), Ağdamda Çəmənli kurqanı (Eneolit-Tunc dövrü), Qəhrəmanbəyli kurqanı, Göytəpə yaşayış yeri və kurqanları, Şümürlütəpə kurqanı, Balatəpə (Əfətli), Sarıhacılı tayı, Ağtəpə (Çəmənli), Qaradağlı kurqanları, Bəyliktəpə kurqanı (İlk Tunc dövrü), Xırmantəpə kurqanı, Hüseyntəpə kurqanları (İlk Tunc dövrü), Çuxurməhli kurqanı (Çuxurməhlə), Qaratəpə yaşayış yeri (Son Tunc-İlk Dəmir dövrü (Şıxbabalı), Gülablı kurqanları (Son Tunc-İlk Dəmir dövrü), Maqsudlu kurqanları, Töyrətəpə kurqanları (Tunc və Dəmir dövrü, Güllücə), Böyüktəpə kurqanı və yaşayış yerləri, Qaçaytəpə yaşayış yeri və kurqanı (Üçoğlan), I və II Üçoğlan yaşayış yerləri və kurqanları (Sarıçoban), Çullutəpə kurqanları (İmamqulubəyli və Quzanlı kəndlərinin arası, Həsəntəpə kurqanı (Çullu kəndi), Sultanbud kurqanı (İmamqulubəyli kəndi) və s. qədim yaşayış yerlərini göstərmək

---

[20] Qüdrət İsmayılov, *Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri,* Bakı, Elm, 1981, s.19.

mümkündür.

Ağdam şəhəri yaxınlığında Üzərliktəpə abidəsində aşkar edilən maddi-mədəniyyət qalıqları, Azərbaycanda eləcə də, Cənubi Qafqazda Orta Tunc dövrü mədəniyyətini öyrənməyə imkan vermişdir. Bu abidə e. ə. II minilliyin birinci yarısında Mil-Qarabağ düzənliyində iqtisadi və mədəni cəhətdən yüksək inkişaf etmiş tayfaların yaşadığını sübut edir [21].

Üzərliktəpə yaşayış yerindən tapılan materiallar burada e.ə. XIX-XIV əsrlərdə məskunlaşmış əhalinin yüksək əkinçilik və maldarlıq mədəniyyətinə malik olduğunu göstərir. Abidədən çoxlu gil qablar, əmək alətləri, dənli bitki qalıqları tapılmışdır[22]. Bu dövrdə təsərrüfatın başlıca sahələri əkinçilik və maldarlıq olmuş, suvarma əkinçiliyinin və qoşqu qüvvəsinin tətbiqi, əkinçilik məhsullarının istehsalını artırmağa imkan vermişdir. Orta Tunc dövründə bağçılıq və bostançılığın təşəkkülü, üzümçülüyün inkişafı, şərabçılığın yaranması, əmək alətlərinin təkmilləşdirilməsi, süni suvarmanın tətbiqinin genişlənməsi məhsuldarlığı daha da artırırdı.

Orta Tunc dövründə Qarabağ ərazisində bəzi yaşayış yerlərinin su mənbələrindən kənarda, münbit torpaqlarda salınması suvarma əkinçiliyinin inkişafını göstərir, həmin dövrdə çəkilmiş arxların qalıqları qalmasa da, yaşayış yerlərinin topoqrafiyası süni arxlardan istifadə edildiyini göstərir. Bu dövrdə köçmə təsərrüfatın təşəkkülü prosesi başa çatmış, düzənliklərdə əkinçilik təsərrüfatı intensiv surətdə yüksəlmiş, bağçılıq və üzümçülük inkişaf etmiş, şərabçılıq meydana gəlmişdir.

Əsasən e.ə.XVII-XIII əsrləri əhatə edən Xocalı abidələri kompleksi yaşayış yerlərin bir qayda olaraq, çay kənarlarında,

---

[21] Yusif Səfərov, *Qədim Azərbaycan: Nə bilirik,*Bakı, Azərnəşr,1989,s.31-32.
[22] Rəşid Göyüşov, *Azərbaycan arxeologiyası*, Bakı, İşıq, 1985, s.40.

təbii-coğrafi cəhətdən əlverişli yerlərdə, strateji cəhətdən müdafiəsi qismən asan olan təpələr üzərində salınmışdır [23].

Son Tunc dövrünün arxeoloji abidələrində xışlara rast gəlinməsə də demək olar ki, bu dövrdə şumlama əkinçiliyindən və qoşqu qüvvəsindən istifadə edilmişdir. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda şumlama əkinçiliyi hələ İlk Tunc dövründən mövcud olmuşdur. Dəmyə əkinçiliyinin yayıldığı dağ ətəkləri ilə yanaşı suvarma əkinçiliyinin tədricən təşəkkül tapması ilə şumlama əkinçiliyi geniş yayılmışdır.

Yaşayış yerlərində və qəbir abidələrində xeyli miqdarda iribuynuzlu heyvan və at sümükləri aşkar olunmuşdur. Yəqin ki, bu heyvanlardan qoşqu qüvvəsi kimi də istifadə edilmişdir. Bu dövrdə qoşqu qüvvəsinin tətbiq olunduğu şumlama əkinçiliyi olmadan, iqtisadiyyatın ahəngdar inkişafını təmin etmək mümkün deyildi eyni zamanda, əkinçilik iqtisadiyyatın digər sahələrinin də inkişafını təmin etmişdir[24].

Arxeoloji qazıntılar zamanı tapılmış əkinçiliklə bağlı əmək alətlərinin bir qrupu oraq dişlərindən ibarətdir, digər bir qrupu taxılın döyülməsi və üyüdülməsi ilə bağlıdır. Göygöl şəhəri yaxınlığındakı 2 saylı kurqandan aşkar olunmuş ağac vəl, bir tərəfinə prizmatik daşlar keçirilən iki eyniformalı parçadan ibarətdir. Forma etibarilə, o, indi Azərbaycanın dağlıq rayonlarında istifadə olunan vəllərə bənzəyir. Bu alətin tapılması Son Tunc dövründə, taxıl döyümündə qədim ənənəvi üsullarla yanaşı, vəllərdən də istifadə olunduğunu göstərir.Yaşayış yerlərindəki təsərrüfat küplərinin içərisindən taxıl və üzüm çəyirdəyinin qalıqları, taxıl quyularında isə darı qalıqları aşkar olunmuşdur. Xocalı kurqanlarından tapılan təsərrüfat küplərinin

---

[23] Rəşid Göyüşov, *Qarabağın keçmişinə səyahət,*Bakı, Azərnəşr, 1993, s.8.
[24] Vəli Baxşəliyev, *Azərbaycan arxeologiyası*, Bakı, Elm, 2007, s.211.

birinin qulpunda buğda təsviri vardır[25].

Arxeoloji, etnoqrafik tədqiqatlar,Qarabağ bölgəsinin coğrafi, hidroqrafik şəraiti, iqlim və torpaq örtüyü və s. şərtlər əkinçiliyin, suvarmanın qədim tarixini izləməyə, təsvir və təhlil etməyə imkan verir. Birincisi, ən qədim dövrlərdən bəri bu bölgədə bəşər tarixinin mövcudluğudur: Ən qədim dövrlərdən insanlar yığıcılıq, mənimsəmə təsərrüfatı ilə məşğul olmuş, tədricən istehsal təsərrüfatına, toxa əkinçiliyinə keçid baş vermişdir. Sonrakı mərhələdə daha da təkmilləşmiş əkinçilik – xış əkinçiliyi, növbəti mərhələdə inkişaf etmiş xış-kotan əkinçiliyi meydana çıxmışdır. İkincisi, bu bölgənin çaylarla zəngin olması, xış əkinçiliyinin inkişafı ilə suvarma əkinçiliyinin yaranması, suvarma arxlarının çəkilməsidir. Üçüncüsü isə əkinçilik təcrübəsinin davamlı olaraq nəsildən-nəslə ötürülməsi daha da təkmilləşməsidir[26].

Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi, Qarabağ ərazisində də əkinçilik sistemləri-dəmyə əkinçiliyi və suvarma əkinçiliyi tarixi inkişafın, istehsal münasibətlərinin inkişafı nəticəsində ortaya çıxmışdır. İlkin əkinçilik sistemi olan dəmyə əkinçiliyinin inkişafı, qədim insanların suvarma əkinçilik sisteminə keçməsi daha yüksəkliklərdə olan yaşayış məskənlərinin (mağara, kaha, sığınacaq və s.) yerlərinin tədricən dəniz səviyyəsindən daha az yüksəkliklərə yerini dəyişdirməsi, nəhayət, yaşayış məskənlərinin düzən ərazilərdə sayının artması ilə xarakterizə olunur və bu da istehsal təsərrüfatının ortaya çıxması, toxa əkinçiliyini xış əkinçiliyinin əvəz etməsi, əkinçilik təcrübəsinin artması ilə müşayiət olunmuşdur.

---

[25] Vəli Baxşəliyev, *Azərbaycan arxeologiyası,* Bakı, Elm, 2007, s.212.
[26] Bəhmən Əliyev, Şövqi Həsənov, *Əkinçilik/Qarabağ: Maddi, mədəni və mənəvi irs (tarixi-etnoloji tədqiqat)*, II kitab, Bakı, AZPoliqrAF, 2023, s.47.

Yuxarıda sadalanan coğrafi, arxeoloji və etnoqrafik materiallar Qarabağ ərazisində dəmyə və suvarma əkinçilik sistemlərinin müxtəlif formalarının (vadi əkinçiliyi, tala əkinçiliyi) yarandığını, əkinçilik təcrübəsinin təkmilləşməsi ilə dağ-vadi əkinçiliyi, növbəli əkinçilik, herik əkinçiliyi və s. əkinçilik formalarının yarandığını təsdiqləyir.

Arxeoloji materiallar e.ə. I minilliyin ikinci yarısında Azərbaycanın şimal vilayətlərinin xeyli inkişaf etmiş oturaq əkinçilik - maldarlıq təsərrüfatına malik olduğunu təsdiqləyir. Burada təbii və iri irriqasiya qurğularına əsaslanan suvarma əkinçiliyi mövcud idi. Əkin sahələrində və çay vadilərində e.ə. I minilliyə aid çoxlu sayda qədim  arxların izləri aşkarlanmışdır.

Əsasən miladdan sonrakı yüzilliklərə aid tarixi mənbələrdə Qarabağın təsərrüfat həyatı, əkinçilik və maldarlığı haqqında maraqlı məlumatlar vardır.İri yaşayış məskənlərinin, şəhərlərin formalaşması, dövlətlərin yaranması, tarixi-siyasi hadisələrin gedişi təsərrüfatın müxtəlif sahələrinin, xüsusilə əkinçiliyin və maldarlığın inkişafını, onunla bağlı olan ticarət və sənətkarlığın inkişafını şərtləndirmişdir.

Qarabağ ərazisində iri yaşayış məskənlərinin, məsələn, Bərdə şəhərinin yaranması əkinçiliyin, maldarlığın, sənətkarlığın və ticarətin inkişafı ilə yanaşı, irriqasiya sisteminin təşəkkülü ilə əlaqədar olmuşdur. Tərtərçayın sahilində, Qarabağ düzənliyinin mərkəzində yerləşən Bərdə şəhərinin yaxınlığındakı Şortəpə yaşayış yeri (e.ə. VII əsr) maddi-mədəniyyət nümunələrinin, o cümlədən suvarma sisteminin inkişafı ilə seçilir.

Tarixi mənbələrə görə, Albaniyanın torpaqları çoxlu sayda çaylar və süni suvarma arxları ilə suvarılırdı. Suvarma sisteminin inkişafı münbit iqlim şəraiti, bərəkətli torpaqların məhsuldarlığını daha da artırmışdır.

Yunan coğrafiyaşünası Strabonun verdiyi məlumata görə, Albaniyada suvarılan sahələr Misir və Babilistanda suvarılan sahələrdən çox olmuşdur. O, yazır: *"Albaniyada çox vaxt bir dəfə əkilmiş torpaqdan iki və hətta üç dəfə məhsul götürülür. Birinci dəfə, hətta dincə qoyulmadan və sadə xışla becərilən torpaq birə əlli məhsul verir".*[27]

M.Kalankatuklu Alban ölkəsinin məhsuldar torpaqları, çayları haqqında yazır: *"Uca, Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır və iri və xırda balıqlar gətirib, sularını Xəzər dənizinə tökür. Aran Araz çayından başlayaraq Hunan qalasına qədər uzanan Alban ölkəsinin düzənliklərini və dağlarını miras olaraq almışdır"*[28].

Qədim yazılı mənbələrdə,tarixi, arxeoloji, etnoqrafik tədqiqatlarda Qarabağın çaylarının yaşayış məskənlərinin salınmasında, tayfaların məskunlaşmasındakı roluna xüsusi diqqət yetirilmişdir.

Rəşid Göyüşov Qarqar çayı hövzəsində yaşamış qıpçaq-qarqar tayfası, Tərtər və Xaçın çayları arasında yaranmış Xaçın feodallığı haqqında məlumat verir. Bildirir ki,*"Qarabağ daha geniş ərazini, yəni qədim Paytakaran, Uti, Haband, Arsax və Qarqar vilayətlərinin bir hissəsini birləşdirərək Araz və Tərtər çayları arasını əhatə etmişdir"*[29]. Qarqarların qırğı/kərki yırtıcı quşunu onqon sayan qədim türk qəbilələrindən olması ehtimal edilir.

---

[27] Страбон, *География,* Москва, 1964, с.493.
[28] Moisey Kalankatuklu, *Albaniya tarixi,*Bakı, Avrasiya Press, 2006, s.9.
[29] Rəşid Göyüşov, *Qarabağın keçmişinə səyahət*, Bakı, Azərnəşr, 1993, s.5.

Qarabağdakı Qarqar dağ silsiləsi, Qarqar çayı, Qarqar düzü ilə yanaşı, XIX yüzillikdə Balxaş gölü ətrafında Akmola-Qarqar adlı yer, Dağıstanda (Teymurxan Şura vilayətində) Qarqar dağı, Tiflis quberniyasında (Tioneti və Ahıska uyezdləri) Qarqar çayı, Qarqariç dağı, Qarqar Qutan kimi yer adları qeydə alınmışdır[30].

Maraqlıdır ki, Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərində "ərküz su" yazbaşı "qarın və buzun əriməsindən hasil olan su, qarqara" kimi izah olunur.

*Yay baruban ərküzi,*
*Aktı akın munduzı,*
*Toğdı yaruk yulduzı,*
*Tinqlə sözüm külgüsüz.*

*Yay gələndə qarqara,*
*Axdı axın selləri.*
*Doğdu parlaq ulduzu,*
*Dinlə məni gülmədən.*[31]

"Azərbaycan dilinin dialektoloji lüğəti" ndə isə "küz", yəni payız sözü Ordubad dialektində, Meğri şivəsində "əkin sahəsindən axan kiçik arx", Füzuli, Xocavənd şivələrində "kotanın, xışın açdığı şırımlarla hissələrə bölünmüş əkin sahəsi", "əkin sahələrini bir-birindən ayıran şırım, cızıq" mənalarında işlənir[32]. Şırımlarla əkin sahələrinin bölünməsi adətən çəltik əkinçiliyində istifadə olunurdu ki,ləklər vasitəsilə şitilləri bol su

---

[30] Altay Məmmədov, *Qarabağ, onun qədim tayfaları və toponimləri*, Bakı, Mütərcim, 2008, s.122.
[31] Mahmud Kaşğari, *Divani lüğət-it-türk,*dörd clddə, I cild, Bakı, Ozan, 2006, s.160.
[32] *Azərbaycan dilinin dialektoloji lüğəti,* Bakı, Şərq-Qərb, 2007, s.221.

ilə təmin etmək mümkün olsun, bu şəkildə sudan daha səmərəli istifadə edilir, su itkisi az olurdu.

Qeyd edək ki, "Tərtər" çayının adı da qıpçaq tayfalarından birinin adıdır. "Tərtər" sözü "Turut" sözünün paralellərindən biridir. Böyük Qafqazda qeydə alınmış Böyük Turut Şəki yaylasının qərb hissəsindəki dərədir və buradan Turut çayı axır. Turut, Tərtər, Sərsur, Turtu, Turtur variantlarında qeydə alınmış bu toponimin ikiminillik tarixi vardır [33].



**Suqovuşan**

Albaniya, Ərəb xilafətindən sonra müxtəlif dövlətlərin-Səlcuqlular, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilərin nəzarətinə keçən, bəylərbəylik, sancaqlıq, xanlıq dövrünü yaşayan Qarabağın nisbi sərhədləri su mənbələri, xüsusilə çaylarla müəyyən olunmuşdur. Burada təkcə şərti sərhəd deyil, eyni zamanda, çayların və digər su mənbələrinin yaşayış məskənlərinin salın-

[33] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki cilddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.155.

masında, təsərrüfat həyatındakı rolu önə çıxır. Bu müstəvidə Qarabağ ərazisi ilə bağlı müxtəlif mənbələri araşdıranda maraqlı nəticəyə gəlmək mümkündür: Coğrafi eləcə də, tarixi baxımdan Qarabağın sərhədinin əksər hissəsi çaylarla ayrılmışdır və bu xüsusiyyət çayların qədimdən bəri təsərrüfat istiqamətlərini müəyyənləşdirmişdir.

İlk orta əsrlərdə Tərtərçayın hər iki sahilində salınmış Bərdə şəhəri Azərbaycanın mühüm siyasi-inzibati, sənətkarlıq-ticarət və mədəni mərkəzi idi. Orta əsr müəllifləri Əl İstəxri, İbn Havqəl, Əl Müqəddəsi və başqalarının məlumatlarında Qarabağ-da əkinçiliyin, bağçılığın inkişafı, Bərdədə "iqliminin sağlam, əkinlərinin məhsuldarlığı, meyvələrinin, ağaclarının bolluğu", Kür çayının Bərdənin iki fərsəngliyindən keçməsi, digər çayların Kür çayına yaxın olması, "sağlam iqlimi, meşə və bağları bol olan Beyləqanın çay qolları üzərində dəyirmanların mövcud olması" və s. birbaşa və dolayı məlumatlar bölgədə suvarma sisteminin mövcudluğu barədə müəyyən təsəvvür yaradır[34].

Orta əsr mənbələrində, səyyahların məlumatlarında Azərbaycanda buğda, arpa, çəltik becərildiyi, əkinçiliyin inkişaf etməsi, ümumi iqtisadi vəziyyət haqqında maraqlı məlumatlar verilir. Bu sırada böyük Azərbaycan şairi Nizami Gəncəvinin (XII əsr) əsərlərini, müəllifi məlum olmayan "Əcaib-əd-dünya", avropalı səyyah Marko Polonun (XIII əsr) məlumatlarını və s. sadalamaq mümkündür. Avropalı səyyah Klavixo (XIV əsr) Qarabağda çoxlu çəltik becərildiyini, Həmdullah Qəzvini Kür və Arazdan arxlar çəkildiyini, onun ətrafında kəndlər salındığını yazmışdır.

---

[34] Şahlar Şərifov, *Erkən Xilafət dövründə Azərbaycanda ictimai-siyasi və mədəni həyat,* "Birol Group" MMC, Bakı, 2022, s.167-170; s.188.

Hələ XIII-XIV yüzilliklərdə Qarabağın sərhədləri cənubda Araz çayına, cənub-qərbdə Həkəri çayına, şimal-qərbdə Zəyəmcaya, şimalda və şimal-şərqdə Kür çayına, cənub-şərqdə Quştasfa çatırdı [35].

Orta əsrlərdə əhali bir sıra suvarma şəbəkələrindən istifadə etmiş və bunun nəticəsində əkinlərinin genişləndirilməsinə, təsərrüfatın inkişafına nail ola bilmişdi. İsti yerlərdə və çay kənarlarından uzaq ərazilərdə süni suvarma olmadan təsərrüfatı genişləndirmək yüksək məhsuldarlıq əldə etmək mümkün deyildi[36].

Bir çox başqa Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da yağıntının azlığı əkinçilik təsərrüfatında torpağın süni suvarılmasını zəruri edirdi. Tarlaların və bağların məhsuldarlığı müstəsna dərəcədə suvarma şəbəkəsinin saz halda saxlanılmasından, onun müntəzəm surətdə təmizlənməsindən asılı olurdu. Buna görə də, yalnız bənd və kanalların birbaşa uçurulması deyil, həm də ümumən ölkənin boş qalması, əhalinin tələf olması və işçi qüvvəsinin çatışmaması suvarmanın vəziyyətinə, deməli, bütövlükdə ölkənin kənd təsərrüfatı məhsuldarlığına mənfi təsir göstərirdi.[37]

Orta əsrlərdə Azərbaycanın digər bölgələrində olduğu kimi, suvarmanın 4 növü-arəs (kiçik çay), çay (kanalların və ehtiyat su anbarlarının köməyi ilə), kəhriz (suyun torpaq altından xüsusi lağımlar vasitəsi ilə yerin üstünə çıxarılması) və

---

[35] Vaqif Piriyev, *Azərbaycan XIII-XIV əsrlərdə*, Bakı, Nurlan, s.99.
[36] Şirin Bünyadova, *Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti (XII-XVI əsrlər),* Bakı, Elm, 2007, s.84.
[37] Oqtay Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti,* Bakı, Şərq-Qərb, 2007, s.344, s.181.

quyu növ və ya üsulları yerüstü və yeraltı olmaqla[38] Qarabağda da yayılmışdır.

Tarixi tədqiqatlar inzibati-ərazi vahidi olaraq, Qarabağ xanlığının tərkibinə daxil olan müxtəlif tayfa birliklərinin daha əvvəlki dövlətlərdə mövcud olduğunu təsdiqləyir. Məsələn, Qaraqoyunluların aparıcı tayfalarından olan alpautlar haqqında məlumatın VIII əsrə aid olması, bu tayfanın Həmədan bölgəsində yerləşməsi, Qaraqoyunlu İsgəndərin zamanında alpautlara Yaqub bəyin rəhbərlik etməsi, Qara Yusifin hakimiyyəti dövründə Qorqan Alpautun Həmədanda hakim, Sorqan Alpautun onun müavini olması, alpaut tayfasının Çuxursəd, Qarabağ, Şirvan bölgələrində məskunlaşması, bu tayfa ilə bağlı oykonimlərin, etnonimlərin hazırda Bərdə, Qazax, Göyçay, Laçın və Ucar bölgələrində, Cənubi Azərbaycanda saxlanılması qeyd olunmuşdur[39]. Müxtəlif tayfaların məskunlaşmasında tarixi, hərbi-siyasi hadisələrlə yanaşı, təsərrüfat forması mühüm rol oynamışdır və bu təsərrüfat formasının yaşayış yerlərinin yaranmasında çaylar xüsusi rol oynamışdı.

Qarabağdakı çaylarının sahili boyu müəyyən tayfalar məskunlaşmış, əkinlə, yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olmuşlar. Məsələn, XVI yüzildə Qarabağ tərəkəmələrindən ibarət "İyirmidördlü" adlı inzibati dairə mərkəzi Bərdə şəhəri olmaqla Tərtər çayı boyunda yerləşirdi. Həmin əsrdə Qarabağ düzündə, Bərdədən cənubda yerləşən suvarılan torpaqlar isə "Otuzikilər" tayfasının yaratdığı birliyin irsi mülkü idi.

---

[38] Oqtay Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, Bakı, Şərq-Qərb, 2007, s.344, s.239.

[39] Tofiq Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında)*, Bakı, Çaşıoğlu, 2012, s.35.

Səfəvi-Osmanlı müharibəsi (1578-1590) başa çatdıqdan sonra Osmanlı dövlətinin maliyyə məmurları tərəfindən aparılmış təhrir işləri (siyahıyaalınma) "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"ndə (1593) ümumiləşdirilmiş, Qarabağ bölgəsinin inzibati vahidlərinin dəqiq mənzərəsi verilmişdir. "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"nə görə, keçmiş Qarabağ bəylərbəyliyinin ərazisi 36 nahiyəyə bölünən 7 sancaqdan ibarət olmuşdur. Bunlar Gəncə (12 nahiyə), Bərdə (4 nahiyə), Xaçın (7 nahiyə), Axıstabad (5 nahiyə), Dizaq (3 nahiyə), Həkəri (4 nahiyə), Vərəndə (1 nahiyə) sancaqları idi[40] .

İcmal dəftərində əkinçiliklə məşğul olan kənd sakinlərinə cift ("*ciftlik"*) adlanan və torpağın məhsuldarlığından, əkin üçün yararlı olan kəndin torpaq fondunun böyüklüyündən asılı olaraq dönümlə (bir hektara yaxın əkin sahəsi) ölçülən torpaq sahəsi verilirdi. Ciftliyin sahəsi şərtlərə görə 60-150 dönümlük olurdu. Maraqlı cəhət odur ki, Gəncə-Qarabağ vilayətində osmanlılar ciftlik üçün onun sahəsini dönüm deyil, Səfəvi dövrünün qaydasını nəzərə alaraq,"tağar" adlı ağırlıq ölçüsü ilə məhsuldarlığını meyar kimi seçmişdilər. Bir tağarın 150 okka və ya 192,3 kq olduğunu qeyd edən osmanlılar Bərdə qəzasının bir neçə kəndində olan ciftliklərin məhsuldarlığını bu meyarla ölçmüşlər. Dəftərdə əkin sahəsinin yarısı dəftərdə "nim cift" (yarım cift) kimi qeyd edilirdi. Yarım ciftdən az əkin sahəsi olanlar isə "resmi-i zemin" və "resmi-dönüm" adında torpaq vergisi ödəyirdilər [41].

Gəncə-Qarabağ vilayətində dənli bitkilər arasında ən geniş yayılanı və ən çox gəlir gətirəni çəltik olmuşdur. Çəltikçiliyin

---

[40] *Gəncə-Qarabağ əyalətinin icmal dəftəri*, Bakı, Şuşa, 2010, 508 s.

[41] *1595-ci tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri*, "Birol Group" MMC, Bakı, 2022, s.54.

bir qayda olaraq suvarma üçün su qıtlığı olmayan yerlərdə inkişaf etdiyini söyləmək mümkündür. Çəltikçilərin ödədiyi verginin həcmi məhsulun beşdə birinə *("hums-i çeltük")* bərabər olmuşdur. Çəltikçilikdən əldə edilən gəlir bəzi hallarda "zeamət" sahibinə verilmiş, lakin əsasən sultan xaslarına aid edilmişdir [42].

Əkinçilik üçün torpağın yararlığı və iqlimin münasibliyi ilə yanaşı əkin sahələrinin suvarma imkanlarının olması da əkinçiliyin inkişafını şərtləndirən mühüm amillərdən olmuşdur. Həm səfəvi, həm də osmanlılar dövründə Gəncə-Qarabağ vilayətində sudan istifadənin tənzimlənməsi qaydaları müəyyən edilirdi. Səfəvilər dövründə *"mirabi",* osmanlılar dövründə isə *"adeti-mirabi"* terminləri ilə müəyyən olunmuş şərtlərlə suyun bölüşdürülməsinə nəzarət edən məmura veriləcək maaş üçün yığılan rüsum nəzərdə tutulmuşdur. Lakin mirabidən fərqli olaraq, osmanlılar dövründə bu rüsum suyun bölüşdürülməsinə məsul olan məmura deyil, zeamət (torpaq sahibliyi forması) sahiblərinin hesabına əldə edilmişdir. Osmanlılar dövründə icmal dəftərində suyun bölüşdürülməsinə kimin nəzarət etdiyi haqqında heç bir məlumat yoxdur. İcmal dəftərinin materiallardan başa düşmək olar ki, "*adeti-cuvari*" Gəncə-Qarabağ vilayətinin hamısında deyil, yalnız səkkiz nahiyəsində yığılmışdır. Bu səkkiz nahiyədə çox ehtimal ki, ya əkin üçün istifadə edilən sahələr böyük olmuş, ya da ki, su qıtlığı mövcud olmuşdur[43]. İcmal dəftərlərində adətən "*mirabi*" terminindən istifadə edilmişdir və burada əksini tapan "*nehir*" termini "*nehri-çeltük*" şəklində istifadə olunmuş, bu da *"çəltik çayı"*

---

[42] *1595-ci tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri*, "Birol Group" MMC, Bakı, 2022, s.55.
[43] *1595-ci tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri*, "BİROL GROUP" MMC, Bakı, 2022, s.56.

anlamında deyil, *“axar suyu olan çəltik sahəsi”* kimi başa düşülür.

XVIII əsrə aid məlumatlarda Qarabağda əsas çəltikçilik mərkəzinin Bərgüşad mahalı olmasına dair faktlar mövcuddur, bu mahalın 67 kəndindən 34-də çəltik əkilib-becərilirdi.[44]

İcmal dəftərlərində Gəncə livasının Bərdə qəzası üzrə Bərdə qəsəbə nahiyəsinin Gücnü, Zeynədin, Biran, Kərdikan, Xatunabad, Rişkabad, Xatunabad, Əbülfəttah, Yoncaabad, Çürtük, Qaziyan, Əliabad Şeyx Səid, Bəydər, Qır kəndləri və s. Bərdə qəzasının Sir nayihəsi üzrə Şəmi-Şir, Şeyx Baba, Yenicə, Seyid Xəlifan, Püstənkaran, Arslanşah, Qayı, Kabudəri, Turabad, Xanəgah Abbas, Rindəsər, Kütəhan, Əliabad və s. Bərdə qəzasının Pətəklik nahiyəsi üzrə Dərvişli, Xəlifəli, Xəlil Vənətşalı, Dəlilər, Şəmşəbad Divar, Əyricə, Həkimşahlı, Genlan, Qara Ağaclı və s. Bərdə qəzasının İncərud nahiyəsi üzrə Alaçuq, Pətəklik nahiyəsi üzrə Axşabad, Neftalan, Şütür nahiyəsinin Nemətabad, Yavlaq nahiyəsi üzrə Bük, Qaraağac qəzasının Ağcabədi nahiyəsi üzrə Ağcabədi,Xuzyan, Ləmbəran, Xusyan kəndinin Xəlil Fəxrəddinli camaatı, Xaçın-Qərqər livasının Çələberd Aranı nahiyəsi üzrə Kələki, Tərnəgird, Gərəkabad, Xak, Qədağus, Dərəxtlik, Yenicə, Alagöl, Şəhri, Şəmi, Seyil Şeylan, Suqiyar, Qaçı, Yarımca, Daşarxı, Çaylı Çors, Sunquragəmbad, Sunqurabad (Şəkərağac), Xaçın-Qərqər livasının Qaraağac nahiyəsinin Baba Danyal, Qarabağ, Yekəcik, Tuğlat, Qətni, Səralan, Qarabağ, Yekəcik, Bina Hüşkabad, Mübarəkabad, Həsənəkən, Mübarəki, Arazyön, Çanaqçı, Hacıbəy Murad, Ovsunçay, Ataşan, Xoşaman, Qızqala, Mustafa, Molla Mahmud, Xaçkan, Xaçın Aranı nahiyəsinin Güney, Qərqər nahiyəsinin Münəvvərköy, Zəvadıq məzrəsi,

---

[44] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*, Bakı, Şuşa, 2000, s. 489-529.

Çakırca məzrəsi, Güləbəddin, Vərəndə livasının Çanaqçı, Dizaq livasının Arasbar nahiyəsinin Gavqoşan, Əyri, Maralyan, Çayırlı, Çalağan, Xanlıq (Xatunarx), Mərgelan Çərğut, Oxçu, Qarabulaq Salhan, Cədid, Rabat, Bəhrambəy, Hərnəvaz, Yataq, Bala zaviyəsi, Qəzənfərabad, Əstərabad, Dizaq nahiyəsinin Naxçıvanik, Ərğallı, Əbyan, Böyük Büləli, Küçük Büləli, Sultanlı, Murğuzlu, Qaracalı, Şabadinli, Cağırlı, Qızqala, Türkəmərzə, Səkkiztənəkə, Şərəfabad, Xatunabad, Əyaz, Cənan, Gülyar, Kəhaz, Yenicəli, Xəlilabad, Aralıq, Əruzlu Qaraca, Sulucuq, Binəcü, Zabitə, Səngabad, Turğaz, Nurpaşa, Alaqarğı, Dovşanlı, Alaqarğı, Sultan, Xəzalan, Atabəy, Əsyaabad, Cəfərabad,Əmirabad,Kərimabad,Talışabad,Xəttabad,Hüseynab-ad, Camalabad, Şəmlüğan, Ağa Əli, Kələğan, Səncrabad, Xurşudabad, Dəlmə, Temürgəldi, Dəryabənd, Kərimabad, Əli Kovxa, Bəyatır, Gölbar məzrəsi, Hürədiz, Kərğədah, Mənsura-bad, Cırçarıq, Ləvədiyar, Mahmudqıran, Gərdeşən, Sərvan, Hərinabad, Astayalar, Qaladan, Gödəkabad, Bədəlcü, Giladiyyə, Qılıçabad, Şəmabad, Ayvalıq, Saruban, Kiçik, Yarlıcıq, Xürrəm-abad, Şeyxabad, Sinanabad, Sunqurabad, Rişəli, Yolbarış, Sifi Həsən, Taşğay, Kənarabad, Hüseyn, Yuxarı Balcıq, Aşağı Balcıq, Yenili, Yuxarı Mədən, Aşağı Mədən, Şəmsəddinli, Kəşalı, Yaqublu, Xəlilli, Dızaq Aranı nahiyəsinin Mərdəmeşkin, Tələveş, Siyavuşan, Yaşılətir, Qızoğlu, Dızaq nahiyəsinin Hərnəvan və s. kəndlərində axar suyu olan əkin sahələrinin olduğu göstərilir.

"Gəncə-Qarabağ vilayətinin icmal dəftəri" nin təhlili nəticəsində Qarabağ kəndlərində əhalinin həm dəmyə, həm də suvarma əkinçiliyi ilə məşğul olmasını vergilərin tərkibinə görə də mümkündür. Bura "*cift*", "*nim cift*", "*resmi zəmin*" (və ya "*rəsmi dönüm*"), "*hums-i çeltük*"lə yanaşı, üzümçülüyün,

meyvəçiliyin və bostançılığın geniş yayıldığı kəndlərdə məhsulun onda bir nisbətində *"üşri-bağat", "üşri-meyvə"* vergiləri aiddir. Hətta çay gəmiləri (*səfinə, keşti*) üçün alınan vergilər gəmiçiliyin mövcudluğunu göstərməklə yanaşı, geniş suvarma şəbəkəsinin yaradılması üçün Kür və Araz çaylarında suyun kifayət qədər bol olduğunu təsdiqləyir. Osmanlı hakimiyyəti dönəmində torpağa görə üç sahiblik formasının (*xas, zeamət, timar*) olması, *"xas"*ların *("havassi-humayun", "havassi-vuzera", "hashai miri-miran", "hashai miri liva", xanədən mənsubları üçün "paşmaklık", təqaüd xasları*), *"zemaət"*in ("məvacib", "an-zemaət"), *"timar"*lar ("rüsümi serbestiyye", "təzkərəli timar") əkin yerlərinin yüksək məhsuldarlığı, yüksək gəlir verməsinə, suvarma imkanlarına görə fərqlənirdi.

J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında Səfəvilər dövrünü araşdıran N. Süleymanov yazır ki, Azərbaycanda əkinçiliyin inkişafı, suvarma sistemindən asılı idi. Əkin sahələri təbii çaylar və onlardan çəkilən su arxları, kəhrizlər və su quyuları vasitəsilə suvarılırdı[45].

Tarixi tədqiqatlarda Səfəvilər dövründə hökmdarların yeni suvarma qurğularının tikilməsinə, köhnə və müəyyən səbəblərdən dağıdılmış suvarma qurğularının bərpasına xüsusi diqqət yetirdikləri qeyd olunur [46].

---

[45] Nizami Süleymanov, *Azərbaycan Səfəvi dövləti XVII əsrdə (J.Şarden, J.B.Tavernye, P.D.Valle və E.Kempferin gündəlikləri əsasında*), İqtisad Universiteti, 2021, s.143.

[46] Lamiyə Namazova, *Səfəvilər dövlətində kənd təsərrüfatı, sənətkarlıq və ticarət (Rocer Seyvorinin tədqiqatı əsasında)*, Akademik tarih ve düşünce dergisi. http://www.dergipark.org.tr/tr/pub/atdd İlkbahar 2022/9-1, s.6,(istifadə tarixi:22.06.2024).

XVIII əsrin əvvəllərində Bərdə sancağına Bərdə, Sir, Pətəklik, İncərud nahiyələri, Xaçın sancağına Xaçın, Qaraağac, Ağcəbədi, Dağlıq Çalaberd, Çalaberd, Qarqar və Mağaviz nahiyələri, Dızaq sancağına Arasbar, Dağlıq Dızaq və Dızaq nahiyələri, Həkəri sancağına Keştasf, Həkəri, Zarıs, Alpaut nahiyələri, Vərəndə sancağına Vərəndə nahiyəsi aid olmaqla Qarabağ xanlığının tərkibinə daxil edilmişdir.

"Müfəssəl dəftər"in hazırlanmasına məsul olan osmanlı məmurları Səfəvilər dövründə vergi toplamaq məqsədi ilə hazırlanmış dəftərdən istifadə edirdilər. Daha dəqiq qeydiyyat aparmaq üçün vilayətin inzibati-ərazi bölgüsünü aparır, yaxud ona dəyişikliklər edir. Sonra isə hər bir nahiyənin düzənlik bölgələrindən başlayaraq üzü yuxarıya, dağlıq ərazilərə doğru hərəkət edirdilər. Qeydiyyat marşrutu arandan dağlıq bölgəyə doğru çay boyunca, çay olmasa, üzü yuxarı gedən və kəndləri birləşdirən yollar boyunca yerləşən yaşayış məntəqələrinin qeydiyyatı aparılırdı. Üzü dağlıq bölgəyə gedən yoldan ayrılaraq, başqa kəndlərə aparan yol boyunca yerləşmiş yaşayış məskənlərinin qeydiyyatı isə əsas yol boyu yerləşmiş kəndlərin qeydiyyatı başa çatdıqdan sonra icra olunurdu[47].

İlk mənbələrin müqayisəli təhlili göstərir ki, Qarabağ xanlığı əvvəllər mövcud olmuş Qarabağ bəylərbəyliyinin böyük hissəsini, əsasən cənub tərəfini eləcə də, Çuxursəd (İrəvan) və Təbriz bəylərbəyliklərinin bəzi ərazilərini əhatə etmişdir. Xanlığın sərhədləri şimal-şərqdə Kür çayına, şimalda Goran çayına, qərbdə Göyçə gölünə az qalmış məsafədə, cənubda Araz çayına çatırdı[48].

---

[47] *1595-ci tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri*, "BİROL GROUP" MMC, Bakı, 2022, s.105.
[48] Tofiq Mustafazadə, *Qarabağ xanlığı*, Bakı, Sabah, 2009, s. 51.

“Qarabağnamələr”dən birinin müəllifi Mirzə Camal Cavanşir Qarabağın sərhədlərini aşağıdakı kimi təsvir etmişdir: *“Qədim tarix kitablarının yazdığına görə, Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər - Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahı ilə “Krasnı most”, yəni “Qızıl körpü” adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər - Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır”*[49].

Mir Mehdi Xəzani Qarabağ xanlığının sərhədləri haqqında yazır: *“O ki qədim təvarixə görə Qarabağ vilayətinin sınır və sərhədi budur: Cənub və qiblə tərəfi Araz çayıdır ki, Xudafərin körpüsündən gedir ta Sınıq körpüyə ki, Dəmirçi-Həsənli və Qazax əhlinin içində vaqedir ki, əmnayi-dövləti-Rusiya ona “Krasnı most” adı qoyublar, yəni Qızıl körpü derlər. Şimal tərəfi Kür çayıdır və məşriq tərəfi Cavad qəryəsidir ki, orada Araz ilə Kür suyu bir-birinə mülhəq olub gedib dəryayi-Xəzəriyə müttəsil olurlar və məğrib tərəfi böyük dağlardır ki, Qarabağın və Gəncənin və Qazax Şəmsəddin xalqının yaylaqlarıdır...Şimdi Qarabağda sərhəd budur: Cənubiyyən rudi-Arazdır, Xudafərin körpüsünün ta Cavad, Əlvənd və Zərdab kəndlərinin müqabilinə (kimi). Şərqiyyən Kür suyudur. Qərbiyyən kühüstanatü-əzimi-Qarabağdır ki, Köşbək və Salvartı və Ərikli dağlarıdır. Şimaliki,*

[49] *Qarabağnamələr,* I kitab, 2006, s.122.

*Gəncə ilə Qarabağın sərhədidir, Göran çayıdır. Bu Qarabağ vilayəti Aran məmləkəti cümləsindədir"*[50].

"Qarabağnamələr" müəlliflərindən Rzaqulu bəy Mirzə Camal oğlu öz əsərinin "Qarabağ vilayətinin torpağı və əyaləti haqqında" fəslində Qarabağın dağətəyi və düzən ərazilərində suvarma sistemi haqqında müfəssəl məlumat verərək yazır: *"Qarabağ səhralarına gəldikdə demək olar ki, dağın ətəyindən, Arazın Xudafərin körpüsündən başlayaraq, Gəncə sərhədi və Cavad kəndinə qədər olan yerlərin hamısı Arazdan çəkilən arxların suyu ilə suvarılırdı. Bir tərəfi Qarqar çayı, başqa tərəfdən isə Köndələn çayı axır. Köndələn çayından Qarqar çayının kənarında olan Qala təpəsinə qədər böyük bir arx vardır ki, su gəlib, Qarqar çayına tökülür. Bu böyük arxdan Cavad kəndinə qədər olan məsafə təxminən altı ağacdır ki, 42 verst edir. Bunlar, əlbəttə, yüksək dövlət məmurlarına məlumdur. Mustafa xanın ixtiyarına verilmiş yerlər və arxlardan başqa, burada 5-6 minə yaxın, bəlkə daha artıq rəiyyətin ailəsi asudə yaşaya bilər"*[51].

Qarabağ bəylərbəyliyinin, daha sonra Qarabağ xanlığının təxmini sərhədlərinin çaylarla müəyyənləşməsi siyasi, hərbi proseslərin nəticəsi ilə yanaşı Orta əsrlərə xas inzibati quruluşların formalaşmasından irəli gəlirdi. Hər bir xanlığın, o cümlədən, Qarabağ xanlığına aid mahalların ərazisi suvarma sisteminə, əsasən çay, göl, bulaq və s. su mənbələrinə görə dəqiqləşdirilirdi. Maraqlıdır ki, Qarabağ vilayətinin nahiyələrinin, sonrakı dövrdə də xanlığının mahallarının ərazilərinin formalaşmasında da çaylar mühüm rol oynamışdır.

---

[50] *Qarabağnamələr,* I kitab, 2006, s.115.
[51] *Qarabağnamələr*, II kitab,2006, s.286

Mahallar çox zaman suvarma prinsipinə uyğun olaraq çay və başqa su hövzələrini əhatə edirdi. Buna görə də, təsadüfi deyildi ki, mahala çox vaxt bir inzibati ərazi kimi su mahalı da deyirdilər[52]. Hətta Çar Rusiyası dövründə Kürdən başqa digər çayların  hövzələrində 5 su mahalı fəaliyyət göstərirdi və bu su mahallarının sərhədləri inzibati sərhədlərlə üst-üstə düşmürdü.

Bərgüşad mahalı xanlığın cənub-qərbində Araz çayının sol sahilində, Püsyan mahalı Qapan çayının sol sahilində yerləşirdi. Vərəndə mahalı Kirs dağından başlayıb Şuşaçaya və Xəlfəliyə qədər idi. Xaçın mahalı cənubda Qarqar çayından başlayıb, şimalda Qabartda, qərbdə Qırxqız və Mıxtökən dağına uzanırdı. Talış və ya Gülüstan məlikliyi Murov və Gülüstan dağından Kürün sahilinə, eni isə Tərtər çayından Gorana qədər uzanırdı. Çilənyurd mahalı cənubda Xaçın və Qabartı çayından başlayıb şimalda Tərtər çayına qədər uzanırdı[53]. Dizaq mahalı qərbdə Həkəri çayı və Kültəpədən keçərək, Şərqdə Maltəpəyə, Cənubda isə Araz çayından başlayıb, Xurat dağına çatırdı.

## ÇAYLAR SUVARMA SİSTEMİNİN ƏSASI KİMİ

Qarabağ ərazisi çoxlu sayda böyüklü-kiçikli çaylar və təbii bulaqların olması ilə fərqlənir. Əlverişli iqlim şəraiti, məhsuldar torpaqları, Kür və Araz çaylarının arasında yerləşməsi Qarabağda əkinçiliyin, maldarlığın inkişafına zəmin yaratmışdır. Məhsul bolluğu yaratmaq məqsədilə qədimdən bəri Kür-Araz

[52] Tofiq Mustafazadə,*Qarabağ xanlığı*, Bakı, Sabah, 2009, s. 62-63.
[53] Altay Məmmədov, *Qarabağ, onun qədim tayfaları və toponimləri,* Bakı, "Mütərcim", 2008, s.87.

düzənliyində suvarma sistemləri yaradılmış, əkinəyararlı torpaq sahələrini davamlı olaraq genişləndirmək üçün müvafiq tədbirlər görülmüşdür. Qarabağın süni suvarma şəbəkəsi şimaldan cənuba doğru qurulmuş, dağ çayları arxlar vasitəsilə cilovlanaraq düzənlərə yönəldilmişdir.

Hidrokimyəvi xüsusiyyətləri kalsium hidrokarbonatlılığına görə onların ümumi codluğu nisbətən aşağıdır və bu çayların suları Azərbaycanda demək olar ki, ən keyfiyyətli sular hesab olunur. Həm də xüsusilə yuxarı hissələrində meyillilik və sululuq çox, axın sürəti böyük olduğundan bu çaylar hidroenerji ehtiyatları ilə də zəngindir[54].

Azərbaycanın digər ərazilərində olduğu kimi, Qarabağ və Zəngəzur bölgəsində də dəmyə və suvarma əkinçiliyi sistemlərinin çala əkinçiliyi, tala əkinçiliyi, dincəqoyma əkinçiliyi, herik əkinçiliyi, toxumdəyişdirmə kimi əkinçilik formaları və ya üsulları olmuşdur.

"Çala" əkinçiliyi Kür, Araz, Alazan, habelə, başqa çayların sahilboyu ərazisində yayılmışdır. Çala əkinçiliyi çaybasar, xalq arasında "çala", "axmaz" adlandırılan torpaqların əkilib-becərilməsi əsasında inkişaf etmiş, bu torpaqlarda əsasən yazlıq taxıl və bostan bitkiləri əkilmişdir. Kür və Araz çayları boyunca yerləşən, Mahmudçala, Axtaçı, Şəkər, Əbilçala və başqa çala adları ilə tanınan axmazlar buğda və arpa əkilməsi üçün əlverişli sahələr olub, yüksək məhsul verirdilər[55].

Bölgənin çaylarla zənginliyi burada suvarma sisteminin inkişafına gətirib çıxarmışdır. Qarabağda çayların sahilləri çala əkinçiliyi üçün əlverişli ərazilər sayılmış və bu sahələrdən geniş

---

[54] *Qarabağın su ehtiyatları iqtisadiyyatın inkişafında dönüş yaradacaq,* http:/www./azertag.az/xeber/, (istifadə tarixi:15.01.2021).
[55] Teymur Bünyadov, *Əkinçilik mədəniyyəti. /Azərbaycan etnoqrafiyası*, üç cilddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.71-73.

şəkildə istifadə olunmuşdur. Suvarma əkinçiliyi ilə sıx bağlı olan çala əkinçiliyi forması xalq arasında *"çaybasar","çala", "axmaz"* adlandırılan torpaqların əkilib-becərilməsi əsasında inkişaf etmiş, bu əkin yerlərində əsasən yazlıq taxıl və bostan bitkiləri əkilmişdir. İnformatorlardan əldə etdiyimiz məlumatlara görə, XX əsrin sonlarınadək dərin dərələrlə axan dağ çaylarının sahilləri boyu, məsələn, Həkəri çayı boyu *"şam" (tələ, taxta)* adlandırılan tarlalarda çəltikçilik, bağçılıq inkişaf etmiş, bostan məhsulları (qarpız, yemiş), kartof, nisbətən iri sahələrdə arpa, yazlıq taxıl əkilib-becərilmiş, çay vadilərinin günəştutan hissəsində bağlar, üzümlüklər salınırdı. Bəzi "şam" əraziləri kifayət qədər geniş olmuşdur. Məsələn, Kəlbəcərin Orta Qaraçanlı inzibati-ərazi vahidinə daxil olan, dağətəyi binə yerində salınmış İmambinəsi kəndinin sakinləri 1961-ci ildə Tərtər çayının sahilində yerləşən "Əhmədoğlunun şamı" deyilən yerə köçmüşdür, bu kənd yerli əhali arasında Əhmədoğlunun şamı kimi də tanınır[56]. Tərtər çayı boyu meyvə bağlarının mövcudluğunu bir sıra adlar da təsdiqləyir, Keşdək kəndinə aid Armudlu sahəsi Tərtər çayının sol sahilində yerləşir.

Belə vadilərin ən maraqlı iqlim xüsusiyyətlərindən biri, rütubətli isti havanın olmasıdır. Bu iqlim şəraiti və minerallarla zəngin torpaq yaxşı məhsul götürməyə imkan vermişdir. Dağ çaylarının sahilində yerləşən düzənlik ərazilərdə bağ sahələri salınmaqla yanaşı, belə ərazilər "qışlaq" funksiyası yerinə yetirmiş, əhali belə vadiləri qışlaq da adlandırmışdır. Məsələn, Laçın rayonunun Kamallı kəndində Ağoğlan çayının sahilində dəyirman fəaliyyət göstərmiş, bağ salınmış eyni zamanda, qışlaq kimi istifadə edilmişdir.

---

[56] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki cilddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.368.

Vadilərdən bir qədər hündürdəki dağətəyi ərazilərdə bağları sulamaq üçün bulaq sularının və kiçik çayların qarşısı bəndlərlə bağlanılır, göllər yaradılır,su kiçik arx və qajlarla istənilən sahəyə aparılırdı.

Azərbaycanda tala əkinçiliyi meşəlik bölgələrində yayılmışdır. Tala əkinçiliyində meşələr qırılıb, yandırılaraq əkin sahəsi üçün yararlı hala salınırdı. Quba-Xaçmazda meşədən təmizlənmiş yer "*kiləvaxt" (küləvaxt, kolavaxt), "kötüklük", "baltalıq", "tala",* Lənkəran-Astara bölgəsində *"kolat"(külət), "abad", "qıran"*, Şəki-Zaqatalada *"tala", "tomarlıq", "axu",* Qarabağ bölgəsində *"tala", "kolabat"* kimi müxtəlif adlar daşısa da yerdə eyni məzmun daşımışdır. Ağdərə rayonunun ərazisində, Qarabağ silsiləsində yerləşən Kolatağ (və ya Kolatək) kəndinin adının da bu sözlə bağlı olduğunu ehtimal etmək mümkündür. Ərazinin quruluşu göstərir ki, yamacda, meşə ətəyi ağaclardan, kollardan təmizlənərək əkin yeri və yaşayış yeri salınmışdır. Bu kəndin adının XIII əsrə aid "damğalı" tayfasının adı ilə bağlı etnotoponim olduğu da ehtimal edilir[57].Tarixən Xocavənd rayonunun Düdükçü kəndinin adı da Kolatağ olmuşdur. Şuşa rayonu ərazisindən axan Həkəri çayının qolu olan Yağlıdərə çayının sahilində, Qarabağ silsiləsinin yamacında yerləşən Göytala kəndi də ərazinin meşədən, kolluqlardan təmizlənməsi nəticəsində məskunlaşdırılmış, əkin sahəsi genişləndirilmişdir.

Bəzi etnoqrafik ədəbiyyatlarda əkinçilik və maldarlıq təsər- rüfatları bir-birinə qarşı qoyulmuş, yaxud biri digərindən əhəmiyyətli təsərrüfat sahəsi kimi qələmə verilsə də, tarixən Azərbaycan ərazisində, o cümlədən Qarabağda əkinçilik və

---

[57] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki clddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.209.

maldarlıq təsərrüfatları bir-birini tamamlamış, əsasən çayların yaxınlığında məskunlaşmış tayfalar eyni zamanda, həm əkinçilik, həm də maldarlıqla məşğul olmuşdur. İnformatorlardan əldə etdiyimiz məlumatlara görə, son illərədək çay və arx sahilləri, göllər,bulaqlar "suvat", "suvlat" funksiyasını yerinə yetirmiş, sürülər, naxırların su içmələri üçün xüsusi yerlər nəzərdə tutulmuşdur. Çaylar, süni suvarma sistemləri təsərrüfat formaları arasında həm praktiki, həm də mənəvi baxımdan vacib hidroqrafik şəbəkə funksiyasını yerinə yetirmişdir.

Qarabağda təsərrüfatın tarixi inkişafını tarixi-etnoloji baxımdan tam təsəvvür və təhlil etmək üçün çayların coğrafi özəlliklərinin, bu çaylar vasitəsilə yaranan hidroqrafik şəbəkənin təsvir edilməsi vacibdir.

Qarabağın suvarma şəbəkəsinin yaranmasında mühüm rol oynayan Araz çayı (1072 km) başlanğıcını Şərqi Anadolunun Bingildağ silsiləsinin şimal yüksəkliyindən (2990 metr) götürür, 364 km məsafədə Türkiyənin ərazisi ilə axır. Axura çayı ilə qovuşandan sonra Araz çayı Bəhramtəpə su qovşağının yaxınlığınadək təqribən 600 km məsafədə Azərbaycanın dövlət sərhədini təşkil edir. Çayın axırıncı 77 km-i Azərbaycanın ərazisindən axır və Sabirabad ərazisində Kür çayı ilə birləşir. Aras çayının sutoplayıcı sahəsi 102000 $km^2$ olsa da, Azərbaycan ərazisində cəmi 15700 $km^2$ dir. Sahilləri tuqay meşələri ilə zəngin olan Araz çayı axdığı ərazinin relyefinə (dağlıq və ovalıq), axım xüsusiyyətlərinə görə iki hissəyə ayrılır. Məsələn, Türkiyə ərazisində Araz tipik dağ çayıdır. İrəvan düzənliyindən, Sədərək, Şərur, Böyükdüz və Naxçıvan düzlərinin cənubundan axan çayın sürəti azalır. Burada Araza soldan Sevcur, Razdan, Arpaçay, Naxçıvan və s. sağdan Qarasu, Maku çayları və s.

birləşir. Araz çayı çox yerdə kanyonvarı dərələrlə axır, coşqun və astanalıdır. Bu hissədə Araza soldan Əlincə, Ordubad, Mehri, Oxçu və s. sağdan Qotur, Qırsı və sol qolları qovuşur. Həkəri çayının mənsəbindən sonra Araz çayı tədricən düzənliyə və Kür-Araz ovalığına çıxır. Həkəri çayının mənsəbindən aşağıda Araza soldan Quruçay, Köndələnçay və s. sağdan Selin, Qarasu və s. qolları birləşir. Arazın Bəhramtəpə su qovşağından mənsəbinədək axdığı hissədə qolu yoxdur. Arazın böyük suvarma və hidroenerji əhəmiyyəti var. Suyundan səmərəli istifadə etmək məqsədi ilə çayın üzərində Bəhramtəpə su qovşağı, Araz su qovşağı və Mil-Muğan sugötürmə qovşağı tikilmişdir. Araz çayı aşağı axınında yatağını tarix boyu bir neçə dəfə dəyişmişdir. Son dəfə 1896-cı ildə Araz daşqın nəticəsində sahil bəndini uçurmuş, suyunun bir hissəsi Muğan düzündən keçərək Xəzər dənizinə axmışdır. Bununla əlaqədar, ərazidə bir neçə göl (Ağçala, Mahmudçala və s.) əmələ gəlmişdir. Sonralar bənd bərpa edilmiş və Arazın suyu əvvəlki yatağına qaytarılmışdır[58]. İnformatorlardan əldə etdiyimiz məlumatlara görə, Araz çayının sahilləri boyu, ən çox daşqın, sel basma hadisələri baş verən ərazilərdə "sellik" adlanan ehtiyat arxlar qazılmışdır, hətta XX əsrdə də bu təcrübədən istifadə edilmişdir. Adətən, həmin yerlərdə heç bir əkin-biçin aparılmır, hər hansı bina tikilmirdi, daim təmizlənən *"sellik"*lərin qurulmasında məqsəd əkin sahələrini çayın sel sularından qorumaq olmuşdur. Tərtər, Qarqar və başqa çayların sahilləri boyu bəndlər qurulmaqla yanaşı, "sellik"lər də qazılırdı.

XIX əsrin sonuna aid "Qafqaz təqvimi" nin materiallarını

---

[58] *Azərbaycanın çayları, gölləri və su anbarları,* http://www.eco.gov.az/az/tebii-servetlerimiz/yerustu-sular), (istifadə tarixi: 28.07.2024).

araşdıran S.Məhərrəmova yazır ki, Xudafərin körpüsü ilə Aslandüz bərəsinin arasından keçib Araz çayına tökülən Nüzgarçay və Qozluçayın, Babi kəndindən 7-8 verst* aralıdan axan Çərəkən, Bəhmənli kəndinin 5-6 verstliyindən keçən Quruçayın, ondan 8 verst aralıdan, Kültəpənin arxasından axan Köndələnçayın yazda qar əriyən zaman bol sulu olurdu və yayda Quruçay tamam quruyurdu. Köndələnçayın suyu həddindən artıq azaldığından bu bölgədə yerləşən kəndlərin əkin sahələri dağ dərələrindən axan kiçik çayların hesabına suvarılırdı. Maralyan kəndi Araz çayının suyu ilə təmin olunsa da, İncəçayın su ehtiyatı az olduğuna görə, Cavanşir qəzasının bir sıra kəndlərinin əkin sahələri Tərtərçay və Bazarçaydan çəkilmiş arxların suyu ilə suvarırdılar. Bu arxlardan yazda istifadə etmək mümkün idi, yayda isə arxların suyu ilə yalnız çəltik sahələri suvarılırdı[59]. İnformatorlardan əldə etdiyimiz məlumatlara görə, Quruçay, eləcə də, digər kiçik çayların quruduğu dövrlərdə çay mənsəbində üzə çıxan bulaqlar müəyyən su ehtiyaclarını ödəməyə kifayət edirdi, hətta çayların mənsəbində dəhnə basıb kiçik göllər yaradaraq suları sahələrə axıtmaq mümkün olurdu, sonrakı dövrlərdə isə su motorlarının köməyi ilə arxlara vurulurdu. Yalnız güclü sellər zamanı bir sıra çayların, o cümlədən Qozlu çayın suları Araz çayına çatırdı.

Mövsümi olaraq, dağ çaylarında su sərfinin Kür və Araz çayları ilə eyni vaxtda artması vəziyyəti qəza həddinə çatdırır. Məsələn, 2010-cu ildə Kür və Araz çaylarında daşqınların qarşısının alınması və suyun səviyyəsinin aşağı salınması məqsədilə

---

* Verst- Çar Rusiyası dövründə istifadə edilmiş uzunluq ölçü vahidi. 500 sajenə, 1066,781 metrə bərabərdir. 1 verst = 1066 m = 3500 fut.

[59] Solmaz Məhərrəmova, *XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin maddi mədəniyyəti və təsərrüfatı*, Bakı, Elm, 2007, s 208, s.111.

İmişli rayonu ərazisində, Bəhrəmtəpə hidroqovşağı yaxınlığında Araz çayının yeni qolu açılaraq, suyun Araz çayının əvvəl mövcud olmuş yatağına yönəldilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmiş və çayın suyunun bir qisminin bu qol vasitəsilə axıdılması nəticəsində yaranmış gərgin vəziyyət aradan qaldırılmışdır[60]. Xatırladaq ki, Araz çayında 1896-cı ildə də güclü daşqın baş vermiş, çay bir sıra qol və axın əmələ gətirərək Qızılağac körfəzinə çatmış, Muğanın 1,2 milyon desyatindən[*] çox geniş ərazisini keçilməz bataqlıqlara, cilliyə döndərmişdir[61].

Həkəri çayı və qismən Tərtər çayı hövzələrinin relyefi dərin erroziya parçalanmasına məruz qalmış, bura tektonik-denudasiya, litostruktur silsilə və tirələr, intruziv massivlər (Dəlidağ və s.), Mıxtökən, Çalbayır silsilərinin yamaclarında qayma tipli sahələr, dağarası çökəkliklər (Pircan, Laçın və s.), çay dərələrində terras səviyyələri ilə fərqlənir [62].

Kiçik Qafqazın cənub-şərq yamacından axan - Tərtər (200 km), Xaçın (119 km), Həkəri (114 km), Oxçuçay (85 km), Qarqarçay (115 km) və s. çaylar Mil və Qarabağ düzlərinin suvarılmasında istifadə edilir. Bu çaylar Qarabağ vulkanik yaylasında formalaşdıqlarından əsasən yeraltı sularla qidalanır. Belə süxurların geniş yayılması ərazidə çay şəbəkəsinin seyrək

---

[60] *Görülən işlər nəticəsində Kür-Araz çayları vasitəsilə sel-daşqın sularının idarə olunması tam təmin ediləcək,*"Yeni Azərbaycan" qəzeti, s.6, (istifadə tarixi: 4 may,2011).

[*] Desyatin-XX əsrin əvvəllərinədək tətbiq edilən 1,09 hektara bərabər yer ölçüsü.

[61] Vəliyev (Baharlı) Məhəmməd Həsən*, Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk),* Bakı, Azərbaycan, 1993, s.9.

[62] "Azərbaycan", *Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi*, Bakı, 2007, s.25.

olmasına səbəb olmuşdur[63].

Qarabağda çoxsaylı quruyan orta və kiçik çaylar vardır. Bu kiçik çayların bir qismindən indi də suvarmada istifadə olunur (Ağdərəçay, Xonaşençay, Ağcaqoşun çayı, Bulanıqçay, Ağoğlançay, İlis çayı, Qozluçay, Qarasu, Şapartı, Horadizçay, Cəbrayılçay, Çaxmaqçay). Maraqlıdır ki, tarixən mövcud olmuş və XVII əsrədək yaşayış davam etmiş Qarabağ adlı ticarət şəhərinin Qarasu çayının sahilində yerləşməsi, Cənubi Azərbaycandan gələn yolun bu çayın yatağı boyu uzanaraq Kiçik Qafqaza daxil olması haqqında səyyah Adam Olearı məlumat vermişdir[64]. Ağcaqoşun çayının sağ qolu olan Şapartı çayı (Gilli, bataqlıq olan çay, çamurlu çay) Xocavənd və Ağcabədi, Tamasan çayı (daşlı yatağı olan çay) Xocavənd ərazisindən axır [65].

Kiçik Qafqazda axımın paylanması olduqca mürəkkəbdir, bu ərazinin oroqrafiyasının vəziyyəti və dağ silsilələrinin müxtəlif istiqamətdə olmaları ilə izah edilir. Ən çox sululuq Gamış və Qapıcıq dağlarının yamaclarından axan çaylarda müşahidə olunur. Atmosfer yağıntıları bəzən Qarabağ yaylasının məsaməli süxurları arasında itərək ərazini susuz sahəyə çevirir, bəzi yerlərdə isə bulaqlar şəklində səthə çıxaraq çayların sululuğunu artırır[66].

Dağ çaylarının formalaşmasında əsasən yeraltı sular, qar suları, yağış suları vacib rol oynayır. Havanın isti vaxtlarında,

---

[63] "*Azərbaycanın çayları",* http://www. gsaz.az/articles/view/108/ Azarbaycanin-chaylari,(istifadə tarixi:23 may 2024).
[64] Yunis Hüseynov, *Qarabağ tarixi mənbələrdə,* Bakı, Şuşa, 2012, s.25.
[65] Nazim Tapdıqoğlu, *Xocavənd ensiklopediyası*, Zərdabi LTD MMC, Bakı, 2009, s.429.
[66] *Azərbaycanın çayları,* http:// www.gsaz.az/articles/view/108/Azarbaycanin-chaylari, (istifadə tarixi:22 may 2024).

yaz-yay aylarında (aprel-iyun) qar suları çaylarda daşqınlar əmələ gətirir, qış aylarında isə çaylarda sululuq azalır. Ümumiyyətlə, dağ çaylarında müntəzəm olaraq sellər baş verir, torpaq sürüşmələri, qar və daş uçqunu bu selləri daha da təhlükəli edir. Güclü leysan yağışları və qarın sürətlə əriməsi nəticəsində dağ yamaclarından axan sel suları gil, qum, çınqıl, daş, hətta qaya parçaları axıdıb gətirir, əkin sahələrini yararsız hala salır, su qurğularını, körpüləri, yolları, kənd təsərrüfatı tikililərini dağıdır.

Kiçik Qafqazın Tərtərçayla Araz çayı arasındakı cənub-şərq hissəsi və vulkanik yayla çayları Qarabağ bölgəsi çaylarını təşkil edir. Bu çaylardan Tərtərçay, Qarqarçay, Xaçınçay, Qaracaçay Kürün sağ qolları, Köndələnçay, Quruçay, Həkəriçay, Oxçuçay və Bəsitçay isə Arazın sol qollarıdır. Tərtərçay və Həkəriçay (Bazarçayla birgə) böyük, qalanları isə orta və kiçik çaylardır.

Qarabağ vulkanik yaylasının yuxarı axarında formalaşan, bölgənin əsas çaylarından olan Tərtərçayın suvarma əhəmiyyəti böyükdür, bu çayın sutoplayıcı sahəsi 2650 $km^2$-dir. Coğrafi baxımdan Qarabağ dağ silsiləsi şimal-qərbdə Tərtərçayın dərəsi ilə Murovdağ silsiləsindən, qərbdə isə Həkəri çayının dərəsi ilə Qarabağ yaylasından ayrılır. Bu çaylar əsasən yağış, qrunt və yeraltı suları ilə qidalanır, ona görə də, ilin isti yarısında daşqınlar baş verir.

Kəlbəcər ərazisində Tərtər və Xaçın çaylarının suayrıcında, "xocalıların yurdu" kimi tanınan Xocayurd (2397 metr) adlanan yaylaq ərazilər yerləşirdi. Tərtərçayın orta axarlarında, Ağdərə rayonu ərazisində Şərq çinarı meşələri yayılmışdır.

Mikayıl Müşfiqin "Tərtərhes" nəğmələri adlı poeması (1936-cı il) dövrün siyasi-iqtisadi konyukturasının təsiri duyul-

sada şair əslində "Tərtər eşqinə"-deyib çayı vəsf etmişdir:

*...O yan dərə, bu yan dərə,*
*Hər yamacda bir mənzərə,*
*Nə aləmdir bu Qarabağ!..*
*Göy üzündə şən buludlar*
*Yer üzündə məxmər otlar,*
*Bu günəşli səhərə bax!*

*Hər yan dağdır, hər yan meşə,*
*Novruzgülü, mor bənövşə,*
*Bülbüllərə, güllərə bax!..*
*Gah mülayim, gah əsəbi,*
*Bir dalğalı ömür kibi*
*Axıb keçən Tərtərə bax!*
*Tərtərdəki səhnələrə*
*Polad döşlü dəhnələrə,*
*İnsana bax, hünərə bax!*

*Gah o gözdən, gah bu gözdən,*
*Murov dağdan, Alagözdən*
*Verə-verə nişan Tərtər.*
*Dağı-daşı uçuraraq,*
*Turağaydan alıb soraq,*
*Eldən-elə qoşan Tərtər.*
*Bir gurlayan həyat kimi,*
*Dərələrdən ağ at kimi*
*Şahə qalxıb aşan Tərtər*[67].

---

[67] Mikayıl Müşfiq, *Seçilmiş əsərləri*, Bakı, Şərq-Qərb, 2004, s.352.

Mikayıl Müşfiq "Tərtərhes nəğmələri" ndə dövrün siyasi konyukturasına uyğun olaraq, tariximizin ən qanlı səhifələrindən birini-daşnakların 1918-ci ildə Qarabağda törətdiklərini özünəməxsus şəkildə unutdurmamağa çalışmışdır:

*...Bu nə yoldur, daşnaq yolu...*
*Hər dərəsi qanla dolu,*
*Nə acıdır bunun adı.*
*O dənizdən bu dənizə*
*Deyib çıxdı sinəmizə,*
*Bir tapdadı, bir doğradı.*

Ermənilər Tərtərçayın qarşısına 1918-ci ilin yaz -yay aylarında bənd çəkərək, azərbaycanlılar yaşayan düzənlikdəki kəndləri içməli sudan məhrum edir, su dəyirmanlarının işini tamamilə dayandırırdı[68].

Qarabağın dağlıq relyefi, yağmurlar, burada çoxsaylı çayların, çeşmələrin, bulaqların yaranmasına gətirib çıxarır, mənbəyini yüksək silsilələrdən götürən çay suları düzənlik ərazilərdə çəkilmiş arxlar vasitəsilə taxıl, bağ, bostan sahələri suvarılır. Kəlbəcər ərazisindəki Qonqur, Alagöz və Mıxtökən silsiləsinin (3120 metr) birləşdiyi sahədə əriyən qarların, yağış və bulaqların sularından formalaşan İstisu və Zəylik çaylarının birləşməsindən yaranan Tərtərçayın əsas qolları Turağayçay (35 km), Levçay (36 km), Ağdabançay (19 km) çaylarıdır, mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 3117 metrdir. Tərtərçayını qolları ilə Həkəri çayını formalaşdıran Şəlvəçay və Hoçazsuçay,

[68] Bəxtiyar Həsənov,*Qarabağ bölgəsi XX əsrin əvvəllərində (ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyat),* İdeal-Print MMC, Bakı, 2022, s.63.

Bazarçayın qolları (Ayıçınqılı vulkanik yüksəkliyi, 3344 metr) eyni silsilələrdən başlayır.

Tərtərçayın Araqçay (qədim türk dillərində *"şimal", "dağın kölgə düşən yamacı", "quru çay yatağı","açıq, geniş sahə", "şimaldan axan çay", "geniş sahəni tutan çay"*), Uluxanlı çayı, Şurtançay, Ayrım çayı, Bağırsaqçay, Çovdar çayı, Başlıbel çayı, Keçəldağ çayı və s. qollarından əkinçilikdə, dəyirmanların işlədilməsində istifadə olunmuşdur. Tərtərçayın qollarına da bir sıra çaylar qovuşur, məsələn, Ağçay Lev çayına tökülür.

Adını eyni adlı dağdan alan Ağdaban çayı yerli əhali arasında Gərəkçay kimi tanınır, tarixən bu çayın həm aşağı, həm də yuxarı axarlarında "Gərəkli" tayfası yaşamışdır. Ağdaban çayı İmarət Qərvənd-Çapar kəndləri arasında Gərəkçaya tökülür, bu çay isə öz növbəsində Qozlukörpüdə Tərtərçaya birləşir. Ağdaban çayı kiçilərək bir arx şəklində Çapar kəndinin əkin sahələrini sulayaraq Tərtərçaya tökülür. Gərəkçayın suları ilə İmarət-Qərvənd, Çapar, Zərdəxac kəndlərinin əkin sahələri suvarılırdı, bu ərazilərdə XX əsrin ortalarında dəmyə əkinçiliyi ilə yanaşı, tütünçülük yayılmışdı, əhalinin əsas məşğuliyyəti maldarlıq idi. Ermənilərin azərbaycanlılara qarşı soyqırım əməlləri bu bölgəyə də təsirsiz ötüşməmiş, sovet hakimiyyətinin ilk illərindən başlayaraq doğma yurd-yuvasından çıxarılmış Zərifli camaatının yerinə Zərdəxac kəndində ermənilər məskunlaşdırılmışdır. Ötən yüzilliyin ortalarında Qozlukörpüdə iri taxta sexləri fəaliyyətə başlamış, burada Lənkərandan bu sahə üzrə mütəxəssislər gətirilmiş, "fin evləri" tikilmiş, qonşu kəndlərdən də azərbaycanlı ailələr də buraya köçmüşdür. Zaman keçdikcə, ermənilərin sıxışdırması nəticəsində azərbaycanlı ailələr əkin-

çiliyin inkişaf etdiyi, meşəçilik üzrə ixtisaslaşmış kənddən köçməyə məcbur qalmışdılar.

Murovdağ dağ silsiləsinin ətəyindən keçən Tərtərçayı kiçik çaylar hesabına gurlaşır, dərin dərələrlə sürətlə, düzən yerlərdə isə aramla axaraq Kür çayına tökülür. Sərsəng su anbarının altında qalan geniş Umudlu çökəkliyindən başqa Tərtərçay əksər ərazilərdə dar, kanyonvari dərələrlə axır[69].

Hələ Qarabağ xanlığı dövründə Tərtərçayın suyu ilə 137 kəndin[70], Qarqar çayı ilə 42 kəndin, Bazarçay ilə 22 kəndin, Həkəri ilə 33 kəndin, Qapançay (Çavundurçay) ilə 12 kənd, Qəndəlaş çayı ilə 7 kəndin və s. əkin sahələri, bağları suvarılırdı.



**Bərdə.**
**Tərtər çayı üzərində orta əsrlərə aid körpü**

[69] *"Azərbaycan",* Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, Bakı, 2007, s.24.
[70] Yunis Hüseynov,*Qarabağ tarixi mənbələrdə,* Bakı, Şuşa, 2012, s.104.

Qarabağın əksər dağ çayları kimi, Tərtərçayı da daim məcrasını dəyişmişdir, bunu informatorlarla söhbətlərimizdən də aydınlaşdırdıq. Çayın məcrasını dəyişməsinin ən bariz nümunəsi isə Bərdə şəhərinin yaxınlığında yerləşən çay daşlarından və qırmızı kərpicdən hörülmüş körpü ilə bağlıdır. On iki tağlı körpü XIV əsrə aid olsa da, onun VI-VII əsrlərə aid körpünün yerində tikildiyi ehtimal edilir. Körpünün vəziyyəti göstərir ki, Tərtərçayın məcrası dəyişmiş, əvvəllər çay tamam fərqli məcra ilə axmışdır. Dörd aşırımlı körpü ilə hərəkət istiqaməti və Orta əsrlərə aid Qala divarları, bürclərin yeri də çayın məcrasını dəyişdiyini göstərir. Dağ çayları sel və daşqınlar zamanı mənsəbindən çıxaraq, əkin-biçin yerlərinə eləcə də, yaşayış məskənlərinə ciddi ziyan vermişdir. Bərdə rayonunun Kələntərli inzibati- ərazi vahidinə aid Körpüsındıran kəndinin adı Tərtər və Xaçın çayının güclü seli nəticəsində dağılan körpüyə görə belə adlandırmışdır, bu kənd adı baş verən sellərin dəhşətli dərəcədə təhlükəli olduğunu göstərir.

Qolları Qarabağ vulkanik yaylasının yuxarı qərb axarında formalaşan Həkəri çayı (qədim adı Alban çayı) öz mənbəyini Laçın ərazisindən, Mıxtökən silsiləsinin (3411 metr) cənubundan, Keçibeli (3080 metr) yüksəkliyindən (Keçibeli yaylağı) götürərək Araz çayına tökülür. Mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 2812 metrdir. İşıqlı gölü, Pəriçınqıl gölü, Alagöllər, Aşıq Qara gölləri Həkəri çayının hövzəsinə aiddir, bu çayın sutoplayıcı sahəsi 2670 $km^2$-dir. Şiştəpə yüksəkliyinin (2580) suları ilə yaranan Şəlvəçay (42 km) və Hocazsuçay (və ya Qaranlıqçay, 43 km), Daşlı, Qorçu, Pircan qolları da Həkəri çayına tökülür.

Əsasən Hocaz kəndindən 5 km aralıda, Bağırbəyli və Bülülduz kəndlərinin cənubunda Qızılevi adlanan yerdə for-

malaşan çay buradan Həkəri adlanmağa başlayır. Bu çaya Zabuxçay (51 km), Ağsuçay (25 km), Xoznavar (14 km), Minkənd, Güləbird çayları da qovuşur. Bu çaylara tez-tez sel suları gəlir, daşqınlar baş verirdi. Mənbələrdə qeyd olunur ki, Ağarlı və Zabux çayları yaz aylarında elə daşırdı ki, Zəngəzur qəzası ilə Şuşa arasında əlaqələr tamamilə kəsilirdi[71].

Həkəri çayının hövzəsinə qollarının sahilləri boyu yerləşən kəndlərlə yanaşı, Laçın,Güləbird, Qubadlı, Muradxanlı, Qarakişilər, Qaracallı, Xəndək, İşıqlı, Qaramanlı, Qarağac, Padar, Sarıyataq, Mollabürhan, Mərdanlı, Əfəndilər, Yuxarı Mollu, Yusifbəyli, Həmzəli, Aşağı Mollu, Xanlıq, Alqurşaq, Hüseynuşağı, Muğanlı, Mahrızlı, Seləli, Ağalı, Alıbəyli, Sarıl, Xumarlı, Şərifan və s. yaşayış məntəqələri aid edilir.

Yeri gəlmişkən, bu bölgənin əhalisi 1921-ci ildə əvvəllərində daşnak hücumlarından qorunmaq üçün çayların sahillərində sığınacaq tapmışdılar. Aran Zəngəzurda, Qubadlı qəzasının əhalisi İrandan gələn quldur dəstələri və ermənilər tərəfindən mühasirəyə alındığından, əsasən daşnakların terroruna məruz qaldığından dağılmış kəndlərin əhalisi çaylar boyu açıq havada məskunlaşmışdılar. 43 kəndin sakinləri gələcəyə ümidlərini itirmişdilər. Qəza mərkəzlə heç bir əlaqəyə malik deyildi, sovet hökuməti tərəfindən onlara uzun müddət heç bir köməklik göstərilməmişdi[72].

Təxminən qırx kilometr şimaldan cənuba doğru axan Həkəri çayı (129 km) sağ sahilini yuyaraq, hündür, sıldırım yarğan formalaşdırmışdır, sonradan bu çay cənub qərbə doğru

---

[71] *Qubadlı:Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı*, Bakı, "Turxan" NPB, 2013, s.92.

[72] İsmayıl Musayev, *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər),*Bakı, BDU,1998, s.323-324.

yönəlir, Bərgüşad və Həkəri çayları Qılıcan, Qaralar və Kavdadıq kəndlərinin yaxınlığında birləşərək Araz çayına doğru yönəlirlər. Qədim adı Alban çayı olan Həkəri çayının adının tayfa adı ilə bağlı olması, "əkin, əkin yeri" mənası verən "aqar/akar" sözündən götürülməsi ehtimal olunur. Bərgüşad çayının adındakı "barqu"nun qədim türk-monqol tayfalarından birinin adı olması, "şad" sözünün qədim türk yazılı abidələrində "yüksək rütbə" anlamı verdiyi, Bilgə xanın kiçik qardaşı, qoşunun baş sərkərdəsi Kültiginin (716-731) şərəfinə ucaltdığı abidədə dəfələrlə "şad" rütbəli bəylər, "şad" və "apa bəylər ifadələrinin işlənməsi məlumdur. Orxon-Yenisey abidələrində "şad" sözünün işlənməsi onun qədim türk sözü olduğunu təsdiqləyir[73].

Həm Bərgüşad, həm də Həkəri çaylarının sahili boyunca əhali bağçılıq və üzümçülüklə daha çox məşğul olurdu. Məsələn, hələ XIX əsrdə Qarabağ əyalətində barama istehsalını artırmaq üçün tut bağlarının (çəkillik) genişləndirilməsinə xüsusi önəm verilmişdir.

Həkəri çayının hər bir qolunun özünün hövzəsi vardır. Məsələn, Şəlvə çayı hövzəsində Qovuşuq, İmanlı, Budaqdərə, Hacısamlı, Şəlvə, Kaha, Daşlı, Qabaqtəpə kəndləri yerləşir, bu çaya Piçənişçay (29 km) tökülür. Şəlvə çayının suyundan bağ-bostan suvarılmasında, dəyirmanların işində istifadə olunmuşdur. Hoçaz çayı hövzəsində isə Ağbulaq, Şeylanlı, Qoşasu, Ağcakənd, Alxaslı, Pircahan (Pircan), Mişni, Sonasar, Hoçaz və s. kəndlər yerləşir.

Tarixən bölgədə yaşayan əhali maldarlıqla məşğul olsa da, dəmyə əkinçiliyi inkişaf etmiş, bu çayların sahili boyu şam

---

[73] *Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı*, Bakı,"Turxan" NPB, 2013, s.308.

(*"sulu yer", "tələ" və ya "taxta")* adlanan tarlalar salınmışdır. Bütövlükdə bölgədə dəmyə əkinçiliyi, suvarma əkinçiliyinin çala əkinçiliyi forması (*"şam", "tələ", "taxta"* adları ilə tanınırdı) və maldarlıq geniş yayılmışdır. Laçından şimalda Minkənd, Qaragöl, Çöplü, Farmaştəpə dağ silsiləsində və s. yüksəkliklərdə yaylaq təsərrüfatı təşəkkül tapmışdır. Bu yaylaqlardan təkcə bölgə əhalisi deyil, İmişli, Qubadlı, Ağcabədi və s. maldarları istifadə etmişlər.

Ağdam rayonunun Üçoğlan inzibati-ərazi vahidliyinə aid olan Balılar kəndi (etnotoponim) Qarabağ düzündə yerləşir. Kəbirlilərin qərvəndli qolunun tirəsi olan balılar elatının qışlağı Mil düzünün Çatalan ərazisi, yaylağı Kəlbəcərin Alagöllər yaylağı olmuşdur[74]. Daimi yaşayış yeri olan Balılar kəndi güzdək ərazisində salınmışdır.

Mənsəbi Həkəri çayı olan Bərguşad çayı (Bazarçay) Araz çayının sol qolu olmaqla, uzunluğu 164 km, sutoplayıcı sahəsi 5600 $km^2$-dir. Çayın hövzəsinin 2020 $km^2$-i, çay yatağının isə 93 kilometri Ermənistan ərazisinə düşür. Ona mənbəyini Zəngəzur silsiləsindəki (3040 metr) Zalxa gölündən götürən Bazarçay, Ağa, Bəxtiyarlı və Davudlu kimi kiçik qolları qovuşur, 20-dən çox kəndin torpaqlarını suvarır. Qaralar kəndinin cənubunda Həkəri çayı ilə qovuşur. Həkəri çayı nisbətən düzənlik sahə ilə axaraq bir sıra qollara ayrılır, yekunda Araza tökülür[75].

Bəsitçayın (uzunluğu 44 km, 17 km Azərbaycan ərazisinə düşür) sağ sahili dik, yamaclı dağlardan, sol sahil isə təpəliklərdən ibarətdir, çay vadisi boyunca ensiz allüvial düzənliklər vardır. Qar, yağış, qismən də yeraltı sulardan qidalanan Bəsitçay

---

[74] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki cilddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.109.
[75] "Azərbaycan", *Azərbaycan Milli Ensiklopediyası* Elmi Mərkəzi, Bakı, 2007, s.25.

(Balaçay) Razdərə kəndinin ərazisindən axanda Razdərəçay, Baharlı kəndinin ərazisindən axanda Baharlıçay adlanır. Dəniz səviyyəsindən 2600 metr hündürlükdən başlayan Bəsitçay və onun iti axınlı qolları olan Sobuçay, Topçay, Şıxavuzçayla birlikdə Araz çayına tökülür.

Qarabağda bəzi çayların başlandığı yer, mənsəbi olsa da, müxtəlif səbəblərdən suyu hər hansı bir yerə gedib çatmır. Məsələn, Araz çayının sol qolu olan Çaylaqçayın uzunluğu 32 km-dir. Başlanğıcını Kiçik Qafqazın cənub ətəyindən, 1750 metr yüksəklikdən alır, axımı yağış sularından əmələ gəlir, suvarmada geniş istifadə edildiyinə görə suyu hər hansı çaya və ya gölə tökülmür. Ümumiyyətlə, Qarabağda eləcə də, Azərbaycanın digər ərazilərində geniş yayılmış “çaylaq” sözü “quru çay yatağı”, “müvəqqəti çay yatağı”, bəzən də “çay yatağı” anlamında işlədilir.

Araz çayının sol qolu olan Köndələnçayın uzunluğu 102 km, mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 1780 metr, sutoplayıcı sahəsi 536 $km^2$-dir. Adı “eninə, tərsinə axan çay” mənası verən Köndələnçay böyük təsərrüfat əhəmiyyətinə malikdir, çayın sularından geniş əkin sahələrinin suvarılmasında istifadə edilir. Xocalı və Füzuli ərazisindən axan Ağoğlan çayı Köndələnçayın qollarından biridir.

Quruçayın sağ qollarından olan, yağış suları ilə qidalanan Allıçay başlanğıcını Böyük Kirs dağından (2280 m) götürür, aşağı axınında Agah (İkah) adlanır, Xocavənd rayonu ərazisində Quruçaya tökülür. Çay öz adını vaxtilə burada mövcud olmuş Allı kəndindən götürmüşdür.

Quruçayın sağ qolu olan, yağış suları ilə qidalanan Binəçay mənbəyini Ziyarət dağlarından, adını isə mənsəbinin

yerləşdiyi Binə kəndindən götürmüşdür[76]. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, bostançılıqla məşğul olan Binə kəndi Qarabağ silsiləsinin dağətəyi ərazisində yerləşir.

Xaçın, Qarqar, Köndələnçay, Quruçay, Qozluçay və s. çaylar Qarabağ dağ silsiləsindən başlayır, Mil və Qarabağ düzlərinin suvarılmasında böyük əhəmiyyət daşıyır. Təsərrüfat əhəmiyyəti böyük olan Xaçınçayın mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 2090 metr, uzunluğu 104 km, sutoplayıcı hövzəsi 657 $km^2$-dir. Bu çay öz başlanğıcını Taxtabaşı yüksəkliyindən, Uyuxlu dağından götürür. Çayın məcrasında 1964-cü ildə Xaçın çay su anbarı yaradılmışdır. Bu çay Kəlbəcər, Ağdam, Bərdə rayonlarını keçərək Kür çayına tökülür. Xaçın çayının Xocalı rayonundan keçən əsas sağ qolu Kolatağ çayı mənbəyini Alaqaya yamacından (2500 metr) götürür, dəyirmanların işlədilməsində, suvarmada istifadə olunur. Çayın adı dağın ətəyindəki Kolatağ kəndinin adı ilə bağlıdır.

Qarqar çayı Kiçik Qafqaz dağlarına aid Qarabağ silsiləsinin cənubundan, Xaçınçay isə bu silsilənin şimalından axır. Bu silsilənin ən yüksək nöqtələri Fərrux (2.400 metr), Həyrunsən (2000 metr) yüksəklikləridir. Mövsümi yağışlar zamanı Qarqar çayı sel suları ilə dolur.

*Var olsun Qarabağ, əcəb səfadı,*
*Başa Xaçın axar, ayağa-Qarqar.*
*Göyçə qar əlindən zara gəlibdir,*
*Muğan həsrət çəkər: ay yağa qar, qar...`*

*Ahən gəzər, səngə verər mər dana,*
*Mərd oğulun qəhrin çəkər mərd ana.*

[76] Nazim Tapdıqoğlu, *Xocavənd ensiklopediyası,* Zərdabi LTD MMC, Bakı, 2009, s. 137.

*Mərd igid meydanda durar mərdana,*
*Müxənnət yapışar ayağa, Qarqar.*

*Ələsgəri çəkməginən ala sən*
*Geyinibsən, yar, qəddinə ala sən.*
*Lazımdır ki, qərib könlün alasan,*
*İncidərsən, sənə, ay ağa, Qarqar*[77].



**Qarqar çayı**

Kərkicahan, Xəlifəli, Daşaltı (Zarıslı-Sarısu) çaylarının qovuşmasından yaranan Qarqar çayının mənbəyi ilə mənsəbi arasında hündürlük fərqi 2080 metrdir. Əsas qolları Ballıca, Bədərə, Dağdağan və s. çaylarıdır, ümumilikdə Qarqarçayın 11 qolu vardır. Hələ Qarabağ xanlığı dövründə bu çayın suları ilə 42 kəndin əkin sahələri suvarılırdı.

---

[77] Aşıq Ələsgər, *Əsərləri,* Şərq-Qərb, 2004, s. 89.

Qarqar çayının qolu olan Ağvan (Alvan) çayı mənbəyini Çınqıldağdan alır, Şuşa yaxınlığından keçən çayın adının qədimdə Malıbəyli kəndi ərazisində olan kənddən götürdüyü ehtimal olunur. Ballıça çayı adını Qarabağ silsiləsindəki Ballıca (öfkəotu) yaylağından alır, Qarqar çayına tökülür. Bu ərazi XIX Əhmədbəyli kəndinin yaylaq yeri olmuş, sonra başqa yerlərdən köçürülmüş ermənilər burada məskunlaşdırılmışdır. Qarqar çayının Dağdağançay, Darçay, Bədərə, Girgican (dərin, burul-ğanlı çay), Xəlfəli, İliş (iki çayın qovuşması, "görüş", "görüşmək"), Kolabağ ("üzüaşağı axan", "səs-küylü") qolları vardır. Hər biri özünəməxsusluğu ilə fərqlənir, məsələn, Bədərə çayı vadisində palıd-fısdıq ağac Pirkal meşələri yerləşir.

Gülüstan silsiləsindən axan bulaq sularından formalaşan İncəçay və ya İncərud Güləbörd mahalından keçərək, İyirmidördlü mahalının kəndlərinin əkin yerlərini suvarmışdır. Qardbəy çayı[78] Murovdağdan başlayıb Qaraçinar ərazisində Goran və Kürəkçaya ayrılır, bu çaylar isə Kür çayına tökülür. Əksər mənbələrdə Qardbəy kimi göstərilən hidronimin adının "Xarx" olduğu ehtimal edilir. "Azərbaycan toponimlərinin izahlı lüğəti"ndə göstərilir ki, Xarxaput Goranboy rayonunun Qaraçinar inzibati-ərazi vahidinə aid kənddir, Murovdağ silsiləsinin ətəyindədir.  Oykonimin erkən orta əsrlərə aid Xarx qalasının adı ilə eyni mənşədən olması, qədim türk dillərindəki karqa (daş) və bud (təpə) sözlərindən, Azərbaycan dilinin dialektlərində işlənən qədim türk dillərindəki xarxa (kimsəsiz, dərin) və bud/put (ağac, meşə) komponentlərindən yarandığı, "dərin meşə" mənasında olduğu ehtimal edilir. Kəndin adı 1992-

---

[78] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki cilddə, I cild, Bakı, Şərq-Qərb,2007,s.342; *Azərbaycan Respublikasının tarixi coğrafiyası (1991-2021-ci illər),* Bakı, Füyuzat, 2023, s. 240.

ci ildə dəyişdirilərək "Meşəli" olmuşdur. Maraqlıdır ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da əhali hər hansı çay uzunu qışlaq-güzdək-yaylaq təsərrüfatı ilə məşğul olmaqla yanaşı, yeni yaşayış yerlərinin yaranması da məhz çayların yuxarı və aşağı axarlarında baş vermişdir. Məsələn, Tərtərçayın sağ sahilindəki Çaykəndin (keçmiş adı Alxaslı) Alxaslı kəndindən köçüb gəlmiş ailələr tərəfindən onlara məxsus binə yerlərində salınmışdır[79]. İncəçayın sahilində yerləşən Bəyimsarov kəndinin əhalisi Cənubi Azərbaycanın Sarab vilayətindən gəldiyinə görə XVIII əsrə aid sənədlərdə Sarov kimi qeydə alınsa da, sonralar Qarabağ xanı Mehdiqulu xan kəndi bacısı Azadbəyimə cehiz olaraq verildiyi üçün kəndin adının əvvəlinə "Bəyim" sözü əlavə edilmişdir[80].

Dondarlı kəndi ilə Dəmirçilər kəndləri arasında axan Çayzəmi çayının sahili boyu seyrək meşəlik, meyvə bağları vardı. Bu çayın adı "çökək yer", "vadi" mənası ilə yanaşı, "əkin yeri", "zəmilərin suvarıldığı çay" mənasında da başa düşülmüşdür. "Azərbaycan toponimlərinin izahlı lüğəti"ndə göstərilir ki, Tərtər rayonunun eyniadlı inzibati-ərazi vahidinə daxil olan Dəmirçilər kəndi Qarabağ düzündə yerləşir, yaşayış məntəqəsini 1918-ci ildə ermənilərin törətdiyi qətliamlar zamanı Xocalının Dəmirçilər kəndindən köçüb gəlmiş ailələr məskunlaşmışdılar. XVI əsrdə qızılbaş tayfaları sırasında adları çəkilən dəmirçilər sonralar qazax tayfa birliyinin ən qüdrətli tirələrindən biri olmuşdur[81]. Qarabağda digər bir Dondarlı

[79] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki cilddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.187.
[80] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki ciddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.131.
[81] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki ciddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s. 224.

oykonimi isə Qubadlı ərazisində Bərgüsad dağ silsiləsinin ətəyində, Bərgüşad (Bazarçay) çayının sahilindədir.

Bərdənin Kələntərli inzibati-ərazi vahidinə daxil olan, Tərtərçayın sağ sahilində, Alaçadırlı kəndi XIX əsrdə Zəngilan qəzasının Məzməzək kəndinin qışlağı olmuşdur. Bu kəndin Alaçadırlı nəslinə mənsub ailələri öz qışlaq yerlərinə köçərək Qarabağ düzündə məskunlaşmış, kənd bu nəslin adı ilə adlanmışdır. Tərtər çayının qolu Uluxanlı çayının sahilində dağətəyi ərazidə yerləşən Aşağı Qaraçanlı kəndini XIX əsrdə Zəngəzur qəzasının Qaraçanlı (Laçın) kəndindən gəlmiş sakinləri Uluxan və Əhmədxan adlı iki qardaş salmışlar. Tərtərçayın sahilində yerləşən Boyaqlı kəndinin kəlbəvəli və mərdanlı nəsillərindən bəzi ailələr yaylaq yurdunda məskunlaşmış, yeni yaşayış məntəqəsi də köhnə adı ilə adlandırmışlar. Göründüyü kimi, qədim dövrlərdə yaylaq və qışlaqlar arasında əhalinin hərəkəti əsas çaylar və onların qolları uzunu davam etmişdir.

Çaylar, su mənbələri ətrafında salınan eləcə də, təsərrüfat fəaliyyəti ilə bağlı yaşayış məntəqələri və ya yer adları müxtəlif tayfalara mənsub olan nəsil və tirə adlarını özündə əks etdirir. Məsələn, Xocavəndin Əmiralılar kəndi yaxınlığında qeydə alınmış Eyvazalılar yatağı oroqrafik ad Eyvazlı nəslinin adı ilə əlaqədar yaranmışdır. Laçının Fərraş kəndi yaxınlığında Eyvazlı aşırımı, Laçının Nağdalı kəndindəki Eyvazlı yaylağı, Kəlbəcərin Cəmilli kəndi yaxınlığındakı Eyvazlı yalı oronimi də öz adlarında Eyvazlı nəslinin adını ifadə edir[82]. Bura Qubadlının Eyvazlı kəndini, Ağcabədinin Eyvazalılar və s. toponimlərini də əlavə etsək, Qarabağın dağlıq və aran əraziləri eləcə də, Kiçik Qafqazın yaylaqları, güzdəkləri və qışlaqları arasında, xüsusilə

[82] Nazim Tapdıqoğlu, *Xocavənd ensiklopediyası*, Zərdabi LTD MMC, Bakı, 2009, s.196.

çay vadiləri, su mənbələri hövzələri ilə elatların hərəkətini, məskunlaşmanı, ənənəvi təsərrüfatın təşəkkülünü aydınlaşdırmaq mümkündür.

Qarabağ ərazisində bir çox yer adları, toponimlər bu və digər formada çay, su ilə bağlıdır. Məsələn, Ağdərə "ağ" (kiçik, qısa, dayaz, çox da dərin olmayan) və dərə (çay yatağı, çayın axdığı yer, iki dağ və ya təpə arasında, düzənlikdə uzun, dərin çuxur) sözlərində yaranmış, "kiçik çay yatağı", "çox da dərin olmayan çuxur" deməkdir. Tərtərçayın sol sahilində yerləşən Yuxarı Çaylı, Aşağı Çaylı kəndləri (Ağdərə), Çaykənd (Kəlbəcər), Canyataq (iki çay arasındakı çöl, yataq), Aterk (atrak, çayın mənsəbə töküldüyü yer, çayın mənsəbi), Kəlbəcər (Kevliçer, qədim türk dillərində "çay üstündə qala", "kevli"- çayın üstü və "çericar" – qala) və s. nümunələri göstərmək mümkündür.

Xocavəndin Qaradağlı kəndinin yaxınlığından axan Dəvəbatıran çayının axdığı dərə əvvəllər kolluq və bataqlıq olmuş, vaxtilə karvan yolu ilə buradan keçən dəvələr batdığına görə çay belə adlanmışdır[83].

Kiçik Qafqazın cənub yamaclarından axan çaylarda müntəzəm olaraq sellər baş verir, torpaq sürüşmələri, qar və daş uçqunu bu selləri daha da təhlükəli edir. Əksər çayları mənbəyini yüksəklikdən götürdüyündən, uzun bir məsafədə coşqun dağ çayları kimi axır, yalnız düzənlik ərazilərdə suyun axım surəti azalır. Güclü leysan yağışları və qarın sürətlə əriməsi nəticəsində dağ yamaclarından axan sel suları gil, qum, çınqıl, daş, hətta qaya parçaları axıdıb gətirir. Mövsümi yağışlar (qar və yağmur) zamanı isə sellər nəinki dağ çaylarını, hətta mənsəbində

[83] Nazim Tapdıqoğlu, *Xocavənd ensiklopediyası*, Zərdabi LTD MMC, Bakı, 2009, s.183.

su olmayan quru çayları hərəkətə gətirir, təsərrüfata, yaşayış məskənlərinə ciddi ziyan vurur, əkin sahələrini yararsız hala salır, su qurğularını, rabitə-elektrik xətlərini, körpüləri, kənd təsərrüfatı tikililərini dağıdır. Belə sellər dağlardan iri daşlar, meşələrdən kötüklər gətirir. İnformatorlardan əldə etdiyimiz məlumatlara görə, sellər xüsusilə may ayında qarın əriməsi, iyulun sonu-avqust ayı ərzində yağışlar nəticəsində baş verirdi. Qarabağ bölgəsində sellərə qarşı ən çox tətbiq edilən metodlardan biri ətraf əraziləri daşqınlardan qoruyan torpaq, ağac, dəmir-beton bəndlərin inşa edilməsidir.

## Göllər

Respublikamızda suyu içməyə yararlı olan 600-dən çox göl, təkcə Laçın və Kəlbəcər rayonlarının yüksək dağlıq hissələrində isə irili-xırdalı 100-dən çox göl vardır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsində 7 relikt göl -Kəlbəcər-Laçın yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Pəriçınqılı, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə ərazisində (Tərtər çayının qolu olan Turağaçayda) Qaragöl məşhurdur. Kəlbəcərdə Alagöl dağ silsiləsindəki (dəniz səviyyəsindən 2700-2800 metr hündürlük) Alagöllər qrupuna (30 göl) aid göllərin ən böyükləri Alagöl, Kiçik Alagöl, Çilligöl, Dikpilləkan gölləridir. Vulkan püskürmələri nəticəsində çayların qabağının kəsilməsindən yaranmışdır, şirin suludurlar. Hidronimlər sularının zahiri görü-

nüşü, rəngi ilə bağlıdır[84]. Böyük Alagöl (sahəsi 510 ha, uzunluğu 3670 m, eni 2875 m, dərinliyi 9,4 m, həcmi 24,3 mln. $m^3$) ölkəmizin ən böyük dağ gölüdür. Laçın rayonunun ərazisindəki məşhur İşıqlı Qaragöl 1980-ci illərdə dövlət qoruğu elan edilmişdi, qoruğun 75%-i su akvatoriyasına aid idi[85].

Qarabağ və Şərqi Zəngəzurda Qaragöl, Çöplügöl, Zəlili göl, Daşlıgöl,İyligöl, Camaxlıgöl, Məmmədxangölü, Çoflugöl (Laçın, "otlu-yosunlu göl"), Ayolar (Kəlbəcər), Qaragöl, Şorgöl, Seyid gölü (Xocavənd), Sarışıngöl, Qanlıgöl, Köndələngöl və s. göllər bulaqların suyu ilə qidalanır, arxlar vasitəsilə əkin, bağ sahələrinin suvarılmasında istifadə olunurdu.

## SUVARMA ŞƏBƏKƏSİNİN TƏRKİB HİSSƏLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

Xalqın ənənəvi təcrübəsi, empirik biliyi, sadə əmək alətlərindən bacarıq və ustalıqla istifadə, süni suvarmanın tətbiqi taxılçılıqda məhsuldarlığın artmasına səbəb olmuş və əkin sahələri genişləndirilmişdir.

Kür və Araz çaylarından çəkilmiş ana arxlar sahil ərazinin torpaqlarının əkinçilik üçün yararlı hala salınmasında mühüm rol oynamışdır. Bundan əlavə, suvarma arxları məhsuldarlığın artmasına və əkin sahələrinin genişlənməsinə səbəb olmuş, sututar ərazidə əkinçi əhalinin məskunlaşmasına əlverişli imkan və şərait yaratmışdır. Qədim suvarma arx və kanallarının

[84] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti*, iki cilddə, I cild, Bakı, Şərq-Qərb, 2007, s.39.
[85] Yusif Mahmudov, *Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011-ci illər)*, Bakı, Füyuzat, 2022, s.109.

qalıqlarına hazırda Muğanın suvarılan ərazisində rast gəlmək olar, burada 29 kanalın yeri qalır. Qədim suvarma arxlarından birinin yatağı Muğanın cənubundan, Qaradonlu ilə Biləsuvar arasından keçir[86].

Başlanğıcını Araz çayından götürmüş bir-birinə paralel olan üç böyük suvarma kanalı Mil düzünün torpaqlarının suvarılmasında əsas rol oynamışdır. Bu kanallardan ən uzunu təxminən 80 verstə yaxın olan Hacı Hüseyn arxı idi. İkincisi, ərazinin nisbətən yuxarı hissəsini əhatə edən və uzunluğu 70 verstdən çox olan Govurarx idi. Üçüncüsü isə Qaşqay arxı idi ki, bunun da uzunluğu 60 verstə çatırdı. Mil düzündən keçən, başlanğıcını Araz çayından götürən Govurarx eramızın II əsrindən sonra çəkilmişdir. Arxeoloji materiallar və yazılı mənbələrə görə müəyyən olunmuşdur ki, V-VI əsrlər Azərbaycan tarixində iri müdafiə qala divarlarının tikilməsi və möhkəmləndirilməsi, şəhərlərdə müdafiə divarlarının yaradılması və suvarma kanallarının çəkilməsilə fərqlənmişdir.

XVIII əsrin əvvəllərinə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə Qarabağın suvarma sistemi, çay və arxları nahiyələr üzrə aydın şəkildə təsvir edilir. Bərdə nahiyəsi suları (Sarı çay, Lodi, Tərtərbasan, Güney Tərtər, Qarasu, Horus, Qovacığ, Tərtər, Dil, Dilöyrəyən, Divanlı, Adəmabad, Pişkabad, Çurtək, İncərud nahiyəsi çayları (Eminabad, İncə, İncəbasan, Şilək, Seydilan, Kələntər, Qarasu), Sır nahiyəsi çayları (Sır, Tərtər, Qarasu, Küthan, Tərtərbasan, Farfar, Xaçın, Hindi çayı, Bazarçiyan çayı, Üzərkən çayı, Keriz çayı, Təranə çayı, Kolan çayı, elat tayfalarının suları (Kür çayı, Köndələn çayı, Soyuqaş, Sarıcan, Şahbad, Gülbar, Həsənəkən, Çərəkən, Xatunabad,

---

[86] Teymur Bünyadov, *Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair*, Bakı, 1964, s.22.

Kiçik Daban, Doğalan, Zəliyan, Kamalkənd çayı, Kəlli, Quru çayları, Kələkiarxı, Xan arxı, Soyuqaş arxı) haqqında məlumatlar təkcə irriqasiya sistemi haqqında deyil eləcə də, kəndlər və tayfaların sudan hansı şəkildə istifadə etməsi haqqında təsəvvür yaradır.[87] "Elat tayfalarının suları" bölgüsü əsasən maldar əhalinin istifadə etdiyi yaylaq-qışlaq əraziləri boyu axan çay və arxları göstərir.

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə tayfaların təsərrüfat həyatı, o cümlədən, çala əkinçiliyi, suvarma haqqında maraqlı faktlar əksini tapır. Məsələn, qeyd olunur ki, Cavanşir tayfasının Sarıcalı oymağı "Xaçın nahiyəsində, Tərnəküt torpağında qışlayır...Güştağ adlı yerdə yaylayır. Bayat torpağında Doğalan və Zəliyan çayları kənarında əkinçiliklə məşğul olurlar"[88].Cavanşirlərlə yanaşı, İyirmidördlər, Kəbirli, Otuzikilər, Təklə-Muğan, Dızaq-Cavanşir, Arazlar mahallarının ərazisi əsasən düzənliklərdən ibarət idi. "Müfəssəl dəftər"də Sofulu oymağının Xaçın nahiyəsinə tabe olan Tərnəküt torpağında əkinçiliklə məşğul olduğu, Muxur dağının ətəyində qışladığını, İrəvan torpağında Qızıltəpə adlı yayladığı əksini tapmışdır. Maraqlıdır ki, Şahbulaq qalası Tərnəküt qalası kimi də tanınmış, qalanın ətrafı Xaçın çayının sahili boyu əkinçilik üçün yararlı geniş torpaq sahələri ilə seçilmişdir.

E.Əliyeva arxiv materiallarına əsaslanaraq bildirir ki, Qarabağ xanlığı dövründə elatların əksəriyyəti vergilər ödəmir, xan ordusunun əsasını təşkil edirdilər. Bəzi elatlar, məsələn, Hüseyn Sərkar, Allahverdi Sərkar adlı elatlar Rüstəm bəyə məxsus mal-qaranı, ilxını otarmalı, Şuşaya ərzaq daşımaq üçün araba verməli idilər. Eyni zamanda, mahallarda yaşayan bütün

---

[87] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri,* Bakı, Şuşa, 2000, s.284-451.
[88] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*, Bakı, Şuşa, 2000, s.449.

elatlar ildə iki gün özlərinin xışları ilə xana məxsus torpaqları əkməli və səpməli idilər. Qarabağ xanlığının Kəbirli mahalının Çəmənli Hətəm xan adlı elatı xəzinəyə "salyana" vergisi adı altında 7 çetvert buğda verirdi[89].

Bu məlumatlar eyni elatın həm əkinçiliklə, həm də köçmə maldarlıqla məşğul olduğunu təsdiqləyir. Bütün elatların əkinçilikdə mühüm təsərrüfat aləti olan xışa sahib olması, "malcəhət" (məhsuldan hissə) vergisinin bir forması olan, xəzinənin xeyrinə toplanan "salyana" (illik) vergisi (bir çetvert 250 pud, 7 çetvert 1750 pud) ödəməsi elatların əkinçiliklə geniş şəkildə məşğul olduqlarını təsdiqləyir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, bəzi kəndlərdə XIX əsrin ikinci yarısında təsərrüfat formalarına görə müəyyən bölgü baş vermişdir. Mənbələr və etnoqrafik məlumatlar göstərir ki, Qarabağ düzü və dağətəyi zonasında yaşayan, suvarma əkinçiliyi ilə məşğul olan, təsərrüfatlarında bağçılıq və bostançılıq üstünlük təşkil edən əhali yaylağa köçə bilmədiyinə görə qoyun saxlamamışdır...Süni suvarmadan istifadə etmək imkanı olmayan ərazidə yaşayan əhali ancaq dəmyə arpa və buğda əkirdi[90]. İqlimdən asılı olaraq, taxıl dağətəyi, dəmyə yerlərində aprelin sonunda, yəni arana, suvarma şəbəkəsinin olduğu isti iqlimli ərazilərə (martın sonu-apreli əvvəli) nisbətən bir ay gec səpirdilər, müvafiq olaraq taxıl iyunun sonunda-iyulun əvvəlində hasil edilirdi. Suvarma suyu çatışmayan, maldarlıqla məşğul olan ailələrin bağ sahəsində əkin-dirrik sahəsi olmurdu. Suvarma əkinçiliyinin yayıldığı çayboyu və arxboyu yaşayış məskənlərində həyətlərin yaşıllıq hissəsi meyvə

---

[89] Emilya Əliyeva, *Xanlıqlar dövründə Şimali Azərbaycanda əkinçilik və suvarma sistemi,* Bakı, "Turxan" NPB, 2017, s.30-32.
[90] Xalyəddin Xəlilov, *Qarabağın elat dünyası*, Bakı, 1992, s. 23.

bağından, tərəvəz-bostan sahəsindən ibarət olurdu, bağ-bostan sahəsi həyətlə birlikdə çəpərə alınırdı.

Qarabağda əhalinin məskunlaşmasında, yaşayış məskənlərinin salınmasında çayların rolu böyük olduğundan bu amil inzibati vahidlərin müəyyənləşməsində də mühüm rol oynamışdır. "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"nin təhlili göstərir ki, Bərdə livası üzrə Bərdə nahiyəsinə aid Bərdə şəhəri, Lülü, Bıçaqçı, Həsənqaya, Nuri-Zinət kəndi, Qaziyan Yedditəpə (Əbdülkərim), Harun, Qarğıcıq, Gücnü, Zümürxaç, Quyualpağut Qaraca, Qaratoyuq, Qancıqan kəndləri Tərtər çayının, Şimşir, Bayad kəndləri Tərtərbasan çayının, Təbəllüçat, Kəranə, Əyricə, Zeynəddin, Xatunabad, Şirinova, Naftalan kəndləri Qarasu çayının, Qovacıq kəndi Qovacıq çayının, Saatlı kəndi Dilöyrəyən çayının, Divanlı kəndi Divanlı çayının, Adəmabad kəndi Adəmabad çayının, Çürtək və Şirinabad kəndləri Çürtək çayının, Mənlik (Həsənxanlı) və Bulucan kəndləri Qarasu və Tərtər çaylarının, Horus kəndi Horus və Tərtər çaylarının sahilində yerləşir.

Bərdə livası üzrə İncərud nahiyəsinin Əminabad kəndi Əminabad çayının, Qayacıq, Alacıq, Mil kəndləri İncə çayının, Tulucuq, Maralyan, Axsabad kənd İncəbasan çayının, Şilək kəndi Şilək çayının, Borsunlu kəndi Seydilan kəndinin, Xanagah kəndi Kələntər çayının, Bəydər (İlxıçı), Kirəməl, Qarasu çayının sahilində yerləşir.

Bərdə livası üzrə Sir nahiyəsinin Mehriban kəndi Sır çayının, Tulayi, Yenicə, Şeyxbaba kəndi Tərtər çayının, Dəryabayan, Kopdəri, Qolsuz, Qanlı, Pirancaq, Əliabad Şeyx Səid kəndləri Qarasu çayının, Alpağut Küthan, Küthan, Qarasüd, Kələk, Düdəng, Qayı, kəndi Küthan çayının, Divanarxı, Zahidşahbalağı,Qutludəmir, Seyidani-Mərdəxeyir, Yeni Hacıçilək,

Böyük Həddi-Xəlifət, Kiçik Həddi Xəlifət, Cünik kəndləri Tərtərbasan çayının, Xanagah Abbas kəndi Qarqar çayı, Araniyan kəndi Tərtər çayı, Ləmbəran kəndi Xaçın çayının, Bərdə livasının Bayad nahiyəsinə aid Bayad kəndi, Ağcabədi kəndi, Hindçay kəndi Bazarçiyan çayı və Üzərkən çayının, Həsənabad, Kəriz kəndləri Kəriz çayının, Kürdəhəva kəndi Qarasu çayının, Saqiyan kəndi Tərtərbasan çayının, Dastankəran kəndi, Siyahkolan kəndi Tərtər çayının üzərində yerləşmişdir.

Qarabağda bir sıra çaylar əsasən ayrıca liva və nahiyələrə bağlı idi. Məsələn, Təranə çayı, Təranə çayının qolu Qarasu çayı, Kolan çayı, Hind çayı və onun qolu Əvəzkəriz çayı Bayan nahiyəsinə aid olmuşdur.

Xaçın nahiyəsinə aid Qarqar kəndi, İsfəndiyar kəndi, Bəsibə, Qorçu (Göycan) kəndləri Qarqar çayının, Keştək nahiyəsinə aid Seyid Sultan kəndi Seyid Sultan çayının, Yarımcalı kəndi Yarımcalı çayının, Alagöl kəndi Alagöl çayının, Xak kəndi Xak çayının, Cadavi kəndi Cadavi çayının, Tusi kəndi Tusi çayının, Xoşaman kəndi Xoşaman çayının, Əfsunlu kəndi Əfsunlu çayının, Qoyunlu Mahmudlu kəndi Qoyunlu Mahmudlu çayının, Şəhərəgedər kəndi Şəhərəgedər çayının, Sümə kəndi Sümə çayının, Acıtala kəndi Acıtala çayının, Qunduzçu kəndi Qunduzçu çayının, Şeyxlər kəndi Şeyxlər çayının, Kərkilər kəndi Kərkilər çayının, Kələki kəndi Kələki çayının sahilində, Şeyxlər, Qaraxatunabad kəndləri Qaraxatunabad və Kiçik Daban çaylarının sahilində yerləşmişdir.

Cavanşir tayfasının İbadi oymağı Bayad torpağında Üzərlik çayının, Dədəli oymağı Dizaq nahiyəsində Köndələn çayının, Təməlti oymağı Arasbar sancağında Soyuqaş və Sarıcan çaylarının kənarında, Yağlıvənd oymağına bağlı Gecəgözlü oymağı Çərəkən çayının, Seyid Əhmədli oymağı

Dizaq nahiyəsində Köndələn çayının, Köçərli oymağı Doqquzpərçim Dızaq nahiyəsində Çərəkən arxının, Qarıbəndə oymağı Dızaq nahiyəsində Şahbad arxının, Bayad torpağında, Həsənəkən çayının, Seyid Mahmudlu oymağı Dizaq nahiyəsində, Gülbar çayının, Sabir oymağı Bayad torpağında Həsənəkən çayının, Göyəhmədli oymağı Dizaq nahiyəsində Çərəkən, Xatunabad, Kiçik Daban çaylarının, Yağlıvənd oymağı Arasbar sancağında  Xan arxının, Şeyx Babalı oymağı Keştək nahiyəsində Kələki çayının, Sarıcalı oymağı Bayad torpağında Doğalan və Zəliyan çaylarının, Yağlıvənd oymağı Arasbar sancağında Xan arxının, Kamalkənd çayının, Köçərili oymağı Dızaq nahiyəsinə aid Kəlli, Rəvicik, Quru çaylarının kənarında əkinçiliklə məşğul olmuşlar. Cavanşir tayfasının Molla Fazilli oymağı Qaşqa, Oxçuludərə, Atbayır, Kəlçi, Çoban, Bəyli, Həkəri nahiyəsində Qaragöl adlanan yerlərdə qışlamış, əkinçiliklə məşğul olmuşdur.

Otuzikilər elatının Qiyaslı oymağı Kotan və Kələki çaylarının, Qarabaldır çayının, Dəlilər oymağı Bayad torpağında Həsənəkən çayının, Hacı Türəli oymağı Bayad torpağında Doyuran arxının, Məhəmmədşahlı oymağı İncərud nahiyəsində İncə çayının sahilində, Buğdayiüzü oymağı Bayad torpağında Düznək çayının sahilində qışlamış, əkinçiliklə məşğul olmuşlar.

Otuzikilərin Boyəhmədli tayfası Xaçın nahiyəsində Qabarta çayının kənarında və Çalaberd nahiyəsində, Bərdəyə tabe olan Qaklı, Molla Bədəli, Nabatiyan adlı arxların kənarında Kütəhan kəndinin Qaraağac və Çuxur adlı yataqlarında eyni zamanda, Çərəli yatağında, Aldaş arxının kənarında və 4 dəyirmanı olan Alagöldə əkinçiliklə məşğul olmuşdur [91].

Mənbələri təhlil edəndə məlum olur ki,  Qarabağın

[91] *Gəncə-Qarabağ əyalətinin icmal dəftəri*, 2010, s. 466.

suvarma sistemi XVIII əsrdə olduğu kimi, XIX əsrdə də təsərrüfat həyatında mühüm yer tutmuş, suvarma sisteminin, suvarmaya münasibətin dəyişməməsi təsərrüfat həyatında təcrübənin davam etməsinin sübutudur. "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri" və "Qarabağnamələr"in müqayisəli təhlili Qarabağın suvarma sistemi haqqında da geniş təsəvvür yaradır.

Xüsusilə, XIX əsrdən başlayaraq, hərbi-siyasi reallıqlar, yeni iqtisadi tələbat, texniki tərəqqi, sənayenin inkişafı və s. əkinçiliyin inkişafina mühüm təsir göstərmişdir.

XIX əsr və XX əsrin əvvəllərinə aid mənbələri tədqiq edən T.Mustafazadə maraqlı nəticələrə gəlmişdir, tarixi faktların sistemləşdirilməsi Qarabağın əkinçiliyini, xüsusilə suvarma sistemini etnoqrafik baxımdan təhlil etməyə imkan verir. Gəlinən ən mühüm nəticələridən biri budur ki, xanlıqda çaylara bağlı suvarma qurğularının mövcudluğu əkinçiliyin inkişafına təkan versə də, torpaq sahələrinin münbitliyinin suvarma suyunun olub-olmaması ilə bağlı idi. Ümumi torpaq fonduna nisbətdə əkinə yararlı torpaqların çox cüzi hissə təşkil etməsi, xanlıq ərazisinin meşələrlə örtülü dağlardan və sıx qamışlıqların bürüdüyü çöllərdən ibarət olması, çoxsaylı çayların dərin dərələrdən axmasının, ərazinin yarğanlarla örtülməsinin, torpaqların daşlı olmasının arxların çəkilməsini qeyri-mümkün etməsi, yaxud böyük məsrəf tələb etməsi, suvarma suyunun çatışmaması səbəbindən geniş münbit sahələrin istifadəsiz qalması və s. kimi problemlər özünü göstərirdi[92].

"Qarabağnamələr"in müəlliflərindən biri Rzaqulu bəy Mirzə Camal oğlu Qarabağın suvarma sistemi haqqında müfəssəl məlumat verir: *"Xudafərin körpüsündən başlayaraq*

---

[92] Tofiq Mustafazadə, *Qarabağ xanlığı*, Bakı, Sabah, 2009, s.54.

*Gəncə sərhədi və Cavad kəndinə qədər olan yerlərin hamısı Arazdan çəkilən arxların suyu ilə suvarılırdı. Bir tərəfdən Qarqar çayı, başqa tərəfdən isə Köndələn çayı axır. Köndələn çayından Qarqar çayının kənarında olan Qala təpəsinə qədər böyük bir arx vardır ki, su gəlib Qarqar çayına tökülür. Bu arxdan Cavad kəndinə qədər olan məsafə təxminən altı ağacdır ki, bu da 42 verst edir. Qarabağ torpağı çox mənfəətli və bərəkətlidir. Heç bir iqlim və məmləkətdə bu cür torpağın olduğunu eşitməmişəm"*[93].

Orta əsrlərlə müqayisədə Qarabağda bəzi kənd adları, toponimlərin adları və s. dəyişmiş, yaxud sıradan çıxmışdır. Bu da kəndlərdə məskunlaşmanın artması, qonşu kəndlərin birləşməsi, yaxud kəndlərdə məskunlaşmanın kəsilməsi, əhali köçləri və s. ilə sıx bağlıdır. Xüsusilə XIX əsrdə baş vermiş hərbi-siyasi proseslər, Çar Rusiyasının işğalının başlanması, "Gülüstan", "Türkmənçay" müqavilələrinin bağlanması, rus imperializminin "dayağı" kimi, ermənilərin İran və Osmanlı dövlətlərindən Azərbaycan torpaqlarına köçürülməsi və s. proseslər təsərrüfat həyatına da ciddi təsir göstərmişdir. Tədqiqat zamanı çoxsaylı kəndlərin həm Çar Rusiyası, həm də keçmiş sovet dövründə Azərbaycan torpaqlarında erməni əhalinin məskunlaşdırılmasına dair çoxsaylı, bir sıra hallarda tarixi ədəbiyyatlarda əksini tapmayan faktları üzə çıxardıq. Ən diqqəti çəkən məqamlardan biri budur ki, erməni əhali xüsusilə çay sahillərində, suvarma şəbəkəsinin yayıldığı, yaxud bulaqlarla zəngin ərazilərdə yerləşdirilməsidir. Məsələn, XIX əsrdə Qarabağa köçürülən ermənilər Qafan, Gorus, Şuşa istiqamətində Tərtər çayına və Gülüstana qədər ərazilərdə məskunlaş-

---

[93] *Qarabağnamələr*, II kitab, 1991, s.246.

dırılmışdılar[94].

Azərbaycanlıların sıxışdırılmasına yönələn siyasi-demoqrafik proses haqqında ayrı-ayrı su mənbələri ilə bağlı faktları tədqiq edərkən məlumat vermişik.

Orta yüzilliklərdə əhali sıxlığının artması, yeni yaşayış məntəqələrinin çoxalması, kənd və şəhərlərin salınması və genişlənməsi, nəqliyyat əlaqələrinin intensivləşməsi Qarabağda çay şəbəkəsi çoxsaylı körpülərin tikilməsi ilə müşayiət olunurdu. Gursulu çayların tikintisində qeyd etdiyimiz məsələlərlə yanaşı, çayların nisbətən dayaz və ensiz yerlərində körpülərin salınması ənənəsi ardıcıl şəkildə davam etmişdir, əsasən eyni yerlərdə yerləşən körpülər daim yeniləşmiş, bərpa edilmişdir. Məsələn, Araz çayı üzərindəki 11 və 15 aşırımlı Xudafərin körpülərinin müasir görkəmi XIII əsrə aid olsa da, 15 aşırımlı körpünün hələ VII əsrdə tikildiyi məlumdur [95].

Qarabağda müxtəlif çaylar üzərində tikilmiş Alı körpüsü (XIX əsr, Saracıq kəndi), Kərəm körpüsü (XIX əsr, Saracıq kəndi), Tağlı daş körpü (XIX əsr, Soyuqbulaq kəndi), Aşağı Fərəcan körpüsü (X əsr), Laləzar körpüsü (XIX əsr, Əliquluuşağı kəndi), Hacı Bədəl körpüsü (XIX əsr, Dondarlı kəndi), Mahmudlu körpüsü (XIX əsr), Hacallı körpüsü (XIX əsr), Tağlı körpü (XVI əsr, Sobu kəndi) və s. körpülər XIX əsrə aid olsa da, əksəriyyəti daha əvvəlki dövrlərdə mövcud olmuş, sel və daşqınların uçurub-dağıtdığı körpülərin yerində inşa edilmişdir. Körpülərin özülü iri çay daşları ilə tikilmiş, relyef və suyun axın sürəti nəzərə alınmışdır.

---

[94] Həbib Rəhimoğlu, *Silinməz adlar, sağalmaz yaralar*, Bakı, Azərnəşr, 1997, s.25.

[95] Xeyirbəy Qasımov, *Orta əsrlərdə Azərbaycan mədəniyyəti*, Bakı, 2008, s.136.

# Arxlar

Qarabağ ərazisindən çoxsaylı çayların axması burada arxların çəkilməsinə, geniş suvarma şəbəkəsinin yaradılmasına imkan vermişdir. Orta əsrlərdə Azərbaycan dilində eləcə də, digər türk dillərində "arx" sözü çay sözü ilə sinonim şəklində də istifadə edilmişdir. Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərində arx sözü "arık" şəklində işlədilir: "Ağılda oğlak toğsa, arıkda otı önər" yəni, "Ağılda oğlaq doğulsa, çay qırağında otu bitər". Bu atalar məsəli "ruzi üçün qayğı çəkmə" yerinə işlədilir;[96]..Arıklığ: çaylı, sulu, arıklığ yer = irmaqlı yer[97]; Arık1andı: arx oldu, "suw arıklandı = su axdı, arx oldu". Suyun yerdə irmaqlar kimi yarğan və xəndəklər əmələ gətirməsi də belədir, anklanur- arıklanmak[98]; Atızladı: yerin atızladı = adam əkin üçün torpağı hissələrə böldü, arx açdı, sədd çəkdi, atızlar - atızlamak[99] və s. Bu izahatlardan görünür ki, orta əsrlərdə arx sözü çaya, dağ çaylarının, sellərin yarğanlardan axaraq özünə yol açmasına aid edilsə də, əsasən insan əməyi ilə qazılaraq arx çəkilməsi nəzərdə tutulmuş, birbaşa əkin sahəsi ilə bağlı olmuşdur.

Arxlar Kür, Araz, Tərtər və s. iri çaylardan çəkilmişdir. Bəzi arxlar zaman-zaman yenilənmiş, təzələnmişdir, ona görə də, bir çox hallarda çəkildikləri zamanı müəyyənləşdirmək çətindir.

---

[96] Mahmud Kaşğari, *Divani lüğat-it-türk*, dörd clddə, I cild, Bakı, Ozan, 2006, s.135.

[97] Mahmud Kaşğari, *Divani lüğat-it-türk*, dörd cilddə, I cild, Bakı, Ozan, 2006, s.203.

[98] Mahmud Kaşğari, *Divani lüğat-it-türk*, dörd cilddə, I cild, Bakı, Ozan, 2006, s.315.

[99] Mahmud Kaşğari, *Divani lüğat-it-türk*, dörd cilddə, I cild, Bakı, Ozan, 2006, s.321.

Monqol işğalları Azərbaycanın süni suvarma suvarma sisteminə ağır zərbə vurmuş, arxların çoxu yararsız hala düşmüşdür. Orta əsr müəllifi ən Nəsəvi yazır ki, Cəlaləddinin vəziri Şərəfülmülk Araz çayından "Əs Şərəfi", "Əl Fəxri", "Ən Nizami" adında üç yeni arx çəkdirmişdir[100].

Mirzə Camal Cavanşir Qarabağ vilayətində Tərtər çayının üstündə, Kür çayının üç ağaclığında yerləşən Bərdə şəhəri və qalası, Qubad padşahın min beş yüz əvvəl Beyləqan çölünə arx çəkdirməsi, Köndələn çayından Qarqar çaya qədər kəndlər saldırması, Barlas arxı, yəni Govurarx haqqında məlumat vermiş, Çingiz xanın hücumu zamanı (1237-1238) Beyləqan şəhərinin və Barlas arxının viran qalması, Teymur padşahın Beyləqan şəhərini, arxı abad etməsi, Səfəvi padşahları və Nadir şahın Şirvana, Gürcüstana hücumları zamanı şəhərin yenidən dağılması haqqında yazmışdır[101]. Orta əsrlərdə Govurarxın suyundan Beyləqan şəhərinin qala (Örənqala) xəndəyini doldurmaq və ətraf əraziləri suvarmaq üçün istifadə olunurdu. Govurarx ilə Araz çayının suyu 66 km məsafədə Qarqarçaya qədər axıdılmışdır.

Beyləqan şəhərinin yaxınlığından keçən, Araz çayından çəkilən *"Bu arx, Köndələn çayından tutmuş Qarqar çayına qədər Beyləqanın təxminən 6 ağacdan ibarət geniş səhrasını suvarırdı... Bu yerlər başdan-ayağa əkin və bağ idi. Həmən arxın adı qədimlərdə Barlas idi, indi isə Govurarx adı ilə məşhurdur"*[102]. Pənah xanın hakimiyyəti dövründə və İbrahimxəlil xanın hakimiyyətinin ilk ilərində bu arxdan istifadə olunmuş və xanlar ondan gəlir götürmüşlər.

---

[100] Ziya Bünyadov, *Azərbaycan VII-IX əsrlərdə*, Bakı, Elm,1989, s.197.
[101] *Qarabağnamələr*, I kitab, 2006, s.122.
[102] *Qarabağnamələr*, I kitab, 2006, s.123.

Arxeoloji baxımdan sübuta yetirilmişdir ki, Beyləqanın su təchizatı üçün bişmiş kərpicdən tikilmiş kanallardan və saxsı tünglər vasitəsilə çəkilmiş kəmərlərdən istifadə edilmiş, Araz çayından bura bir neçə arx çəkilmişdir[103].

Qarabağ düzənliyinə Barlas arxından başqa, "qədim zamanlarda Araz çayından Beyləqan şəhəri çölünə bir neçə arx da çəkilmişdir. Hər arxın başında 100-200 evdən ibarət böyük və abad kəndlər var idi. Bu kəndlər taxıl çəltik, ipək və pambıq məhsulundan çoxlu mənfəət əldə edirdilər. 300 il bundan qabaq Beyləqan şəhərindəki bu arxlar xarab olduğuna baxmayaraq mərhum Pənah xan və İbrahim xan hakimiyyətinin ilk dövrlərində abad idi, mərhum xanlar bu arxların gəlirindən faydalanırdılar. Arxların adları belədir: 1. Kürək arxı. 2. Luvar arxı. 3. Meymanə arxı. 4. Gəmiçi arxı. 5. Sarı arx. 6. Ayaz arxı. 7. Qaşqay arxı. 8. Xan arxı[104]. Bu məlumatda Qarabağ xanlığında suvarma sisteminin əsasını təşkil etmiş arxların təsərrüfat həyatında rolu aydın şəkildə göstərilir. Bu suvarma arxları arasında Gəmiçi arxı maraq doğurur və bu təsadüfi deyil. *"1595-ci il tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri"ndə Araz çayında 5 gəminin fəaliyyət göstərdiyi əksini tapmış, buna görə vergi (keştiha-yi ab-Aras) ödəndiyi əksini tapmışdır*[105].

Suvarma suyunun çox böyük əhəmiyyət kəsb etdiyi bir şəraitdə Azərbaycan xanları irriqasiya işlərinə daim nəzarət və himayədarlıq etməyə çalışırdılar. Kənd təsərrüfatı vergilərinin əksəriyyətini natura ilə toplayan xanlar suvarma təsərrüfatının işləməsində çox maraqlı idilər. Ölkədə fəaliyyət göstərən arxların böyük əksəriyyəti xanların təşəbbüsü və nəzarəti altında

[103] Qara Əhmədov, *Qədim Beyləqan*, Bakı, Azərnəşr, 1997, s.122-123.
[104] *Qarabağnamələr*, II kitab, 2006, s.124.
[105] *1595-ci tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri*, "Birol Group" MMC, Bakı, 2022, s.313.

çəkilirdi.Yerli hakimlər arxların çəkilməsinə və saxlanılmasına xeyli qüvvə səfərbər edə bilirdilər[106].

Qarabağ xanlığı dövründə Mil-Qarabağ düzündə Govurarx, Xanarxı və Daşçayarxından başqa, təkcə Araz çayından çəkilən 14 iri arx fəaliyyət göstərmişdir.

Mirzə Adıgözəl bəyin Govurarxla bağlı məlumatı Qarabağda ənənəvi suvarmada mühüm rol oynayan digər arxların əkinçilikdə eləcə də, təsərrüfatın digər sahələrindəki rolunu təsvir etmək baxımdan maraq doğurur: *"...Doğrudan da bu, böyük faydalı bir arxdır. Bu arxın suyu ilə suvarılan əkin yerlərində taxıl, çəltik, pambıq, çəkil (tut) ağacları və başqa hər cür bitki əkilərsə, bol məhsul əldə etmək olar. Belə ki, bir çetvert buğdadan iyirmi çetvert, hətta ondan da artıq məhsul yığmaq olar. Xüsusilə buranın çəltiyi və darısı bol olur. Əgər bu bitkilərdən bir çetvert əkilərsə, təxminən əlli çetvert, hətta ondan daha artıq məhsul əldə edilə bilər. Bitkilərin əkilməsi də asandır. Belə ki, bu işi iki baş öküz ilə asanlıqla görmək olar. Əgər bu arxdan lazımi qayda ilə istifadə olunsa, onun ətrafında beş-altı min ailə kəndlər salıb, rahatlıqla yaşaya bilər. Bu böyük arxdan başqa, Arazdan çəkilmiş daha bir neçə arx vardır. Əgər hər arxın ətrafında yüz-iki yüz ailəlik kəndlər salınarsa, əhali taxıl, çəltik və pambıqdan bollu məhsul götürüb rahat yaşaya bilər*[107].

Qara Əhmədov Govurarx adı ilə ən azı iki arxın olduğunu, bu arxlardan birincisi, Daşburun yaxınlığında Araz çayından başlayaraq 60 km məsafədə Beyləqan şəhərinin yaxınlığından keçərək şimal-qərbə yönəlir, Üçtəpənin yaxınlığından keçərək

---

[106] Emilya Əliyeva, *Xanlıqlar dövründə Şimali Azərbaycanda əkinçilik və suvarma sistemi,*Bakı, "Turxan", NPB, 2017, s.135.
[107] *Qarabağnamələr*, I kitab, 2006, s.123.

Qalatəpə deyilən yerdə Qarqarçaya birləşirdi. Muğan düzündən keçən ikinci arx-Govurarx isə İran ərazisindəki Altınqalanın yaxınlığında Arazdan başlayaraq 10 km çay boyu axaraq cənub-şərqə yönəlir, daha sonra indiki sərhəd boyu 45 km axaraq Şəhriyar adlanan şəhər yerinin yaxınlığında Bolqarçayla birləşirdi[108].

Əkin sahələri əsasən iri və kiçik caylardan götürülən ana arxlar vasitəsilə suvarılırdı. Bu məqsədlə də caylardan ana arxlar ayrılır, həmin ana arxlardan isə ayrı-ayrı kəndlərin əkinlərini suvarmaq üçün iri və ya kiçik qol arxlar qazılırdı. Arxları xüsusi şəxslər, varlı kəndlilər çəkirdi. Qarabağ tarixinə aid məşhur əsərlərdən birinin müəllifi- Əhməd bəy Cavanşir 1843-cü ildə Peterburq Pavlov kadet korpusuna daxil olmuş, hərbi xidmət etmiş, ştab rotmistri rütbəsi almış, 1854-cü ildə Kəhrizli kəndinə qayıdaraq təsərrüfat işləri ilə məşğul olmağa başlamışdır. 1860-cı illərin sonunda isə Vərəndə mahalının murovu* vəzifəsinə təyin edilmiş, uzun əziyyətdən sonra 8 verst uzunluğunda bir arx qazdıraraq onu Mil düzündəki Govurarxla birləşdirmişdi[109]. Bəzi məlumatlara görə, yararsız hala düşmüş arxın 8 km uzunluğunda dağılmış hissəsi Əhməd bəy Cavanşir tərəfindən 1866-cı ildə bərpa edilməsindən sonra Govurarx adıyla yenidən istifadəyə verilmişdir[110].

XIX əsrin ikinci yarısında Qarabağda Əlif arxı, Xan arxı, Rəkkar, Hüseynli, Taleh və başqa arxlar yerli torpaq sahiblərindən olan Rüstəm bəy tərəfindən alınaraq xüsusi mülkiyyətə çevrilmişdir. Rəkkal arxı Qaraçaydan, Xəkarxı Xaçın çayından,

---

[108] Qara Əhmədov, *Orta əsr Beyləqan şəhəri*, Bakı, Elm, 1979, s.15-16.

* Murov-Çar Rusiyası dövründə polis məmuru.

[109] Tofiq Mustafazadə, *Qarabağ xanlığı*, Bakı, Sabah, 2009, s.15.

[110] Elbrus Paşayev, Fazil Həsənov*, Azdövsutəslayihə İnstitutunun tarixi və inkişaf yolu*, Bakı, Şərq-Qərb, 2010, s.38.

Əlifarx Xatınarxdan, Hüseynarxı Araz çayından çəkilmişdir[111].

Qarabağda süni suvarmada relyef vəziyyətindən və su axınından məharətlə istifadə olunmuşdur. Ağdam rayonu ərazisindən axan çatal (qoşa, bitişik, şiddətli) və arx sözlərinin birləşməsindən ibarət Çatalarx çayı (hidronim) ehtimal ki, ərazinin relyefi və insan müdaxiləsi sayəsində gursulu arx-çayın yaranması ilə bağlıdır. Yaxud bir sıra hallarda təsərrüfat fəaliyyəti ilə bağlı olaraq müxtəlif uzunluqda arxlar çəkilmiş, bu arxların adında da [Gödəkarx (Xocavənd)] öz əksini tapmışdır.

Qarabağ xanlığında çoxsaylı bağların, o cümlədən Ağdam ərazisindəki məşhur Güllü bağ, Ərikli bağ, Kotan bağ, Çırayış bağ, Bala bağ, Narlı bağ, Barlı bağ və s. bağların suvarılmasında arx sularından istifadə edilmişdir.

Qarabağda "qobu" sözü də müəyyən qədər arxlarla bağlı olmuşdur. İndiki Füzuli rayonuna aid Qobu Dilağarda, Bərdə ərazisində, eləcə də, müxtəlif yerlərdə qobu adlanan yerlər "arx" mənasında işlədilir. Tuğ kəndinin yaxınlığında qeydə alınan oronimlərindən biri Ağ qobu adlanır, bu dərə, çökəklik, su basan yer, çay sularının axdığı yer, sel sularının uzun müddət axması nəticəsində əmələ gələn çuxur, kiçik dərə, quru dərə və s. mənalarda işlədilir[112].

Coğrafi-geomorfoloji baxımdan "qobu" quru, yaxud müvəqqəti axarı olan dərə sayılır. Yarım batıq dibi, çimli qabarıq yamacları ilə səciyyələnir. Uzunluğu bir neçə on kilometr, eni 100 metrə qədər, dərinliyi bir neçə on metrə çatır. Əsasən meşə-çöl və çöl rayonlarında rast gəlinir. Qobu özü-özlüyündə yarğanın inkişafının son mərhələsini və ya qədim çay dərəsini

---

[111] Tofiq Mustafazadə, *Qarabağ xanlığı,*Bakı, Sabah, 2009, s. 65.

[112] Nazim Tapdıqoğlu, *Xocavənd ensiklopediyası*, Zərdabi LTD MMC, Bakı, 2009, s. 52.

izah edir[113]. Çox ehtimal ki, Qarabağda əhali çay dərələrinin cəmindən ibarət qobu şəbəkəsindən ayrılan qolları qazaraq arx şəklinə salmış, süni suvarmada səmərəli istifadə etdiyi belə yerləri "arx" adlandırmışdır. Belə arxlar sudan səmərəli istifadə imkanlarını artırmış, bir sıra hallarda qobularda gələn su ilə nohur və göllər yaradılmışdır.

Çaylarla yanaşı arxlar da müxtəlif tayfa adlarını özündə yaşatmışdır. Bu baxımdan Qaraqoyunlu və Ağqoyunlu tayfaları ilə bağlı toponimlər, etnonimlər və oykonimlər (məsələn, XIX əsrin sonu-XX əsrə aid Qaramanarx (Tərtər), Bayandurçay (Göygöl)) maraq doğurur [114].

XIX əsrin 30-cu illərindən etibarən Azərbaycanın əkinçilik təsərrüfatında nəzərə çarpan dəyişikliklər baş verdi. Bu, özünü aparıcı əkinçilik sahəsi olan taxılçılıqda göstərdi. Qarabağ əyalətində 1823-cü ildə 180 min çetvert (5, 86), 1832-ci ildə isə 220 min çetvert *(hər hansı bir ölçü vahidinin dörddə birinə bərabər ölçü)* buğda toplandığı halda, 1845-ci ildə burada (1840-cı ildən Şuşa qəzası) 420 min çetvert buğda istehsal edilmiş və bu məhsulun 50 min çetverti satışa çıxarılmışdı[115] .

XIX əsrin ikinci yarısında rus sənayesinin xammala tələbatını ödəmək məqsədilə qızılboya, ipək və pambıq istehsalını artırıldı, təkmil alət və maşınların tətbiqinin genişlənməsi isə bölgədə taxılçılığın inkişafına öz təsirini göstərdi.

Taxıl sahələrində bostan və başqa texniki bitkilər becərilirdi ki, bu da herik (növbəli) əkinçilik sistemi idi. Bu

---

[113] *Geomorfoloji terminlərin izahlı lüğəti*, Bakı, Elm, 2012, s. 168.
[114] Tofiq Nəcəfli, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında),* Bakı, Çaşıoğlu, 2012, s.74; s.76.
[115]*Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX – нач. XX вв.),* под ред. А.Н. Гулиева и В.Д. Мочалова, Баку, АН Азерб. ССР, 1955, s.69.

sistemdə bitkilər biri digəri ilə növbələşdirilirdi. Mövcud sistem iki, üç və çoxtarlalı olub, əkinçilik rayonlarında geniş yayılmışdır. İkitarlalı əkinçilikdə tarlada bir il taxıl əkilir, ikinci il sahə herikə buraxılırdı. Çəltik, yonca kimi bitkilərin əkildiyi sahələr növbəti səpin ilində buğda və arpa üçün ən münasib torpaqlar sayılırdı. Maraqlıdır ki, hələ 1875-ci ildə torpaqşünas alim Həsən bəy Zərdabi "Əkinçi" qəzetində əkinçilərə məsləhət görürdü ki, bir il buğda əkəndən sonra gərək yer bir il dincəlsin və ya buğdadan sonra həmin yerdə kökü dərinə gedən qarğıdalı, kartof, tütün, yerkökü və s. əkmək, əkinləri növbələşdirmək lazımdır.

Həsən bəy Zərdabi 1899-cu ildə "Kaspi" qəzetində çap olunmuş məqaləsində XVIII əsrdə Azərbaycan xanlıqları zamanı suvarma qaydaları barədə məlumat verir: *"Kürün qolları-bu xırda çayların hər birinin suyu ondan istifadə edən kəndlərin sayına görə hissələrə bölünürdü, eyni zamanda hər bir kəndin əhalisinin sayı və onun məşğuliyyəti nəzərə alınırdı"*. XIX-XX əsrlərdə əsas suvarma mənbəyi kimi, caylardan, bulaqlardan, göl və nohurlardan, quyulardan, su anbarlarından istifadə olunmuşdur. Həsən bəy Zərdabi yazır: *"Hər əkinçiyə məlumdur ki, çay suyu ilə sulanan yer arx ilə sulanan yerdən artıq hasil gətirir. Buna səbəb odur ki, ətrafda olan yerlərdən su gəlməkdən çay daşır və su o yerlərdən gələndə xırda daşları, yəni torpağı aparmaqdan lilli olur ki, bu lil əkin yerini qüvvətli edir"*[116].

Azərbaycanı Rusiya sənayesinin xammal mənbəyinə çevirməyə çalışan çar hökuməti heç bir vəsait sərf etmədən yerlərdə suvarma işlərini yaxşılaşdırmağa və beləliklə də, çoxlu

[116] Esmira Cavadova, *Həsən bəy Zərdabinin etnoqrafik görüşləri,* Bakı, Elm və təhsil, 2012, s. 25.

xammal əldə etməyə çalışırdı. Ona görə də, Qafqaz canişinliyi idarəsi hələ XIX əsrin 60-cı illərinin axırlarında Mil düzündəki suvarma işlərini qaydaya salmaq üçün bir neçə dəfə xüsusi komissiyalar göndərmişdi. Lakin tərkibində hətta hollandiyalı suvarma mütəxəssisləri də olan bu komissiyalar heç bir qəti tədbir görə bilmədilər. Çünki bu layihələrin həyata keçirilməsi "küllü miqdarda xərc tələb edirdi". Qarabağın yerli bəyləri də Gavur arxını *"...arx və arxın suvardığı bütün torpaqların 99 il ancaq onların istifadəsində"* qalması şərti ilə bərpa etmək istəyirdilər. Lakin onların da cəhdi heç bir nəticə vermədi. Nəhayət, 1866-cı ildə Əhməd bəy Cavanşir Zərgar, Dilağarda, Yağlıvənd və Şahsevən camaatlarının köməyi ilə, cüzi bir məbləğdə və hökumətlə heç bir formal əlaqə yaratmadan həmin arxı qazdırmağa başlamış və Arazdan çıxarılan suyu məşhur Gavur arxı ilə birləşdirmək kimi çətin bir məsələni həll etmişdir. Sonrakı məktublaşmadan aydın olur ki, çar hökumət Əhməd bəyin təcrübə və təşəbbüsünü nəzərə alaraq, göstərilən kanalı yenidən bərpa etmək üçün daha bir təşəbbüs göstərdi və bu məqsədlə 1879-cu ildə xüsusi bir komissiya Əhməd bəyin iştirakı ilə Mil düzünü yoxladı. Komissiya Əhməd bəyin və mühəndis Bexmanın fikri ilə razılaşaraq Govurarxı bərpa etməyi qərara aldı. Bu məqsədlə 1881-ci ildə plan layihəsi hazırlanmış, lakin bu layihə kağız üzərində qalmışdır[117].

Etnoqrafik ədəbiyyatda qeyd olunur ki, iri torpaq sahibi Əhməd bəy Cavanşir Govurarxın bərpa olunması zamanı "hoy" qarşılıqlı yardım formasından istifadə etmiş, Govurarxı bərpa edərək onun vasitəsilə Araz çayının suyunun Mil düzünə

[117] *Qarabağnamələr,* I kitab, s.173.

çatmasına nail olmuşdur[118].

Əkinçiliyin suvarma üzərində qurulduğu əksər bölgələrdə el-oba arxlar, kanallar çəkər, kəhriz qazardılar. Bu işlər əsasən elliklə görülərdi. Camaatın qüvvəsi ilə kəndə gətirilən su ilə bağlar, bostanlar, əkin sahələri növbə ilə suvarılardı. Yəni su ümumi icmanın mülkiyyəti olduğundan ondan ümumi şəkildə də istifadə edilərdi. XIX əsr mənbələrinə istinad edən Q.C.Cavadov bildirir ki, bəzi quraq illərdə su çatışmazlığı üzündən bütün icmanın əkini, dirriyi məhv olmaq təhlükəsi qarşısında qalardı. Belə hallarda ağsaqqallar bütün əkinlərin yanması qorxusunu nəzərə alaraq öz aralarında razılığa gələrək, suyu bir neçə nəfərin əkininə qoşardılar. Nəticədə bir çoxlarının əkini yansa da,kəndin bir neçə sakininin əkini yanmaqdan qorunardı. Xalq arasında mövcud adətə görə həmin sahələrin taxılı, bostanı, təkcə onun sahibləri arasında deyil, həm də əkinləri yananlar arasında bölüşdürülərdi. Deməli, belə quraqlıq illərində də xalq bu yolla bir-birinə əl tutar, bir-birinin hoyuna çatardı. Kəhriz suvarma sisteminin yayıldığı ərazilərdə də əhali el köməyi adətlərinə müraciət etmişdir. Elliklə qazılıb istifadə verilən kəhrizlərin suyundan hamının istifadə etmək hüququ var idi. Ümumi icma ilə yanaşı, ayrı-ayrı şəxslərə malik kəhrizlər də qazılardı, belə kəhrizlərin suyundan sahibkarın icazəsi ilə istifadə etmək olardı[119].

Qarabağın başqa nahiyələrində, o cümlədən Dizaq nahiyəsində Hərəkin, Qaradağlı, Soyuqaş arxları və s. çəkilmişdir. Bəzi çaylardan ayrılan ana arxlar hansı kəndin əkin sahəsini su

---

[118] Qəzənfər Rəcəbli, *Azərbaycanda qarşılıqlı yardım formaları (tarixi-etnoloji tədqiqat),* Bakı, 2008, s.35.

[119] Qəmərşah Cavadov, *Azərbaycanda el köməyi adətləri*, Bakı, Azərnəşr, 1993, s. 57.

ilə təmin edirdisə, adətən, arxlara həmin kəndin adı verilirdi. Arxların qazılmasında, işlənməsində bu sudan istifadə edən bütün kəndlərin əhalisi iştirak edirdilər. Bəzi hallarda həmin arxlar kəndin adı, bəzən bir kəndin məhəlləsinin adı ilə tanınmışdır.

Məhəmmədhəsən Baharlı yazır ki, Azərbaycan çaylarından çəkilmiş su nəqli qurğuları əhalinin özünün primitiv şəkildə çəkdiyi kanallara və texniki qaydalar üzrə çəkilən mükəmməl kanallara bölünür. Müəllif "primitiv şəkildə çəkilən kanallar" dedikdə əslində nisbətən kiçik arxları nəzərdə tutur. Arazdan çəkilən, Muğandan keçən, birbaşa, yaxud qədim arxlar vasitəsilə (Məsələn, Aşağı Muğan kanalı Uzunarx vasitəsi ilə olmaqla) Ağçala gölünə tökülən, XX əsrin əvvəllərində mövcud olan, 1912-1917-ci illərdə çəkilmiş 4 "mükəmməl kanal", yəni, "Qolitsin" kanalı ilə 40 min desyatin, "Aşağı Muğan" kanalı ilə 60 min desyatin, "Orta Muğan" kanalı ilə 70 min desyatin, "Yuxarı Muğan" kanalı ilə 30 min desyatin (cəmi 200 min desyatin) əkin sahəsi suvarılmışdır. Bu rəqəmlər Qarabağ, Mil, Muğan düzləri daxil olmaqla bütün Şimali Azərbaycana aid olsa da, müəllif suvarmada əhalinin çəkdiyi arxların rolunun daha çox olduğunu göstərir.M.Baharlı bildirir ki, sadə arxların suvarma qabiliyyəti daha çox idi (616,172 desyatin) və onlara hər yerdə rast gəlinirdi, sahələr çay suları ilə arxlar vasitəsilə suvarılır, bəzən bu su aratları, axmazları istilləri basırdı. Arxlar vasitəsilə 553,672 desyatin (75 faiz) əkin sahələri, 50,750 desyatin bağlar, 1,750 desyatin bostan sahələri suvarılırdı. Kür və Araz suyunun daşıb basdığı bulaqların, kəhrizlərin, nasoslarla vurulan su ilə suvarılan torpaqlar da bu rəqəmə aid idi[120]. M.

[120] Vəliyev (Baharlı) Məhəmməd Həsən, *Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)*, Bakı, Azərbaycan,1993, s.78; 82.

Baharlı kitabında XX əsrin əvvəllərində Çar hökumətinin Muğanda kanallar çəkərək "nadinc elementləri" (Ukrayna və qismən rus kəndliləri) burada məskunlaşdırmaq siyasəti, Qarabağ düzənliyinin suvarılmasında istifadə ediləcək Araz çayından çəkilərək Qarqarçaya çatacaq Mil kanalının çəkilməsi, qədim kanalların (Govurarx, Hacı Hüseyn arxı, Daşkioy (Daşarx) uzadılması, başlanğıcını Gürcüstandan Xram (Ehram) çayından götürüb Tərtər çayına və Köndələnçaya töküləcək Gəncə kanalı, Şuşa qəzasında Şah arxı və Marağa arxının bərpa edilməsi, Qarqarçayda su anbarlarının tikilməsi, bunlardan başqa Qara qobu arxının bərpa edilməsi, Şirvan kanalının, Eldar düzünün suvarılması üçün Alazan (İori) çayından iki kanalın çəkilməsi, Ağdaş qəzasında Əlincəçay su anbarının tikilməsi, Naxçıvanda Qanlıgöl su anbarının bərpa edilməsi və s. irriqasiya planları haqqında məlumat verir[121]. Bu layihələrdə Çar Rusiyasının iki əsas məqsədi olmuşdur: birincisi, Azərbaycanın demoqrafik tərkibini birmənalı olaraq dəyişdirmək, kanallar çəkib əkin sahələrini genişləndirməklə burada rus kəndlilərini yerləşdirmək; ikincisi isə daha çox torpaq sahələrini əkin dövriyyəsinə daxil etməklə sənaye üçün xammal istehsalını artırmaq. XX əsrin əvvəllərində baş verən tarixi-siyasi hadisələr bu planların həyata keçirilməsinə imkan vermədi, lakin XX əsrin 30-cu illərindən başlayaraq bölgədə yeni irriqasiya layihələri həyata keçirilmişdir.

XX əsrin birinci yarısında Araz çayından su götürməklə Mil düzündə və Qarabağın düzən hissəsində əkin sahələrini suvarmaq məqsədilə Köhnə Xanqızı arxının (Govurarx, Barlas) yenidən qurulması işinə başlanılmış, dağılmış suvarma

---

[121] Vəliyev (Baharlı) Məhəmməd Həsən, *Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)*, Bakı, Azərbaycan, 1993, s.82-85.

sisteminin bərpa və tikintisi 1933-cü ildə başa çatdırılmışdır. Köhnə Xanqızı suvarma sistemi şimaldan Qarqarçay, cənubdan Mil düzünün orta hissəsində yerləşirdi. Araz çayından təxminən eyni hissədə su götürməklə, çayın sağ sahili boyunca İranın Muğan düzündə əkin sahələrini suvarmaq məqsədilə çəkilmiş arxın adı da Govurarx olmuşdur. Sonrakı illərdə suvarma sistemini bərpa etmək üçün təşəbbüslər olsa da, tikinti-bərpa işləri 1927-1933-cü illərdə görülmüşdür. Arx istifadəyə veriləndə Orconikidze kanalı adlandırılmışdır. Torpaq məcrada tikilmiş kanalın uzunluğu 64,5 km, su nəqletdirmə qabiliyyəti 33 $m^3$ /san idi. Əmirzeyidli kəndi yaxınlığında Araz çayında tənzimləmə işləri görməklə kanala su qəbul edilmişdir[122].

Göründüyü kimi, suvarmaya əsaslanan əkinçilik təsərrüfatı əsasən iri və kiçik çaylardan götürülən ana arxlar vasitəsilə suvarılmışdır. Bu məqsədlə də çaylardan ana arxlar ayrılır, həmin ana arxlardan isə ayrı- ayrı kəndlərin əkinlərini suvarmaq üçün iri və ya kiçik qol arxlar çəkilirdi. Arxlar xüsusi şəxslər, daha varlı kəndlilər tərəfindən çəkilirdi. Həmin arxlar onu çəkdirən sahibinin adı ilə tanınırdı. Beləliklə də, çaylardan ayrılan ana arxlar hansı kəndin əkin sahəsini su ilə təmin edirdisə, adətən, onlara (arxlara) həmin kəndin adı verilirdi, yaxud ana arxın çəkilişi ilə əlaqədar olan hadisə və oxşarlıqla əlaqədar adlandırılırdı. Qarqarçaydan götürülən ana arx Mahrızlı kəndinin əkinlərini suvardığına görə bu arx Mahrızlı arxı adlanırdı. Digər ana arxlar həmin sudan istifadə edən kəndlərin adı ilə Söhbətli arxı, Boyad arxı, Sarxan arxı kimi tanınırdı. Ayrı-ayrı çaylardan götürülən ana arxlar öz tutumuna görə fərqlənirdilər. Ana arx çəkilərkən onun neçə kəndə və nə qədər

[122] Elbrus Paşayev, Fazil Həsənov,*Azdövsutəslayihə İnstitutunun tarixi və inkişaf yolu,* Bakı, Şərq-Qərb, 2010, s.38.

əkin sahəsinə su verəcəyi müəyyənləşdirilirdi. Adətən ana arxların uzunluğu su aparılacaq kənd və ya kəndlərin çaydan hansı məsafədə yerləşməsindən asılı olurdu. Bəzən ana arxların uzunluğu 30 - 40 km və daha çox olurdu. Ana arxlar əsasən bir kəndin əkinlərini suvarma suyu ilə təmin edirdi. Lakin bəzi hallarda onun suyundan bir neçə kəndin camaatı da istifadə edirdi. Belə ki, Tərtər çayından götürülən Lənbəran arxı ilə Qaraqoyunlu, Ağalı, Qaradəmirçi, Mehdili və Lənbəran kəndlərinin əkinləri suvarılırdı[123].

Kür və Araz çaylarından çəkilmiş ana arxlar sahil ərazinin torpaqlarının əkinçilik üçün yararlı hala salınmasında mühüm rol oynamışdır. Bundan əlavə, suvarma arxları əkinçilikdə məhsuldarlığın artmasına və əkin sahələrinin genişlənməsinə kömək etmişdir. Beləliklə də, sututar geniş ərazidə əkinçi əhalinin məskunlaşmasına əlverişli imkan və şərait yaranmışdır...Başlanğıcını Araz çayından götürmüş bir- birinə paralel olan üç böyük suvarma arxı (Hacı Hüseyn arxı, Govurarxı, Qaşqay arxı) Mil düzünün torpaqlarının suvarılması üçün əsas rol oynamışdır[124].

Ana arxların çəkilməsi, yaxud bənd və dəhnələrin tikilməsində (basılması) sudan istifadə edəcək bütün kənd camaatı, bəzən də qonşu kəndlərin camaatı iştirak edirdi. Adətə görə, bu işdən boyun qaçırmaq el arasında qəbahət sayılırdı. Axı on kilometrlərlə uzunluğunda olan ana arxların qazılması- çəkilməsi sürətli və coşqun axan sulu çaylarda bənd tikib, dəhnə basmaq, bununla da, suyun səviyyəsini qaldırıb, onu ram edib ana arxlara yönəltmək bir o qədər asan iş prosesi deyildi. Ona görə də, bu iş

[123] Şahpələng Quliyev, *Suvarma/Azərbaycan etnoqrafiyası*, I cild, 2007, s.142.
[124] Şahpələng Quliyev, *Suvarma/Azərbaycan etnoqrafiyası*, I cild, 2007, s.139.

həmişə birgə görülmüşdür. Adətən ana arxların çəkilməsi, təmiri, bənd və dəhnələrin tikilməsi bir qayda olaraq erkən yazda görülərdi. Bunun üçün mirab və ya cuvarlar kəndin ağsaqqalına, kənd camaatına xəbər verərdi. Kənd camaatı müəyyən olunmuş gün işə başlayardı. Həmin gün hər evdən bir nəfər (bir bel) çıxardı. Qaydaya görə (əgər ana arxdan bir neçə kənd istifadə edirdisə) hər bir kəndin camaatı öz ərazisini təmir edərdi. Beləliklə, dəhnədən tutmuş bütün ana arx boyu hər kənd öz payını təmir edər və ya təmizləyərək qaydaya salardı. Qol arxlar isə hansı əkin sahəsinə gedirdisə, həmin əkin sahibləri tərəfindən təmir edilərdi. Bu işdə əmək aləti kimi bel, balta, külüng və yabadan, nəqliyyat vasitəsi kimi at, ulaq, araba, furqon və s. istifadə edilərdi.

Suvarma əkinçiliyində ən geniş yayılan əsas əmək aləti bel olmuşdur. Dəhnə və bəndlərin çəkilməsi (tikilməsi) yerli şə-raitdən, tikinti materiallarından və başqa səbəblərdən asılı olaraq müxtəlif qaydalarda aparılırdı. Ana arxların çəkilişi, dəhnə və bəndlərin tikilməsi, suvarmanın düzgün təşkili böyük ustalıq və təcrübə tələb edirdi. Bu arxlar çətin sahə və yamaclardan, dərə və dağ döşlərindən, qayalardan tunellə, yarğanlardan ağac və ya taxta novlarla keçirilərək istənilən əraziyə aparılırdı. Bəzən ana arxlar çay vadilərilə (çayın hər iki sahili boyu) mərtəbələrlə (paralel halda) çəkilərək gətirilirdi. Belə bir ustalıqla suyu uzaq yerlərə aparılan ana arxları çəkmiş Azərbaycan əkinçilərinin böyük bilik və təcrübəyə malik olduqları bir daha təsdiq olunur. Əkinçilər ana arxları çəkərkən bu işi elə məharətlə görürdülər ki, bəzən də uzunluğu on kilometrlərlə və daha artıq olan bu arxlarla suyu istənilən əraziyə çox rəvan

aparırdılar[125].Məsələn,Tərtər rayonu ərazisindəki Arxaşan dağı əhalinin suvarma şəbəkəsinin yaradılmasındakı ustalığını göstərir. Ərazidən axan çaylardan birinin qarşısı yuxarı axarlarında kəsilmiş, dəhnə basılmış, dərənin sağ yamacı boyu arx çəkilmişdir. Arx yamacdan endirildikdən sonra dərin olmayan çökəklikdən keçərək dağı aşır, ona görə də, dağ Arxaşan adlandırılmışdır.

Xocavənd rayonunun Qaradağlı kəndi yaxınlığında qeydə alınan Dəhnə dərəsi oroqrafik adı həmin dərədən dəhnənin olması ilə belə adlandırılmışdır, bəzi hallarda su bənd tikilmədən çaydan götürülürdüsə, beləsinə bəndsiz dəhnə, bənd tikilmək yolu ilə su götürüləndə isə bəndli dəhnə deyilirdi[126].

Kür və Araz çaylarının sahilləri boyunca ensiz zolaq şəklində uzanan ərazilərdə yaşayan yerli əhali, çayların suyundan suvarmada istifadə etmək məqsədilə daşqın müddətində əraziyə tökülən suları əvvəlcədən çəkdikləri arxlarla nəzərdə tutulan sahələrə və ya çala sahələrdə yaranmış gölməçələrə axıtmışlar. İlin qalan vaxtlarında susuz qalan bu arxlar "quru-arx" adlandırılmışdır. İstifadə olunan hər bir "quru arx"ın öz sahibi də olmuşdur. Çalalara toplanmış sulardan və "quru arxlardan" istifadə olunmaqla əkin sahələrini 1- 2 dəfə suvarmaq mümkün idi. Çaylarda güclü daşqınlar olmayan illərdə çalalardan əkin sahəsi kimi də istifadə olunmuşdur. Tərkibində zəngin qida maddələri olan çay gətirmələri çalalara toplandığından, bu sahələrdə torpaqlar çox münbit olmuşdur. Əlverişli iqlim şəraitində bitkilərin (buğda, arpa, küncüt və digərləri) məhsul-

[125] Şahpələng Quliyev, *Suvarma/Azərbaycan etnoqrafiyası,* I cild, 2007, s.143-148.
[126] Nazim Tapdıqoğlu, *Xocavənd ensiklopedisiyası*, Zərdabi LTD MMC, Bakı, 2009.

darlığı da yaxşı idi[127].

Xalqın ənənəvi təcrübəsi, empirik biliyi, sadə əmək alətlərindən bacarıq və ustalıqla istifadə, süni suvarmanın tətbiqi taxılcılıqda məhsuldarlığın artmasına səbəb olmuş və əkin sahələri genişləndirilmişdir.

Azərbaycanın taxılçılıq sahəsində öküz və ya kələ qoşulan xış, ulamalı xış və qara kotan kimi şum alətləri geniş yayılmışdır. Xış və ya cüt ağacdan düzəldilən ən qədim şum alətidir, torpağı üzdən şumlayır və onu az çevirir. Xışlar öz quruluş və formalarına görə sadə olur, kötük, bazı, gavahın, dəstə, müşdük hissələrindən ibarət idi.

Torpağın dərin və dayaz şumlanması xışın qolunda olan deşiklərə keçirilən güc ağacı ilə, yaxud "ulama" ilə tənzimlənirdi. Daha təkmil hesab olunan xışlar *"ulamalı xış", "qollu xış", "çatma xış", "işgilli xış"* və başqa adlarla tanınmışdır. Ulamalı xışların bazasına əlavə edilən qol (ulama) torpağın şumlanmasında xüsusi əhəmiyyət daşıdığına görə möhkəm ağacdan düzəldilirdi. Ulamalı xışlar əsasən Şəki-Zaqatala, Qarabağ, Naxçıvan etnoqrafik zonalarında yayılmış, "ulama", "çilə", "çatma", "məsənə" adı ilə məlum olmuşdur. Ulamalı xışların qolu (bazısı) bütöv olmayıb, calaq əlavə etməklə düzəldilir, kötüyünün forma və ölçüsü də sadə xışların kötüyündən öz iriliyinə görə fərqlənirdi. Bu şum aləti əsasən kötük, bazı, dəstə, qılınc və məsən adlanan hissələrdən ibarət olurdu. Ulamalı xışlar kötüyünün arxadan qulaqlı, dəstənin ikiəlcəkli düzəldilməsi və qılınca malik olması ilə də fərqlənirdilər. Xışın qılıncı torpağı kəsmək, qulaqları torpaq layını çevirmək, qoşa dəstə isə alətin ağırlığını tənzimləmək

[127] Elbrus Paşayev., Fazil Həsənov, *Azdövsutəslayihə İnstitutunun tarixi və inkişaf yolu,* Bakı, Şərq-Qərb, 2010, s.8.

üçün münasib idi. Belə xışlar xam, dağavar, dəmyə torpaqların şumlanmasında istifadə edildiyinə görə ona 2-4, hətta 4 boyun öküz qoşulardı. Şum aləti kimi "diyircəkli kotanlar"dan da istifadə edilmişdir. Diyircəkli kotanlar xış ilə qara kotan arasında keçid mərhələsi sayılır. Diyircəkli kotan kötük (topal, binə), xəmsə - məsən, dəstə (mac-məc), batar, gavahın, qılınc və bir cüt eyni ölçülü təkərdən ibarət olub, 3-4 boyun qoşqu heyvanı ilə işlədilmişdir. Bu şum aləti Azərbaycanın Kiçik Qafqaz ərazisində yayılmış və təkamül baxımından *"ulamalı xış"* dan qara kotana keçid rolunu oynamışdır.[128]

Azərbaycanda şum alətlərinin daha geniş yayılmış tipini ənənəvi ağac kotanlar təşkil edir ki, xalq arasında "qara kotan", "ağır kotan", "əyribazı kotan", "kəl kotanı" adı ilə məlumdur. Burada "qara" sözü böyük, iri mənasında da işlənmişdir. "Qara kotan"ların Cənubi Qafqazda təxminən VIII-IX əsrlərdən işlədildiyi ehtimal olunur. Bu kotanın müxtəlif funksiyaları olan *"əyribaz", "taxta", "qılınc", "gavahın", "topal", "daban", "daraq", "çüy", "paralar" (pazlar), "zamin", "dəstə", "haçakösöv", "şətəl", "ox", "qayış", "kiçik" və ya "qıraq təkər", iri "ləkər təkər", "qır", "kolbasan", "əjdaha", "çatal"* və s. hissələrdən ibarətdir. "Qara kotan" kotanlar isə önlü və bir tərəfi laydırlı olub, torpağı daha dərin şumlayır və laylıyır, bu kotana, adətən, dörd boyun kəl qoşulur. Kotana qoşulan birinci boyun *"dib",* ikinci boyun *"çərkov",* üçüncü boyun *"minik",* sonuncu isə *"uc"* adlanırdı. Adətən, kotanı idarə etmək üçün 2 çubuqçu (hodaqçı, bir nəfər isə məcgəlçi rəncbər) iştirak edir. "Qara kotan" ən təkmilləşmiş şum aləti hesab olmaqla, XIX əsr və XX əsrin əvvəllərində də işlədilərək xalqımızın əsrlər boyu

---

[128] Qəmərşah Cavadov, *Azərbaycan şum alətlərinin təsnifatına dair,* AEA xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1979, № 3, s.57-67.

yüksək əkinçilik mədəniyyətinə malik olmasını sübut etmişdir[129].

Qədimdən XX əsrin əvvəllərinədək Azərbaycanda çəltik şumu xış və qara kotanla aparılmış, şumun əkinə hazırlanmasında isə müxtəlif formalı malalardan istifadə edilmişdir. Torpaq iqlim şəraitinə görə ayrı-ayrı çəltikçilik bölgələrində şumun əkinə hazırlanmasında istifadə edilən malalar öz quruluş və formalarına görə müəyyən qədər fərqlənmişlər. Çəltik malaları hazırlandığı materiala və formasına görə də seçilirdi. Bunlardan - “ağac mala”, “taxta mala”, “toxuma mala”, “şax mala” daha geniş yayılmışdır. Şum,ləklərin hazırlanmasında və suvarma işində bel,belçə, kərdivar (mərküz), əl malası, əyri bel, tumcar beli və s. əl əmək alətlərindən istifadə edilmişdir.

Suvarma əkinçiliyində ən geniş yayılan əsas əmək aləti bel olmuşdur. Bel öz formasına görə sadə olmaqla, suvarmada, arx çəkilişində, bənd bağlamaq, yer belləmək və s. işlərdə istifadə edilirdi. Naxçıvanda bostan və tərəvəz bitkiləri üçün lək kəsmək və arx çəkmək üçün istifadə olunan, toxaya bənzəyən kərdivar (mərküz) suvarma ilə sıx bağlı olmuşdur.

İşinə və formasına görə kərdivara oxşayan, “toxa - bel” adlandırılan əl əmək alətindən hələ e.ə.III-I minilliklərdə Yaxın Şərq ölkələrində suvarma əkinçiliyində - su şırımlarının, arx və kanalların çəkilməsində və təmirində istifadə edildiyi məlumdur[130].

---

[129] Şahpələng Quliyev, Yəhya Rüstəmov, Teymur Bünyadov, *“Azərbaycan qara kotanı*”, AEA Məruzələri, XX cild, № 6, 1964, s.82-85.

[130] Андрианов Б.В., Андрианов Б.В, *Земледелие наших предков*, Москва, 1978, с.96-98.

Azərbaycanda dəhnə və bəndlərin çəkilməsi (tikilməsi) yerli şəraitdən, tikinti materiallarından və başqa səbəblərdən asılı olaraq "çatma", "dəhnəbasma" və s. üsullardan istifadə edilmişdir.

XX əsrin 20-30-cu illərinə qədər əkinçilikdə kəhriz suvarma şəbəkəsi mühüm rol oynamışdır. Kəhriz suyu ilə hər il Azərbaycanda 50 min desyatindən artıq əkin sahəsi suvarılırdı[131]. Həmin dövrdə isə minə yaxın kəhriz vardı. Kəhrizlər əsas etibarilə dağətəyi ərazidə, quru və sulu çay sahillərində qazılardı. Kəhrizlərin qazılması üçün xüsusi kankan (quyu qazan) dəstəsi isə cəlb olunardı. Kəhriz qazan kankan dəstəsində 4-6 nəfərə qədər işçi olurdu. Bunlar baş usta-kankandan, usta köməkçisi - lağımbardan, çarxçıdan, dolçudan ibarət idi. Suvarma üçün istifadə ediləcək kəhriz gözünün (çeşməsinin) qabağında kiçik nohur (gölcük) düzəldilərdi. Su buraya yığıldıqdan sonra, arxla əkin sahəsinə aparılırdı.

XIX əsrin 70-80-ci illərində Azərbaycanda 160-a qədər su anbarı (nohur) olmuşdursa, XX əsrin başlanğıcında onların sayı 500-dən yuxarı idi. Həmin dövrdə su anbarları ilə (nohurlarla) suvarılan torpaqlar on min desyatindən çox idi.[132]Suvarma məqsədilə Azərbaycanın bəzi yerlərində su quyularından da istifadə edilmişdir, lakin bu üsul Abşeron yarımadası üçün daha səciyyəvi hal olmuşdur. Azərbaycanda suvarma əkinçiliyində bulaq sularından istifadə edilsə də, bu bir o qədər də geniş yayılmamışdır.Azərbaycanda ənənəvi olaraq taxıl əkinləri,

---

[131] Məhəmməd Həsən Vəliyev (Baharlı), *Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk)*, Bakı, Azərbaycan, 1993, s.70.

[132] İ.Talıbzadə, *XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə*, Bakı, Elm,1980, s. 23.

bostan və bağlar arxla selləmə (subasma), şırım, çala (lilman) və s. qaydalarla suvarılmışdır [133].

## Dəyirmanlar

Qarabağda qədimdən taxılın üyüdülməsində əsas alət dən daşları olmuşdur. Hələ Neolit dövründə dən üyüdülməsində sadə dən daşlarından (sürtgəclər) istifadə etmişlər. Əkinçiliyin sonrakı inkişafı mərhələsində sadə dən daşlarından daha təkmilləşmiş dən daşlarına keçiddə kirkirə (əl dəyirmanı) əsas rol oynamışdır. Kirkirənin istifadəsi dən üyüdülməsinin yeni, mütərəqqi üsullarının tətbiqi ilə bağlı idi. Arxeoloji qazıntılar e.ə. I minillikdə burada kirkirədən geniş istifadə edildiyini göstərir. Minilliklər boyu əl dəyirmanlarının quruluşu və istifadəsində elə bir əsaslı dəyişiklik baş verməmiş, XIX əsr - XX əsrin ortalarında ailələrdə belə kirkirələrdən geniş şəkildə istifadə olunmuşdur.

Qarabağda taxılçılığın inkişafını göstərən ən mühüm məsələlərdən biri dəyirmanların fəaliyyətidir. Burada su ehtiyatlarından, yəni iri və kiçik çayların sularından taxıl üyütmək üçün dəyirmanların işlədilməsində də geniş istifadə olunmuşdur. XVIII əsrin ilk yarısında Qarabağ bəylərbəyliyində (sancaqlığında) su dəyirmanları və dinglər fəaliyyət göstərmişdir. İndi də Ağdamın Maniklu, Cəbrayılın Şəybəy, Füzulinin Böyük Bəhmənli kəndlərinin ərazisində Dəyirman

---

[133] Гасан Гулиев, *Земледельческая культура Азербайджана (историко-этнографическое исследование),* автореф. дис. ... докт. ист. наук, Баку, 1968, с.25.

dərəsi adına rast gəlinir.

Osmanlı təhrir dəftərlərində qeyd olunur ki, Qarabağ bəylərbəyliyində "asiyab" adlandırılan 1162 dəyirman fəaliyyət göstərmiş, bu dəyirmanların illik vergisi 146.420 axça olmuşdur. Əyalətdə "ding" adlanan "pirinc dəyirmanları" da vardır, bunların sayı 219, illik vergisi 74.290 axça olmuşdur[134].

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə əksini tapan Bərdə livasının Bərdə nahiyəsində 44 vergi vahidinə aid məlumatda (Bərdə şəhəri, oba, üç qışlaq və 39 kənd) kəndlərdən 32-nin tam qeydiyyat siyahısı verilmiş, 7 kənd isə boş və yaşayış olmayan, yalnız vergi gəlirləri olan kəndlər kimi uçota alınmışdır. Bu 32 kənddən 17-də ümumilikdə 52 dəyirman fəaliyyət göstərmiş, həmin dəyirmanlardan 6240 axça vergi yığılmışdır[135]. Bərdə şəhərində 5, Əminabad kəndində 4, Qayacıqda 2, Maralyanda 6, Alacıqda 2, Borsunluda 3, Göybuğa Qaradağlı 5, Bəylərdə 3 və s. dəyirmanlar fəaliyyət göstərmişdir.

İncərud nahiyəsində 16 kənd vergi vahidi olmuş, bu kəndlərdən 9-da tam siyahıyaalma aparılmışdır. Yeddi kənd boş olmuşdur,yalnız onların vergi gəlirləri qeydə alınmışdır. Siyahıya alınmış 9 kənddən 8-də 29 dəyirman fəaliyyət göstərmiş, 3480 axça vergi tutulmuşdur[136].

Sir nahiyəsində 41 kənd vergi vahidi olmuş, bu kəndlərdən 27-nin tam qeydi verilmişdir. 14 kənd boşdur, yalnız onların vergi gəlirləri qeydə alınmışdır. Siyahıyaalınma aparılan 27 kənddən 19-da 58 dəyirman fəaliyyət göstərmiş, 6960 axça vergi yığılmışdır[137] .

Bayat nahiyəsi 22 kənd vergi vahidi və bir qışlaqdan ibarət

---

[134] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*, Bakı, Şuşa, 2000, s. 67.
[135] *A.g.ə.,* s. 283-306.
[136] *A.g.ə.,* s.307-313.
[137] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri,* 2000, s.314-335.

olmuşdur, bu kəndlərdən 5-nin tam qeydi verilmişdir. 16 kənd boşdur, yalnız vergi gəlirləri qeydə alınmışdır. Siyahıya alınan 5 kənddə 22 dəyirman fəaliyyət göstərmiş, 2640 axça vergi yığılmışdır [138].

Xaçın nahiyəsində 88 kənd vergi vahidi (85 kənd və üç oba) mövcud olmuş, bu kəndlərdən 38-nin tam siyahıya alınması aparılmışdır. 47 kənd boş olmuş, onların yalnız vergi gəlirləri qeydə alınmışdır. Siyahıya alınan 38 kənddə 41 dəyirman olmuş, bu dəyirmanlardan cəmi 4920 axça vergi yığılmışdır.

Çalaberd nahiyəsində 25 kənd vergi vahidi olmuş, bu kəndlərdən 23-ü haqqında tam məlumat verilmişdir. İki kənd isə boşdur, yalnız onların vergi gəlirləri uçota alınmışdır. Qeydiyyata alınmış 23 kənddən 19-da ümumilikdə 57 dəyirman fəaliyyət göstərmiş, 6840 axça vergi yığılmışdır[139].

Keştək nahiyəsində (28 vergi vahidi, 21 boş kəndin yalnız vergisi qeydə alınmışdır) siyahıya alınan 7 kənddə 17 dəyirman (2.040 axça vergi), Bərəndə nahiyəsində (94 vergi vahidi, 65 kənd və 29 oba) siyahıya alınan 35 kəndin (30 kənd boş idi, yalnız vergi gəlirləri qeydə alınmışdır) 21-də 64 dəyirman (7680 axça vergi), Dizaq nahiyəsində (86 kənd vergi vahidi) siyahıya alınan qırx beş kəndin (boş olan 41 kəndin yalnız vergisi qeydə alınmışdır) iyirmi üçündə 71 dəyirman (8520 axça vergi), Köçəz nahiyəsində 21 vergi vahidindən (19 kənd qışlaq və yaylaq idi, onlardan 14 boş kəndin yalnız vergisi qeydə alınmışdır) 3 kənddə 6 dəyirman (iki dəyirman Güzümkənddə, biri Keramuc Qasımcanda, üçü isə Yenicədə) fəaliyyət göstərmişdir (720 axça vergi). Arasbar livasında 73 kənd vergi vahidindən (62 kənd boşdur, yalnız onların vergisi qeydə alınmışdır) tam siyahıya

---

[138] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*, 2000, s.336-339.

[139] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*, Bakı, Şuşa, 2000, s.342-361.

alınmış 11 kəndin 5-də 9 dəyirman (1.080 axça vergi) fəaliyyət göstərmişdir. Şuşa şəhərinin yaxınlığında Daşaltı çayının sol sahilində 8 su dəyirmanı fəaliyyət göstərmişdir.

Çalaberd nahiyəsinə aid Yenigöy kəndi 3 dəyirman, Mehmanan kəndi 5 dəyirman, Naxçıvanik kəndi 3 dəyirman, Dərabdul kəndi 2 dəyirman, Miri kəndi 3 dəyirman, Gülablı kəndi 2 dəyirman, Yenicə kəndi 2 dəyirman, Madagiz (Suqovuşan) kəndi 2 dəyirman, Qazanlıq kəndi 2 dəyirman, Yuxarı Gülyataq kəndi 3 dəyirman, Keşdək nahiyəsinə aid Dırxınak kəndi 2 dəyirman, Qazı kəndi 4 dəyirman, Kərkilər kəndi 3 dəyirman, Vərəndə nahiyəsinə aid Çanaqçı kəndi 10 dəyirman Cəmiyyət kəndi 4 dəyirman, Qaqazca kəndi 5 dəyirman, Kəpənək kəndi 4 dəyirman, Əszor kəndi 4 dəyirman, Hacıözü kəndi 1 dəyirman, Güney Çartaz kəndi 4 dəyirman, Tağaverd kəndi 3 dəyirman, Şeyx Dursun kəndi 3 dəyirman, Qaraxan kəndi 3 dəyirman, İsfahancıq kəndi 2 dəyirman, Şuşakənd 6 dəyirman, Sərkələn kəndi 3 dəyirman, Dizaq nahiyəsinə aid Cəbrayıllı kəndi 2, Daşkəsən kəndi 1, Haderud kəndi 12, Sur kəndi 2, Azuq kəndi 5 dəyirman, Zamzur kəndi 6 dəyirman, Əydilli kəndi 2, Dərəaxunlu kəndi 1, Cərəquş kəndində 2, Təğaşir kəndində 2 dəyirman, Metucahan kəndində 8 dəyirman, Minqilab Tərəsu kəndində 3, Qarğabazar kəndində 1 dəyirman, Köçəz nahiyəsinin Zəvadıq kəndində 4 dəyirman, Bərgüşad livasının Aşağı Tiryəkçi kəndində 2 dəyirman, Didəban kəndində 1, Kəlifan kəndində 4, Salur kəndində 4, Məlik Yunus kəndində 2 və s. dəyirman olmuşdur.

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə əksini tapan məlumat bir sıra nəticələrə gəlməyə imkan verir. İlk növbədə qeyd etmək lazımdır ki, təxminən 426 dəyirmanın fəaliyyət göstərməsi, illik xeyli vergi verilməsi, XIX əsrin 30-cu illərində

isə dəyimanların sayının 471-ə qədər artması Qarabağda taxılçılığın, suvarmanın inkişafının ən dəqiq sübutlarındandır.

Dəyirmanlar gəlir gətirən bir iqtisadi müəssisə kimi fəaliyyət göstərmiş, dövrünə görə xeyli vergi vermişlər. Bu dəyirmanların əksəriyyəti dağ çaylarının sahillərində yerləşmiş və onların mövcudluğu müəyyən mənada suvarma sisteminin inkişafını göstərir. Qarabağ ərazisinə aid olan nahiyələrin 538 vergi vahidindən boş və kimsəsiz kimi qeydə alınmış yerlərin (261) əksəriyyəti qışlaq və yaylaq yerləridir. Boş sayılsa da vergi vahidi kimi vergi verən qışlağın sahibi və ya sahibləri elə yaxınlıqdakı kəndin sakinləri idi. Yəni əhali həm əkinçiliklə, həm də maldarlıqla eyni zamanda məşğul olurdu. Əkinçilik, oturaq maldarlıq və köçmə maldarlıq bir-birini tamamlayan təsərrüfat sahələri kimi mövcud idi.

Qarabağ xanlığında su ehtiyatlarından, yəni iri və kiçik çayların sularından əkin sahələrini, bostan və bağları suvar-maqdan əlavə taxıl üyütmək üçün dəyirmanların işlədilməsində də geniş istifadə olunurdu. Şuşa şəhərinin yaxınlığında yerləşən Daşaltı kəndinin ətrafından axan Daşaltı çayının sol sahilində 8 su dəyirmanı fəaliyyət göstərirdi. Bu su dəyirmanları aşağıdan hərəkətə gətirilən çarxlar vasitəsilə işləyirdi.

XVII-XIX əsrlərdə su dəyirmanları, adətən, sel tutmayan yerlərdə, suyun səviyyəsindən aşağıda tikilərdi. Düz ağaclar kəsilər, qol-budağı təmizlənib nov düzəldilərdi. Novun başlanğıcı enli, dəyirmanın çarxına yaxın hissəsi isə nisbətən dar yonulurdu ki, suyun sürəti çox olsun. Ağac topa keçirilmiş pərləri hərəkət etdirməklə, çarx öz oxu ətrafında fırlanırdı. Topun içərisindən keçən oxun yuxarı ucu dəyirmanın alt daşının ortasından keçərək üst daşın alt hissəsindəki "təvərə" adlanan dəmir hissəyə bərkidilirdi. Alt daş üst daşa nisbətən nazik və

tərpənməz vəziyyətdə, dəni üyüdən üst daş isə daha ağır və qalın olurdu. Üst daşın üstündə dən tökülən yer - “dənlik” içi yonulmuş iri diametrli ağacdan düzəldilir, yaxud taxta hissələrdən quraşdırılırdı. Dənliyin ortasında dəni buraxmaq üçün kiçik deşiyi vardır. Dəyirmanın üst daşının ortasındakı deşiyi “tana”, onun dən axıdan hissəsi isə “novça” adlanırdı, daşın deşiyinə iplə keçirilirdi. İpin bir ucu isə başqa yerə bərkidilirdi. Həmin yerdə “çax-çax” adlanan hissə olurdu. Dəyirmanın üst daşı hərəkət etdikcə çax-çaxı da tərpədir, dənin daşın boğazına eyni qaydada tökülməsini təmin edirdi. Alt və üst daşın ətrafında üyüdülmüş unun tökülməsi üçün “unluq” adlanan taxta təknə quraşdırılırdı. Dəyirmanda dənin üyüdülməsinin sürəti suyun gurluğundan, daşların diametrindən asılı idi. Suyun novda təzyiqi güclədikcə su pəri daşın fırlanma sürətini artırırdı.

Ağcabədinin Boyat kəndində Ağdəyirmançayın üzərində (Kiçik Əkərə çayının yuxarı axını) Ağdəyirman təpəsində fəaliyyət göstərən dəyirman quruluşuna görə seçilmişdir. Cəbrayılda Çaxmaqçaydan ayrılan çay dağın döşü ilə gətirilərək Niftalılar kəndində dəyirmanı işlətmək üçün istifadə edilirdi. Belə arxlar əhali arasında “dəyirman arxı” kimi tanınırdı.

Qarabağ və Şərqi Zəngəzurda su dəyirmanları XX əsrin 90-cı illərinədək mövcud olmuşdur. Həkəri çayı hövzəsinə aid Alxaslı, Ağbulaq, Mışnı, Şeylanlı, Hocaz, Mollalar, Sonasar və s. kəndlərdə, Laçın rayonunun Kamallı kəndinin ərazisində Ağoğlan çayından, Gərəkçaydan (Fərzalı və İsmayıllı dəyirmanları) arxlar çəkilmiş, dəhnələr vurulmuş, dəyirmanlar fəaliyyət göstərmişdir, ənənəvi təcrübəyə uyğun olaraq, bu dəyirmanlarda pərlərin sürətlə fırlanmasını təmin etmək üçün çaylardan qollar ayrılmış, hündür bəndlər tikilmişdir.

## Kəhrizlər

Kəhriz daimi su hövzələrinin olmadığı yerlərdə süni suvarma vasitələri kimi mühüm əhəmiyyət daşıyırdı. Kəhrizlər Qarabağın cənubunda aran ərazilərində geniş yayılmışdır. Hətta burada ilk kəhrizlərin eradan əvvəl I əsrə aid olduğu ehtimal edilir.

XVI əsr mənbələrində Qarabağda kəhrizlərin fəaliyyət göstərdiyi əksini tapmışdır.1595-ci ilin "Gəncə-Qarabağ vilayətinin icmal dəftərində Dızaq nahiyəsinə aid Tugçay kəndinin digər bir adının Şeyx Dərviş kəhrizi olduğu göstərilmişdir[140].

Orta əsrlərdə yaşayış məskənlərinin coğrafi şəraitinə uyğun olaraq kəhrizlərin qazılması müxtəlif üsullarda icra olunurdu. Düzənliklərdə və yumşaq torpaqlı ərazilərdə kəhrizlər yer altında lağım atmaq yolu ilə qazılırdı[141]. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycandakı 800-dən artıq kəhrizin bir çoxu Qarabağda fəaliyyət göstərmişdir.

Ənənəyə görə, kəhrizləri əsasən dağətəyi ərazilərdə, sulu çay məcralarında kankan (quyu qazan) dəstəsi qazardı. Kəhriz yeraltı lağımlardan ibarət olub, son hissəsi su mənbəyinə dirənir, açıq hissəsi isə yerin üst qatına qədər qalxırdı. Kəhrizlər bəzən bir necə qalereyadan ibarət olub, bir ümumi arxda birləşirdi. Elə edirdilər ki, su öz mənbəyindən torpağın yuxarı qatına qalxa bilsin. Quyulardan su tutumu 10-15 vedrə olan dəridən duzəldilmiş tuluqlarla çıxarılırdı. Tuluğun su dolan ağız hissəsi kəndirlə bağlanır, at və ya eşşək həmin kəndiri dartdıqca o, quyu üstündə qoyulmuş çarxa sarınaraq tuluğu çıxarırdı: Tuluqdakı su

---

[140] *1595-ci tarixli Gəncə-Qarabağ vilayətinin icmal dəftəri*, "Birol Group" MMC, Bakı, 2022, s.333.

[141] Etibar Qasımov, *Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı, IX-XV əsrlər (tarixi-arxeoloji tədqiqat),* Bakı, 2002, s.54-55.

daşdan duzəldilmiş iri çuxura tökülür, oradan isə arxlara axıdılırdı[142].

Kəhrizlər, quyular xüsusi şəxslərin, yaxud kənd icmalarının torpaqlarında olduğundan onların mülkiyyəti hesab olunurdu. Sahibsiz torpaqda qazılmış quyular və ətraf torpaq quyu qazanların mülkiyyəti sayılırdı. Kəhriz sahibləri də kəhriz suyu ilə suvarılan ətraf torpaqdan istifadə etmək hüququna malik idilər.

Hər bir kəhrizin adətə görə öz adı olardı. Onun adını müəyyənləşdirərkən həmin kəhrizin harada qazılması və ya onun hansı kəndə və əraziyə su verməsi ilə adlanardı, yaxud da kəhrizin sahibi kimdirsə, onun adını daşıyırdı[143].

XIX əsrdə Qarabağda 50 min desyatindən (1,09 hektara bərabər yer ölçüsü) çox torpaq kəhrizlər vasitəsilə suvarılmışdır. XIX əsrin 80-ci illərində Ağcabədi nahiyəsində Qarabağ bəylərindən Əhməd bəy Cavanşirin mülkü olan Kəhrizli kəndində xeyli kəhriz fəaliyyət göstərmişdir. Kənddə Əhməd bəy kəhrizinin suyu iki dəyirmanı işlətməyə kifayət etmişdir və burada kəhrizlərin suyu ilə 1100 hektar sahə suvarılmışdır[144].

Əhməd bəy Cavanşir su təsərrüfatı sahəsində böyük təcrübəyə malik idi. Əhməd bəyin öz mülkündə qazdırdığı kəhrizlər də suvarma sahəsində çalışan bir çox tədqiqatçıların diqqətini cəlb etmişdi. Hələ 1883-cü ildə Əhməd bəyin qonağı olmuş mühəndis Veys fon-Veyssenqof yazmışdır ki, "Qarabağ mülkədarı Əhməd bəy Cavanşir uzun illər boyu apardığı

---

[142] Fəzail Ağamalı, *XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti,* Bakı,Azərbaycan Ensiklopediyası, 1999, s.225.
[143] Tarixi oçerk *,Azərbaycan etnoqrafiyası*, üç cilddə, I cild, 2007, s.50.
[144] *Həyat çeşmələri,* http://www.medeniyyet.az/page, (istifadə tarixi:27.05.2024).

müşahidələrin nəticələri və qazandığı təcrübə ilə məni tanış edərək, qazdırdığı kəhrizlərlə ətraflı surətdə tanış olmağa mənə imkan yaratdı”[145].

Solmaz Məhərrəmova XIX əsrin sonuncu onilliyinə aid mənbələrə əsaslanaraq bildirir ki, kəhrizlər ən çox Cəbrayıl qəzasında yayılmışdı, bu qurğular onu qazdıran şəxsin mülkiyyəti sayılırdı. Qazılması çox vəsait və zəhmət tələb etdiyindən kəhrizlərdən çəkilən arxların suyundan yalnız arxın çəkilməsinə vəsait qoymuş, zəhmət çəkmiş kənd icmasının üzvləri istifadə edə bilərdilər. Mirzəcanlı kəhrizini Kavdar kəndindən gəlmiş Məmməd bəy qazdırmışdı. Cəfərqulu ağanın nəvəsi Mirzə Hüseyn ağa Cavanşir isə Şahvələdli kəndində kəhriz qazdırıb suyunu Cəbrayıla gətirmişdi. Suyun bir hissəsi Dəyirman arxı ilə Yarəhmədli kəndinə aparılırdı[146].

Tarixi mənbələr, ədəbiyyat materialları eləcə də, etnoqrafik tədqiqatlar göstərir ki, kəhrizlərin qazılmasında üsul və qaydalar təkmilləşsə də onlardan istifadə əhəmiyyətini itirməmişdir. İstifadə coğrafiyası xeyli məhdudlaşsa da müasir dövrdə də belə kəhrizlərdən istifadə olunur.

Qarabağda kəhrizlərin qazılması təcrübəsi Azərbaycanın digər bölgələrindəki təcrübədən ciddi şəkildə fərqlənməmişdir. İnformatorlardan aldığımız məlumatlara görə, kənkanlar əvvəlcə kəhrizin mənbəyini təyin etmişlər. Adətən, dağ ətəkləri seçilmişdir ki, çəkiləcək kəhrizin mənbəyi mənsəbindən hündür olsun. Kankanlar ilk quyunu “Gumanaquyu” adlandırmışlar, yəni burada suyun olması güman edilmişdir. Quyu su çıxana qədər qazıldıqdan sonra təxminən 15-40 metr məsafələrdə (su

---

[145] *Qarabağnamələr,* I kitab, s.173.

[146] Solmaz Məhərrəmova, *XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin maddi-mədəniyyəti və təsərrüfatı*, Bakı, Elm, 2007, s.111.

xətti çəkiləcək yaşayış məntəqəsi istiqamətində) digər sulukar quyular qazılmış, tunel vasitəsilə bir-birinə birləşdirilmişdir. Quyuların sayı "Gümanaquyu" ilə kəhrizin yer üstünə çıxan məsafəsindən asılı olurdu. Quyulararası tunellərin mailliyi elə götürülürdü ki, mənbəyini "Gümanaquyu"dan götürmüş su sərbəst axaraq nəzərdə tutulmuş yerdə üzə çıxsın. Tunellərin eni təqribən 50-60 sm, hündürlüyü isə 80-120 sm götürülürdü. Bu da kankanların sərbəst hərəkət etməsi üçün kifayət edirdi. Tunel və quyuların qazılmış torpağını "dol" adlanan qablarla və dəri tuluqlarla çıxarırdılar. Quyuların dərinliyini ölçmək üçün isə heç bir ölçü alətindən istifadə etmirdilər. Kankanlar düşüb-çıxmaq üçün quyunun divarlarında açdıqları ayaq yerlərini saymaqla dərinliyi təyin edirdilər.

Quyular bir-birindən 20-30 metr, bəzən 50-60 metr aralı olurdu. Quyuların dərinliyi isə 10-20-25 metr və daha dərin - 60-70 metrə çatırdı. Onların dərinliyi əsasən sahənin relyefindən və suyun yeraltı səviyyəsindən asılı idi. Kəhrizin ümumi uzunluğu, suyun hansı əraziyə aparılmasından asılı olaraq 2-3, 5-6 km və bəzən də daha artıq olurdu. Kəhrizin suyu hansı sahəyə çıxarılmalıdırsa, həmin sahədə kəhrizin sonuncu quyusu - "godə quyu", daha sonra isə onun yarması qazılırdı. Suyun yerin səthinə çıxdığı yerə isə kəhrizin gözü - çeşməsi deyilirdi[147].

Kəhrizin suyu azlıq edirdisə, "Gümanaquyu"nun dibindən müxtəlif istiqamətlərdə tunellər qazıb əlavə su mənbəyi taparaq onu "Gümanaquyu"ya istiqamətləndirirdilər. Beləliklə, kəhrizin suyu çoxalırdı. Uçma təhlükəsi olanda tunellərin daxili tağ-tavan şəklində hörülür, təhlükə aradan qaldırılırdı.

[147] Şahpələng Quliyev, *Suvarma/Azərbaycan etnoqrafiyası*, I cild, 2007, s.148.

Kəhrizlərdə həm qidalanma zonası ətrafında, həm də suyun yer səthinə çıxana qədər yolu boyunca sanitariya normalarına riayət olunmuş, kəhrizlər etibarlı mühafizə edilmişdir, bununla da, ora heç bir yerüstü axıntılar və çöküntülərlə çirklənməmişdir.

Xocavənd ərazisindəki Hacıkərim kəhrizi, Kürdlər kəndindəki "Mehdi bəy kəhrizi", Yuxarı Əbdürrəhmanlı kəndindəki "Məşşərəf" (Məşədi Şərəf) Qarğabazar, İşıqlı, Dədəli və s. kəndlərdəki kəhrizlər məhz bu üsulla inşa olunmuşdur.

Qarğabazar kəndinin alt tərəfindəki Kollubağının ətəyində "Gümanaquyu"su qazılan "Mehdi bəy kəhrizi"nin tuneli kəndi iki hissəyə bölən təpənin digər hissəsində üzə çıxır. Bir neçə kilometr məsafəsi olan "Mehdi bəy kəhrizi"nin "Gümanaquyu" ilə tunel vasitəsilə birləşən, dərinliyi 10-25 m olan 30-a yaxın quyu qazılmışdır. Kəhrizin yer üstünə çıxan hissəsinin təpəyə söykənən tərəfi daşla hörülmüşdür. Hörgü dibi ilə təqribən 50 sm eni və dərinliyi olan daş nov inşa olunmuşdur ki, bu da xalça-palaz yuyulması və kəndin mal-qarasının suvarılmasına şərait yaradır. "Gümanaquyu" yeraltı bol sulu axara düşərdisə, onda yaşayış sahəsi istiqamətində müxtəlif tərəflərə tunellər qazılıb, həmin suyu bu tunellərə istiqamətləndirirdilər. Tunellərin sonu isə kəndin bir neçə yerindən üzə çıxardılırdı. Beləliklə, bir kənddə bir neçə kəhriz yaranırdı. Qarğabazar kəndində bu qayda ilə səkkiz kəhriz yer üstünə çıxarılmışdır. Hətta kəhrizlərdən birinin suyu o qədər bol olub ki, onun üstündə su dəyirmanı tikmişlər. İnformatorların dediyinə görə, həmin su dəyirmanı XX əsrin 70-ci illərinədək fəaliyyət göstərmişdir.

Kəhrizlərin qazılması və təmiri adətən, payız və yaz aylarında görülürdü. Kəhrizlərdə vaxtaşırı təmirə səbəb onun

suyunun azalması, kəhriz lağımının tutulması və s. olurdu. Kəhrizdə su azaldıqda tərkdöymə (yəni suyu artırmaq üçün aparılan təmir) edilirdi. Bunun üçün lağım aşağı quyudan ta baş quyuya kimi 10-15 sm dərinlikdə yenidən qazılırdı. Belə bir iş, adətən, quraqlıq illərdə aparılırdı. Bundan əlavə, kəhrizlərdə vaxtaşırı "dolasov" təmiri də aparılırdı. Bu təmirdən məqsəd suyun qabağına düşmüş daşı, torpağı təmizləməklə lağımda suyun sərbəst axmasını təmin etmək idi. Bəzi illərdə güclü yağışlar zamanı sel suları kəhriz quyusunu və lağımını zir-zibil ilə dolduraraq, suyun axımını çətinləşdirirdi. Belə vaxtlarda quyu və lağımın təmizlənməsi üçün aparılan təmir işi "aval" adlanırdı. Aval təmiri əksər hallarda quyularının ağızı bağlanmamış kəhrizlərdə aparılırdı. Kəhriz suyunun qədəri onun qazıldığı sahənin su ehtiyatından asılı olurdu. Elə kəhrizlər vardı ki, onun suyu ilə dəyirmanı işlətmək olurdu. Daha doğrusu, bir-iki "baş" su verirdi. Elələri də vard idi ki, onun suyu ancaq bir kəndi və ya bir məhəlləni içməli su ilə təmin edirdi. Suvarma üçün istifadə ediləcək kəhriz gözünün (çeşməsinin) qabağında kiçik nohur (gölcük) düzəldilərdi. Su buraya yığıldıqdan sonra, arxla əkin sahəsinə aparılırdı[148].

XX əsrin 90-cı illərindən Ermənistanın işğalının başlaması ilə Qarabağın təsərrüfatı, o cümlədən əkinçiliyi, suvarma sistemi dağılmış, o cümlədən bir çox kəhrizlər sıradan çıxmışdır. Torpaqlarımız işğaldan azad olunduqdan sonra təkcə Ağdam ərazisində olan 67 kəhrizdən cəmi biri (Şahbulaq kəhrizi) qalmışdır, 2023-cü ildə Aşağı Əbdürrəhmanlı kəndindəki qədim kəhrizin fəaliyyəti bərpa edilmişdir. Hazırda bir sıra toponimlərdə kəhriz adı yaşamaqdadır, hazırda Ağcabədi

[148] Şahpələng Quliyev, *Suvarma/Azərbaycan etnoqrafiyası*, I cild,2007, s.145.

rayonunda Kəhrizli, Böyük Kəhrizli, Bala Kəhrizli adlı üç kənd adı vardır və bəzi kəhrizlər indi də fəaliyyət göstərməkdədir.

Cəbrayıl rayonunun ərazisi kəhrizlərlə zəngindir, burada Ermənistanın işğalınadək 118 kəhriz fəaliyyət göstərmişdir. Rayon mərkəzində 3 kəhriz (Mahmud bəy kəhrizi, Çinar kəhrizi, Hüseynqulu kəhrizi) eləcə də, Veysəlli, Minbaşılı, Harovlu, Soltanlı və s. kəndlərdə kəhrizlər mövcud idi. Rayonda ötən əsrin 60-70-ci illərində xüsusi idarə fəaliyyət göstərmiş, kankanlar ən azı ildə bir dəfə kəhrizləri təmizləmiş, suyun axınını təmin etmişlər. XX əsrin 80-ci illərində Soltanlı kəndindəki kəhrizdən borularla qapılara su xətləri çəkilmişdi.Həmin illərdə rayondakı “Dostluq” bulağına da kəhrizdən borularla su çəkilmiş, işğaldan sonra həmin bulağın suyu demək olar ki, kəsilmişdir. İnformatorların verdiyi məlumata görə, həmin kəhrizin eləcə də, Cəbrayıldakı bir çox kəhrizi təmizləmək, uçmuş yerləri təmir edib qaydaya salmaqla gözlərini açmaq mümkündür.

## Bulaq və quyular

Qarabağ ərazisi çoxlu böyüklü-kiçikli çaylarla, təbii bulaqlarla yanaşı su quyularının olması ilə fərqlənir. Bölgə çoxlu kəhrizlər, müalicəvi əhəmiyyətə malik olan çoxsaylı mineral təbii bulaqları ilə zəngindir. Qarabağ çatlı vulkanik süxurların geniş yayıldığı ərazi olduğuna görə yeraltı sularla daha zəngindir və onlar nisbətən dağətəyi ərazilərdə səthə çıxaraq bulaq şəklində çayları qidalandırır[149].

---

[149] Coğrafiyaçı alim: *Qarabağın su ehtiyatları iqtisadiyyatın inkişafında dönüş yaradacaq,* http://www.azertag.az/xeber/,(istifadə tarixi: 15.01.2021).

Yaxınlıqda su mənbəyi olmadıqda və ya kifayət olmadıqda quyu və ovdanlar qazaraq yeraltı sulardan istifadə edilirdi. Bu, istər mənbələr, istərsə də Beyləqan, Şamaxı, Bakı, Şabran, Dərbənd şəhərlərinin arxeoloji tədqiqi ilə təsdiqlənir[150].Orta əsrlərdə Azərbaycanda daşla hörülmüş, üstü tağ örtüklü, içərisinə düşmək üçün pilləli ovdanlar geniş yayılmış, şəhərlərin su ilə təchizatında bulaqlar xüsusi rol oynamışdır.

Qarabağ xanı Pənah xanın dövründə salınmış Şahbulaq və Şuşa qalalarının tikilməsində ilk növbədə bulaq və quyular mühüm əhəmiyyət daşımışdır. “Qarabağnamələr”də göstərilir ki, Pənah xan Şahbulaq qalasını bulaq başında salmış, “...daş və əhənglə məscid, hamam tikilmiş, şəhər və bazar salınmışdır”[151].

Şuşa şəhərinin salınması ilə bağlı “Qarabağnamələr”dəki məlumatlar bulaqların bölgədə əhəmiyyəti haqqında aydın təsəvvür yaradır: “Pənah xanın bir neçə nəfər bilici və məlumatlı adamı gedib, qalanın yerini və ətrafını yoxladı. Qalanın içində iki-üç bulaqdan başqa axar su yox idi. Bu bulaqların suyu isə qala camaatına kifayət etməzdi. Ona görə, güman gələn yerlərdə quyu qazdırıb müəyyən elədilər ki, buranın bir çox yerlərində su quyuları qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. Xan sevinərək, bir neçə nəfər öz yaxın adamı ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu[152].

“...İmtahan üçün bir neçə quyu qazdılar. O quyulardan su çıxandan sonra, 1170-ci ildə Şuşa şəhərinin binasını qoydular. Şah bulağında sakin olanları, bir para kənd əhalisini götürüb

---

[150] Etibar Qasımov, *Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı. IX-XV əsrlər (tarixi-arxeoloji tədqiqat),* Bakı, 2002, s.80-85.
[151] *Qarabağnamələr,* I kitab, 2006, s.159.
[152] Mirzə Camal Cavanşir Qarabaği, *Qarabağ tarixi // Azərbaycan tarixi üzrə qaynaqlar*, Bakı, Çıraq, 2007, s.129.

buraya gətirdilər. Hərəyə bir köşə yurd və yer verib xalqı sakin etdilər[153].

Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" maraqlı bir epizod vardır. Bu müəyyən qədər yazıçı təxəyyülünün nümunəsi sayılsa da, belə məlum olur ki, tarixən Şuşa əhalisinin su ilə təminatında ciddi çətinlik özünü göstərmişdir: *"Xanlıq zamanı Şişədə su qıtlığı hiss olunurdu. Şəhərdə bir neçə şirin sulu quyu vardı ki, buna da keşikçi qoyulmuşdu, növbə ilə xalqa su paylanardı. Bu yalnız bişmişə və içməyə sərf olunardı, paltar yumaq üçün ətrafdakı Xəlfəli və Daşaltı çaylarına gedərdilər. Şirin quyulardan başqa ikinci su mənbəyi Çuxur məhəllədəki Mehralıbəy bulağı idi, ancaq bu bulağın suyu şor idi. Günlərin bir günü Şişə ailələrindən biri Xəlfəli çayının qırağına düşüb, paltar yumaq tədarükündə idi"*[154].

Tarixən, Şuşa şəhərində və ətrafında İsa bulağı, Xan qızı bulağı, Meydan bulağı, Şor bulaq (1854-cü ildə Rəşibala Zəkəriyyə çəkdirib), Səkili bulağı, Qotur bulaq, Köçərli, Mamayı (XX əsrin əvvəlində Səməd ağa Cavanşir çəkdirib), Çuxur, Hacı Yusifli, Xocamircanlı, Seyidli, Təzə məhəllə bulaqları ilə məşhurdur. Şəhərin yaxınlığında Cavanbulaq, Ağcabulaq, Damlıbulaq, Soyuqbulaq, Turşsu, Şirvan, Çərəktar, Kolataq, Zardanaşen, Tumu və s. çoxsaylı bulaqları vardır.

Ağdərə rayonunun ərazisində Murov silsiləsinin cənub ətəklərində yerləşən meşələrdə çoxsaylı bulaqlar, o cümlədən Kəmərin bulağı, Babalı bulağı, Xeyransa bulağı, Zəliligöl bulaqları, Daşlıgöl bulaqları (İmarət-Qərvənd kəndi) vardı. Ağdamın Sofulu kəndində Dərəarasında Ağ bulaq və Qara bulaq

---

[153] Mirzə Adıgözəl bəy, *Qarabağnamə*, *Azərbaycan tarixi üzrə qaynaqlar*, Bakı, Çıraq, 2007, s.242.

[154] Yusif Vəzir Çəmənzəminli, *Əsərləri*, üç cilddə, II cild, Bakı, Avrasiya Press, 2005, s.478.

isə Qabartı çayının suyunun formalaşmasında əsas rol oynayır. Xocavənd ərazisində Daş bulaq (Axullu), Çanaq bulağı, Damcı bulaq, Çiçəkli bulaq, Bəylik bulağı (Qaradağlı kəndi), Bəyli bulağı (Avdur kəndi), Yuxarı bulaq, Orta bulaq, Aşağı bulaq (Tuğ kəndi) Ağbulaq, Baba bulağı, Ballı bulaq, Baş bulaq, Bayram bulağı, Cəfər bulağı, Həmzə bulağı, Həzər bulağı, Kor bulaq, Küp bulaq, Qarabulaq, Nuxudlu bulaq (Salatəkin), Novlu bulaq (Qaradağlı), Pirağ bulaq (Muğanlı kəndi), Tuğ mineral bulaqları, Tumi mineral bulaqları (Domı kəndi), Turşsu mineral bulağı (Qırmızı bazar), Zəki bulağı (Qaradağlı kəndi) və s. bulaqların adını çəkmək olar. Bu bulaqların suyu göl və çayları qidalandırır.

Qarabağın yüksəkliklərindən çağlayan bulaqların çay və gölləri qidalandırması ilə bağlı daha çox sayda məlumatı sıralamaq mümkündür. Bir sıra hallarda bulaq sularından bağların, həyətyanı sahələrin suvarılmasında eləcə də, naxır və sürülərin su ilə təminatında böyük rolu olmuşdur.

Zəngəzur qəzası da çox zəngin mineral su ehtiyatlarına malik idi. Kürdalı yatağı, Daşkənd kəndi, Gorusçay və Bərgüşad suqovşağında yerləşən buzlu bulaqlar, Tatev monastrı yaxınlığındakı Şeytan körpüsü yanındakı istisu bulağı (+26$^{o}$C), Piçəniş, Daşkənd, Şıxların turşsu bulaqları, Şahverdiuşağının kükürdlü bulaqları bütün bölgədə məşhur idi[155].

XX əsrin ortalarında Cəbrayıl rayonunun Arazboyu bir sıra kəndləri çaydan motorla dağətəyi ərazidə tikilmiş böyük anbara vurulan, süzülən sudan içməli su kimi istifadə edirdi. Həmin su süzülür, içməli su kimi kəndlərə çatdırılırdı. Ərazidə əsasən dəmyə əkinçiliyi yayılsa da, Araz çayının sahilində

[155] *Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı*, Bakı, Turxan NPB, 2013, s.86.

fəaliyyət göstərən nasoslar suyu kolxoz və sovxozların əkin sahələrinə, həyətyanı sahələrə, bağlara çatdırırdılar. Bunun üçün arxlar da çəkilmişdir. Hasanlı, Maşanlı arxları ilə əkin sahələri, bağlar suvarılırdı.Burada kəhrizlərlə yanaşı, su quyuları da qazılmışdı. Məsələn, Aşağı Xəlfəli kəndində Buludxan adlı sakini özü quyu qazmış, bu quyunun suyundan özü və qonşuları istifadə edirdi. XX əsrin 1960-cı illərində elektrikləşmə aparılmış, kəndlərə borularla su verilməsi işi yaxşılaşmışdı.

Əhali içməli suyu əsasən bulaqlardan səhəng, arabalarla daşıyırdı. Aşağı Xəlfəlidə Çaqqallı bulaq, Çinar bulağı, Yuxarı Xəlfəli kəndində Şirvanlı, Mirzə suyu, Miri bulağı, Kor bulaq, Hacı Hüseyn, Şəfili, Vəli, Dünyamalı, Soyuqbulaq (3 eyni adlı bulaq), İmralı, Şır-şır, Alçalı, Qarağac, Əhmədalılar, Üskü, Nazxanım, Çullu, Daş və s. bulaqlar, Tatar və Məlikli kəndlərinin arasında Xatın bulağı və s. vardı[156]. Bu bulaqlar əkinçilik, bağçılıq, maldarlıq təsərrüfatı üçün istifadə edilsə də, xar istiqaməti az sulu çaylara axaraq əsasən Araz çayına doğru istiqamətlənmişdir. Şirvanlı bulağı kəndin novu, təknəsi olan üç bulağından biridir. Mövsümi sellər dönəmində bulaqların suyu, dərələrin suyuna qarışaraq, çayların suyunu gurlaşdırır, keçidi çətinləşdirirdi, əhaliyə, təsərrüfatlara ziyan vururdu. Ziyarət dağının ətəklərindən axan, Qalacıq (Niftalılar) kəndindən keçən Çaxmaqçaya (Quruçayın bir hissəsi belə adlanır) sel gələndə günlərlə çaylaq deyilən vadi su ilə aşıb daşır, körpülər olmadığından insanların hərəkət etməsi mümkün olmurdu.

Kəlbəcər ərazisində Tutqunçay (Qoturluçay), Qarasu çayı hövzəsində, Kalafalıq, Zülfüqarlı, Oruclu kəndlərinin ərazisində

---

[156] Sabir Şirvan, Yusif Dirli, *Eyvatlıdan Xələfliyədək (Tarixi-etnoqrafik ədəbiyyat),* Bakı, Nərgiz, 2010, s.220, s.17, s. 25.

40-dan artıq mineral sulu bulaq vardır, həmin bulaqların suyu müalicəvi olmaqla yanaşı, Tutqun, Tərtərçay və s. dağ çaylarının sularının formalaşmasında mühüm rol oynayırlar. Ağdam ərazisindəki Şahbulaq və başqa gursulu bulaqların suyu ilə də xeyli torpaqlar suvarılır.

Qarabağda çaylarının su həcminin formalaşmasında mühüm rol oynayan saysız-hesabsız bulaqlarla yanaşı, bir sıra bulaqlar müalicəvi suyu ilə seçilirdi. Kəlbəcərin İstisu bulağı ilə yanaşı, Hadrut rayonunun Binnətli kəndində Qotursu bulağı, Laçının Sonasar kəndində Həmzə, Qarıölən, Balakişi, Aralıq bulaqları, Füzulidə Qaraman bulağı və s. bulaqlar müalicəvi suları ilə məşhurdur.

Qubadlı ərazisində Armudlu, Həcər, Şirin-pir, Sobu, Çayzəmi, Topağac, Üçaağac, Qaraağac, Kəklik, Söyüdlü - Əli, Gölcük, Qarıqışlaq, Fətə, Narlı, Turşsu, Bağırbəyli çinar, Dəvədərə, İşıqlı - novlu, Zağlıq, İmamzadə, Qoçlar-çinarlı, Səvədərə, Ağsu, Bəylik, Almalıq, Quş bulaq, Hürnəyit novlu, Müskanlı dağ, Çilli, Hacı-Əli, Quyubulaq, Şorbulaq, Söyüdlü və başqa dağ, meşə bulaqları: Novlu, Seytas, Göyərçik, Göyarabas, Xallava, Aşağı Cibikli, Yuxarı Cibikli, Əyin, Çardaxlı, Mehrili, Xocamsaxlı, Zor, Poladlı, Dəmirçilər, Hərtiz, Göyyal, Fərcan, Saldaş, Qiyaslı, Tatar, Əliquluuşağı, Eyvazlı, Davudlu, Qədili, Qundanlı, Balahəsənli, Müskanlı, Məlikəhmədli, Qayalı, Xıdırlı, Mahmudlu, Hacılı, Hat, Deşdahat, Başarat, Armudluq, Muradxanlı, Xəndək və s. təbii bulaqları vardı.

Bulaqlara olan inam və etiqad suyu insanların and yerinə çevirmişdir. “Şəfalı bulaq suyu”, suyun “insana ölümsüzlük bəxş etmək” xüsusiyyətinə dair inanclar formalaşmışdır. “O suyun mələkləri haqqı”, “o su haqqı” deyimləri ilə bərabər, çarəsiz bir məsələnin həllində “dərdini suya danış” ənənəsi də

formalaşmışdı.Bulaq başında dilək diləmək, sevdiyin insanla görüşmək, arzuları axar suya danışmaq adəti insanı gözləyən uğurun astanası sayılırdı. Qarabağın dağ zirvələrinin çökəklərində yerin altından qaynayıb gələn saf suya olan bütün bu inam və etiqadların qarşılığında təbiət də insanlara öz səxavətini əsirgəmədi. Camışdağın ətəklərində “isti su” (Kəlbəcər rayonu), İşıqlı dağının ətəklərində “isti su” (Laçın rayonu), Qarabağın dağlıq hissəsində “turş su” (Şuşa rayonu) və onlarla başqa mineral su mənbələri doğurdan da insanları min cür xəstəliklərdən xilas etdi: “Qotur istisuyu”, “göz suyu”, “mədə suyu” və s. Təbiətin bu xeyirxahlığı qarşılığında əhali bulaqların üstündə qurğular tikir, ətrafını abadlaşdırır, bulaqların suyundan qənaətlə istifadəni tövsiyə edirdilər. Su təmizliyin, şəffaflığın rəmzi sayılırdı. Suya qarşı nalayiq hərəkətlər: suyu çirkləndirmək, suya tüpürmək günah hesab olunurdu[157].

## SUDAN İSTİFADƏ QAYDALARI

Azərbaycanda qədimdən bütün sular iki qrupa bölünürdü. Təbii halda olan bütün sular, o cümlədən çaylar, çeşmələr, təbii göllər, qarasular, bataqlıqlar birinci qrupa, insan əməyi ilə yaradılmış arx, kəhriz və digər suvarma vasitələri isə ikinci qrupa daxildir[158].

---

[157] Faiq İsmayılov, *Qarabağ regionunda inam və inanclar, memarlıq və toponimlər haqqında bəzi məlumatlar,* Qafqaz Albaniyasının etno-mədəni irsi (məqalələr toplusu), Bakı, 2023, №4, s.136-142, s.139-140.
[158] İ.Talıbzadə, *XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə*, Bakı, Elm,1980, s.9.

Əsas suvarma mənbəyi kimi, çaylardan, bulaqlardan, göl və nohurlardan, quyulardan, su anbarlarından istifadə olunmuş, bu mənbələri yerüstü suvarma qurğuları (böyük və kiçik arxlar) və yeraltı suvarma qurğuları (kəhrizlər, quyular) vasitəsilə əkin yerlərinə, dəyirmanlara və s. çatdırılmışdır.

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" ndə xüsusi mülkiyyətdə olan suvarma vasitələrindən istifadə məsələləri əksini tapır: "Əcəmi dövründə dörddə bir üşr və bundan əlavə on beşdə bir bəhrə almaq qayda imiş. Əcəmi istilahında bəhrənin mahiyyəti bu imiş: hər kənddən axan su arxının bir sahibi olardı. Sudan istifadə edən şəxs torpaq sahibinə (sahibi-ərz) bir üşr verdikdən sonra, arx sahibinə də on beşdə bir bəhrə verərmiş. Hazırda bəhrə yenə də həmin qayda ilə alınır"[159]. Məsələn, Bərdə livasının Bərdə şəhərində üzüm bağı üçün 6000 ağca, 5 dəyirman üzrə 600 ağça, buğda üçün 19.00 ağca, arpa üçün 8.600 ağca, darı üçün 4000 ağca, pambıq üzrə 9.000 ağca, meyvə bağı üçün 2.320 ağca üşr[160] və sudan istifadəyə görə natural qaydada ödənən "behrə" (bəhrə) torpaq sahibinə verilmişdir[*]. Xanlıqlar dövründə də məhsulun beşdə birini əhatə edən bəhrə vergisi suvarma arxının sahibinə çatırdı.

Suvarma vasitələrinin sahibləri onlardan istədikləri kimi istifadə etmək, satmaq, bağışlamaq, irsən vermək, iltizama vermək hüququna malik idilər. "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə xüsusi mülkiyyətdə olan suvarma vasitələri haqqında məlumat verilir: "Əcəmi dövründə dörddə bir üşr və bundan əlavə on beşdə bir bəhrə almaq qayda idi. Əcəmi

---

[159] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri,* Bakı, Şuşa, 2000, s. 25.
[160] *A.g.ə.,* 284.
[*] Üşr- onda bir deməkdir. Rəiyyətin istehsal etdiyi məhsuldan alınan natural verginin nisbəti. (120 ağca=1 quruş). Üşr nominal olsa da bir sıra hallarda nağd alınmışdır. *Bəhrə-* sudan istifadəyə görə ödənən natural vergi.

istilahında bəhrənin mahiyyəti bu idi: Hər kənddən axan su arxının bir sahibi olardı. Sudan istifadə edən şəxs torpaq sahibinə bir üşr verdikdən sonra, arx sahibinə də on beşdə bir bəhrə verərdi”[161].

E.Əliyeva bildirir ki, tarixən formalaşmış suvarma sistemi, münbit torpaqların bolluğu Qarabağda pambığın daha geniş sahələrdə əkilib-becərilməsi üçün münbit şərait yaradırdı. XVIII əsrə aid “müfəssəl dəftərlər”dən aydın olur ki, Qarabağın isti iqlim şəraitində yerləşən bütün düzənlik ərazilərində pambıqçılıq geniş yayılmışdı. Osmanlı hakimiyyəti 1727-ci ildə təkcə Bərdə nahiyəsinin 27 kəndindən “pambıq üşürü” adlı 56400 ağca toplanmış, XIX əsrin əvvəllərinə aid məlumatlarda isə Qarabağ xanlığında 3200 pud pambıq əldə edildiyi əksini tapmışdır[162]. Həm ənənəvi əkinçilik təcrübəsinə, həm də aqrotexniki qaydalara uyğun olaraq pambıq bitkisinin daha çox suya ehtiyac duyduğunu, isti iqlimli ərazilərdə pambıq əkini sahələrinin iki ayda ən azı üç dəfə suvarıldığını nəzərə alsaq, Qarabağın düzən ərazilərində geniş suvarma şəbəkəsinin mövcud olduğunu demək mümkündür.

Süni suvarma vasitəsi icma üzvlərinin ümumi vəsaiti və hesabına cəkilmiş olduğu halda hər bir iştirakçı sərf etdiyi vəsait və əməyə uyğun su payı alırdı. Sənəddə göstərilir ki, XVIII əsrin birinci yarısında Gəncə-Qarabağ əyalətinin Şuturbasan nahiyəsinin Dəhyekin kəndinin sakinləri arxların suyundan hər ay üç gün - üç gecə istifadə etmək hüququna malik idilər[163].

Bütün Azərbaycan xanlıqlarında olduğu kimi, Qarabağ xanlığında da süni suvarma sistemi mühüm rol oynayırdı.

---

[161] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*, Bakı, Şuşa, 2000, s.130.
[162] Emilya Əliyeva, *Xanlıqlar dövründə Şimali Azərbaycanda əkinçilik və suvarma sistemi,*Bakı, “Turxan” NPB, 2017, s. 89.
[163] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri*, Bakı, Şuşa, 2000, s.160.

Qaydalara görə, Azərbaycanda bütün sular iki kateqoriyaya bölünürdü:1) Təbii halda olan sular (çaylar, bulaqlar, bataqlıqlar); 2) İnsan əməyi ilə təbii haldan çıxarılmış sular (arxlar, kəhrizlər və digər süni suvarma vasitələri)...Birinci kateqoriyaya mənsub olan sulardan istifadədə heç bir məhdudiyyət yox idi. Onların üzərində ümumi mülkiyyət mövcud idi. İkinci kateqoriyaya aid sular üzərində isə xüsusi mülkiyyət mövcud idi. Su üzərində mülkiyyətin iki forması yayılmışdı. Feodal mülkiyyəti və kənd icmalarının, yaxud daha kiçik icmaların kollektiv mülkiyyəti. Böyük maddi imkanlara malik olan feodallar öz vəsaitləri hesabına suvarma arxları çəkdirir və kəhrizlər tikdirirdilər. Belə halda suvarma vasitəsi onu cəkdirən şəxsin mülkiyyəti sayılırdı. Suvarma vasitələrinin sahibləri onlardan istədikləri kimi istifadə etmək, satmaq, bağışlamaq, irsən vermək, iltizama vermək hüququna malik idilər[164].

Həsən bəy Zərdabi 1899-cu ildə "Kaspi" qəzetində çap olunmuş məqaləsində XVIII əsrdə Azərbaycan xanlıqları zamanı suvarma qaydaları barədə belə məlumat verir: *"Kürün qolları-bu xırda çayların hər birinin suyu ondan istifadə edən kəndlərin sayına görə hissələrə bölünürdü, eyni zamanda hər bir kəndin əhalisinin sayı və onun məşğuliyyəti nəzərə alınırdı".*

XIX əsrdə Mil və Muğanın düzənlik torpaqlarının məhsuldarlığı və əlverişli iqlimi pambıqçılığın inkişafina imkan yaradırdı. 1900-cü ildə Muğanda suvarma sisteminin tikintisinə başlanılır və bir il sonra Sarıcallar kanalı, 1902-1908-ci illərdə isə Aşağı və Yuxarı Qolitsin kanalları çəkilmiş, daha sonrakı illərdə Aşağı Muğan, Yuxarı Muğan kanalları işə düşmüş, 1901-1917-ci illərdə Muğanda 4 suvarma şəbəkəsi tikilmişdir. XX

[164] Tofiq Mustafazadə, *Qarabağ xanlığı*, Bakı, Sabah, 2009, s. 62-63.

əsrin əvvəllərində ölkədə kənd təsərrüfatının inkişafı problemi suvarmaya ehtiyacı daha da artırırdı[165].

Mürəkkəb suvarma şəbəkəsinin mövcud olduğu mahallarda suyun bölüşdürülməsinə nəzarət üçün mirab vəzifəsi mövcud idi. Qarabağ bəylərbəyliyi, Qarabağ sancaqlığı eləcə də, Qarabağ xanlığı dövründə suvarma sisteminin idarə olunması, mirabın səlahiyyətləri ciddi dəyişikliyə uğramamış, əsasən olduğu kimi qalmışdır. Xanlıqlar dövründə olduğu kimi, XIX əsrin sonu-XX əsrin əvvəllərində də mirab və cuvarlar hər arxa görə əməkhaqqı alırdılar.

Mirablar suvarma mövsümünün başlanması ərəfəsində seçilirdilər, hər bir kənddə mirabın köməkçisi-cuvar olurdu. Mirabları mahala daxil olan bütün kənd icmaları birlikdə, cuvarları isə hər bir kənd icması ayrı-ayrılıqda seçirdi. Hər mahalda miraba nəzarət üçün iki nəzarətçi təyin edilirdi. Mirablar mahal suyunu icmalar arasında bölür, baş suvarma obyektinin su bölünən hissəsində-bənddə su bölgüsü işarələri qoyur, mahalın hər yerində əkin yerlərini gəzir, ehtiyacı olan sahələrə növbədən kənar su verirdilər[166]. Çayın, arxın yuxarı axınındakı əkinçilər birinci suvarsalar da, su suvarılan əkin yerində topuqdan yuxarı qalxmamalı idi.

Qarabağ xanlığında 13 mahalın hər birində çayların və əsas arxların sularını mirablar bölürdülər, kiçik arxlarda suyun bölünməsinə 1-2 cuvar (uyar, darğa) baxırdı. Adətən bir neçə kəndin suyuna bir cuvar baxırdı. Suyun kənd evləri "tüstülər" və "tüstülər qrupu" arasında bölünməsinə kəndxudaların müavinləri, vəkilləri, ağsaqqallar nəzarət edirdi. Belə nəzarət

---

[165] Şahpələng Quliyev, *Suvarma /Azərbaycan etnoqrafiyası*, Bakı, Şərq-Qərb, 2007, s.134.

[166] Tofiq Mustafazadə, *Qarabağ xanlığı*, Bakı, Sabah, 2009, s.65.

səbəbsiz deyildi. Quraqlıq dövründə su oğurluğu, su növbəsi üstündə toqquşmalar baş verirdi. Suçular arx qazır, əkin sahələrinin başında suyu əkinçiyə təhvil verirdilər. Suçular arxları təmir edir, ağacdan, kol-kosdan təmizləyirdilər.

XIX əsrin sonlarına aid Çar Rusiyası dövründə nəşr edilmiş ("Zaqafqaziya dövlət kəndlilərinin məişətini öyrənmək üçün materiallar") ədəbiyyatları təhlil edən mütəxəssislər bildirirlər ki, sudan istifadə Qarabağ xanlığının, sonralar əyalətin müxtəlif yerlərində eyni deyildi. Belə ki, yay aylarında Qarqarçayda 5 baş (saniyədə 50 kub) su olanda 29 kəndin hərəsi bir ölçüdə su alırdı. Kəndlərin bir qrupu 6 baş, ikincisi 9 baş, üçüncüsü 11 baş, dördüncüsü 14 baş su alırdı. Quraqlıq dövründə Qarqarçaydakı suyu müddət üzrə bölürdülər. Qarqarçaydan ayrılan Yüzbaşı çayı boyu yerləşən kəndlər 9 sutka, Qaraçay arxı boyunca yerləşən kəndlər 8 sutka su ilə təmin edilirdi. Kənd daxilində isə suyu bağların, əkinlərin sahəsinə görə alırdılar. Su bölgüsünü asanlaşdırmaq üçün 2-3, yaxud 5 ev birləşir, aralarında növbə yaradırdılar. Böyük suvarma arxlarından istifadə edən bütün kəndlər suyu Qarqarçay hövzəsində olduğu kimi bölüşdürürdülər. Araz və Həkəri çayları yaxınlığındakı kəndlər sudan məhdudiyyətsiz şəkildə istifadə edə bilərdilər, çünki həmin kənd sakinlərin arxların (kanalların) inşası və istismarına xərc qoyurdular, bu xərclər suyun miqdarına görə deyil, kəndlərdəki təsərrüfatların sayına görə bölüşdürülürdü[167,168] .

XIX əsrin ikinci yarısında bütün suvarma sistemləri dövlətin mülkiyyəti sayılırdı. 1890-cı ildən sonra Kürdən başqa

---

[167] Tofiq Mustafazadə, *Qarabağ xanlığı*, Bakı, Sabah, 2009, s. 65.
[168] Zemfira Hacıyeva, *Qarabağ xanlığı: Sosial iqtisadi münasibətlər və dövlət quruluşu,* Bakı, Təhsil, 2007, s.113.

digər çayların hövzələrində 5 su mahalı fəaliyyət göstərirdi. Bu su mahallarının sərhədləri inzibati sərhədlərlə üst-üstə düşmürdü, böyük su mahalları əyalətlər üzrə suyun bölüşdürülməsini, çay və arxların idarəsini həyata keçirirdi.

Çar Rusiyası dövründə Azərbaycan kəndliləri suvarma sularından istifadə üçün vergi verirdilər. Dövlət xəzinə kəndlərindən axan çay və arxların sahibi olsa da, müxtəlif vasitələrlə yer üzərinə çıxarılmış suların (kəhriz, quyu) mülkiyyətçisi deyildi. Belə sular vəsait və zəhmət sərf edən onu üzə çıxaranların mülkiyyətində idi. Dövlət kəndliləri suya görə vergi verməsələr də, mirab və cuvarların əməkhaqqını ödəmək üçün pul və ya natural şəkildə məhsul verirdilər[169]. Kəndlilər suvarma suyunu torpaqla birlikdə icarəyə götürürdülər. İcarə haqqında da əsasən məhsulla, nadir hallarda nağd pul ilə ödənilirdi.

Xüsusi mülkiyyətdə olan suvarma kanal və arxlardan istifadə üçün vergi yığılırdı, lakin "Su müfəttişliyi" haqqında qanun və 1897-ci il 12 aprel tarixi "mirablar haqqında qaydalar" sudan istifadə üçün ayrıca vergi verilməsini nəzərdə tutmurdu. Xüsusi mülkiyyətdə olan suvarma sistemləri iki qaydada (suvarma suyunun torpaqla birgə istifadəsi və suvarma sisteminin torpaqsız istifadəsi) icarəyə götürülürdü[170].

Dağlıq ərazilər üçün xarakterik olan suvarma üsuluna görə, çaydan arx ayrılarkən ilk növbədə arxın içində quyular qazılardı. Burada məqsəd sürətli axan, kifayət qədər dağ çayının suyunun axım sürətini azaltmaq, suyun ılıqlaşmasını təmin etmək idi. Arxın içindəki növbəti quyular taxıl sahəsinin, bağın yaxınlığında qazılır, bunda da məqsəd sahəyə axan lilli suyun

[169] İ.Talıbzadə, *XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə,* Bakı, Elm,1980, s.49.
[170] İ.Talıbzadə, *XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə,* Bakı, Elm, 1980, s.127.

müəyyən qədər təmizlənməsi, isinməsi və sürətinin azalması idi.

Arxlar vasitəsilə "qara sular"ın əkin sahələrinə axıdılırdı. *"Müxtəlif üzvi qatışıqların zəngin tərkibinə görə içmək üçün yararsız olan bütün sular "qara su" sayılır. "Qara su" ya bulaq şəklində torpaqdan çıxır, ya da çox vaxt çayların daşmasından və suların toplanmasından, yəni torpaqların suvarılması zamanı yaranan bataqlıqlardan axıb gəlir. Suvarılma üçün çay suyunun çatmadığı yerlərdə qara suyun, xüsusi ilə yay fəslindəki quraqlıqlar zamanı sahələrin suvarılmasında böyük köməyi olur. Qara sulara çay vadilərinin aran zonalarında tez-tez rast gəlmək olur"*[171].

Bitkilərin daha keyfiyyətli suvarılması üçün ilk növbədə sahələr hamarlanar, hamarlanmadan sonra taxıl, pambıq və s. səpilməsi üçün şumlama həyata keçirilərdi.

Suvarmada xalq təqvimi də mövcud olmuşdur. Taxıl əkini sahələrinə və ya başqa bitkilərin becəriləcəyi sahəyə toxum səpilməmişdən əvvəl verilən suya "arat suyu" deyilir. Arat suyu yaz, yay və payızda verilərdi. Taxıl sahələrinə toxum səpildikdən sonra (payız əkini) "torpaq suyu", fevral ayında "çillə suyu" verilirdi. Boz ayın - martın ortalarında və ya axırında verilən su "gülənbər", üçüncü suvarma "döndərmə", dördüncü suvarma isə "çiçək suyu" adlanırdı. Yazın ilk günlərində taxıla "armudavar", "armud gülü", "heyva gülü" suyu verilirdi. Taxıl əkinlərinə dən tutan vaxtı "dən suyu" verilərdi. Həmin su taxılın məhsuldarlığında həlledici rol oynayırdı[172].

---

[171] Məhəmməd Həsən Vəliyev (Baharlı) *Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk,* Bakı, Azərbaycan, 1993, s.79.

[172] Ш.А. Гулиев, Я.А. Рустамов, *К некоторым вопросам искусственного орошения в Азербайджане (конец XIX - начало XX в.),* АЭС, III вып., 1977, с.68-70.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da su ölçü vahidi kimi “bir dəyirman su”, “bir baş su”, “bir bel su”, “bir qol su”, “bir əllik su”, “ikiəllik su”, “bir göz su”, “bur qulaq su”, “bir nov su” və s. suvarma ölçüləri daha geniş işlənmişdir. Bundan əlavə, “kəşkəl”, “qəc” və s. suvarma ölçü vahidləri də mövcud olmuşdur.

Suvarma suyundan istifadə etmək üçün əkinçilər arasında müəyyən qaydalar da mövcud olmuşdur. Adətə görə çaylarda bənd çəkilərkən suyun qabağı tam kəsilməməli idi, çayın yuxarısında yerləşən kəndlər suvarma suyunu əvvəl götürər, sonra isə su aşağı kəndlərə verilərdi. Kənd camaatının razılığı ilə ayrı-ayrı təsərrüfatlar arasında suyun qədərinə, suvarma növbəsinə (püşkatma ilə), sudan istifadəetmə müddətinə və vaxtına əməl edilərdi. Su növbəsi bəzən kəndin yuxarısında yerləşən əkin sahələrindən başlayaraq ardıcıllıqla davam etdirilərdi. Ayrı-ayrı kəndlərdə əkinlərə bu və ya başqa səbəblər üzündən su çatmadıqda, yaxud əkinlərin susuzluqdan yanmaq qorxusu olduqda həmin kəndə su (başqa kəndlərin su payı hesabına) növbədən kənar verilərdi. Buna “gavar”, “dəhnə bir” və ya “girdab” deyilərdi. “Dəhnə bir” iki-üç gündən artıq çəkməzdi. Suvarma suyu növbəsinin özünün də müddəti olmuşdur. Növbənin vaxtı elə müəyyənləşdirilirdi ki, həmin müddətdə əkini, bağı və bostanı və s. suvarmaq mümkün olurdu. Suvarma suyunun düzgün bölüşdürülməsi, növbələşdirilməsi, sudan düzgün istifadəyə mirab, cuvar, abyar və bəndivançılar nəzarət edirdi.

Qarabağda da taxıl əkinləri, bostan və bağlar arxla selləmə (subasma), şırım, küz, çala (lilman) və s. üsullarla suvarılmışdır.

Suvarmada əsasən selləmə və şırım üsulundan istifadə edilirdi. Selləmə zamanı sahə böyük ləklərə (1-2 hektar)

bölünür, su növbə ilə sahəyə axıdılırdı. Selləmə üsulu suyun həddən artıq  məsrəfinə səbəb olur, bundan əlavə torpaq qaysaqlanır və nəhayət torpağın nəmliyi tez çəkilirdi. Selləmə zamanı suyun torpağın narın qatını yuyub aparmamasına, sahədə şırım, yarğan yaratmamasına xüsusi diqqət yetirilirdi, belə hallar torpağın münbitliyini azaldırdı. Sahəyə həddindən artıq su buraxılanda bitkilərin cərgəsi pozulur, torpaq səthinə yaxın hissələri çılpaqlaşır. Buna görə də, hər kəs suvarma ilə məşğul olmaz, bu işi təcrübəli suçular yerinə yetirərdi[173].

Əkin və ya bostan sahələrini arx və şırım üsulu ilə (kiçik arxlarla) suvarmaq üçün bütün sahə (müəyyən məsafələrlə) əvvəlcədən şırımlanırdı. Arxdan şırımlara buraxılan su torpağa hopa-hopa sahənin aşağısına doğru gedirdi, bütün sahə suvarılırdı, su bərabər paylanırdı. Suçular şırım üsuluna üstünlük verirdilər, suya qənaət etmək, suyun bitkinin kökünü yumaması üçün sahə kotanın getdiyi şırıma uyğun olaraq, bölünür, bel ilə "baş açıb bağlamaqla" sahəyə axan suyun bərabər bölünməsi, hər tərəfə çatması təmin olunurdu.

Bağlar suvarılarkən axara uyğun olaraq, bir-birinin ardınca, ağacın, şitilin, tənəyin ətrafında torpaqla möhkəmləndirilmiş çalalar, suyun bir çaladan digərinə keçməsi üçün dərin "cığırlar" qazırdılar. Su bir ağacların dibinə axır, çala dolandan sonra digər çalaya keçir, bununla da bütün bağın suvarılması təmin edilirdi, ağaclar eyni səviyyədə su içirdi. Üzümçülük və bağçılığın geniş yayıldığı Araz hövzəsində yüksək məhsul əldə etmək məqsədi ilə qış və yaz aratı həyata keçirilərdi. Torpaq məsamələrinə dolan su gecələr donar, gündüzlər əriməklə torpağı dənəvərləşdirər bununla da, bitkilərin məhsuldarlığı artırdı.

[173] Şahpələng Quliyev, *Suvarma /Azərbaycan etnoqrafiyası*, Bakı, Şərq-Qərb, 2007, s.146.

Üzümçülükdə tənəklər “xiyabani”, “molla çəpəri”, “kələsər” üsulu və s. ilə becərilmiş, buna uyğun olaraq suvarılma aparılmışdır.

Qarabağın təbiəti, torpaq və iqlim şəraiti, bitkilərin çox-növlüyü suvarma sistem və üsullarının müxtəlifliyinə səbəb olmuşdur. Təcrübəli əkinçilər məhsuldarlığın artırılması üçün suvarmaya xüsusi önəm vermişlər. Əkin sahəsini selləmə üsulu ilə yanaşı, küz üsulu ilə suvarmağı məqsədəuyğun saymışlar.

Əkinçilər sahəni bir neçə kiçik hissəyə (küz) bölüb şum-ladıqdan, toxum səpdikdən dərhal sonra küzü suvarar, bundan sonra növbəti küzə keçərdilər.Sahə dərhal suvarılmasa, toxum quru qalıb cücərməz, ziyanvericilər tərəfindən tələf edilə bilərdi. Buna görə də, təcrübəli əkinçilər deyiblər ki, küz əkib, küz suvarmasan yüz dəfə də suvarmanın xeyri yoxdur. Elə buradan da “Toxumu öküzün dırnağına suvar ki, o, qurd-quşa yem olmasın” məsəli yaranmışdır.

El təcrübəsinə görə, əkin, bağ-bağat, bostan günün sərin vaxtında, yəni gün qızanadək aparılır, sahə gün qızanda suva-rılanda bitkilər öz tamını itirir, hətta acı dadır. Təcrübəli əkinçi və ya bağban tarlanı, bağ-bostanı günün qızmar vaxtında suvarmır, çünki bu halda su qızır və buxar bitkinin inkişafına mənfi təsir göstərir.

Suvarmada xalq təqvimi mövcud olmuşdur. Taxıl əkini sahələrinə və ya başqa bitkilərin becəriləcəyi sahəyə toxum səpilməmişdən əvvəl verilən suya “arat suyu” deyilir. Arat suyu yaz, yay və payızda verilərdi. Taxıl sahələrinə toxum səpildikdən sonra (payız əkini) “torpaq suyu”, fevral ayında “çillə suyu” verilirdi.  Boz ayın - martın ortalarında və ya axırında verilən su “gülənbər”, üçüncü suvarma “döndərmə”, dördüncü suvarma isə “çiçək suyu” adlanırdı. Yazın ilk

günlərində taxıla “armudavar”, “armud gülü”, “heyva gülü” suyu verilirdi. Taxıl əkinlərinə dən tutan vaxtı “dən suyu” verilərdi. Həmin su taxılın məhsuldarlığında həlledici rol oynayırdı. Qarabağda da su ölçü vahidi kimi “bir dəyirman su”, “bir baş su”, “bir bel su”, “bir qol su”, “bir əllik su”, “ikiəllik su”, “bir göz su”, “bur qulaq su”, “bir nov su” və s. suvarma ölçüləri işlədilmişdir. Bundan əlavə, “kəşkəl”, “qəc” və s. suvarma ölçü vahidləri də mövcud olmuşdur[174].

Azərbaycanın müxtəlif yerlərində çəltik əkinlərinin suvarılması üçün çay suyundan, istil, bulaq, qara sulardan və kəhriz sularından istifadə edilmiş, Naxçıvan, Qubadlı, Zəngilanda isə əsasən çay və kəhriz suyu ilə becərilmişdir.

Çəltik ləklərindəki su təbəqəsi 8-10, bəzən 10-12 sm-ə qədər olurdu. Daha doğrusu, bitki suyun içində olmalıdır. Çəltik əkinində suyun bir ləkdən digərinə keçirilməsi üçün bərə adlanan keçidlər olurdu. Sukeçirici bərələr bəzən bir-birinə düz istiqa-mətdə, əsasən tərs halda düzəldilirdi. Birinci qayda “üzəngi bərə”, ikinci qayda “tərsə bərə” adlanırdı. Naxçıvanda isə arxının suyu çəltik ləkinə bir bərə ilə daxil olur, o biri bərə ilə yenə arxa qayıdırdı. Ona görə də, belə suvarma qaydasına “dol qayıt” deyilirdi. Azərbaycanda əkinlərin suvarılmasında “tərsə bərə” üsulu daha geniş yayılmışdı. Su çətin hərəkət edən əkin sahələrində isə “üzəngi bərə” qaydasından istifadə edilirdi[175].

Çəltik çox su tələb edən bitki olduğundan su az olan vaxtlarda təcrübəli suçular vəziyyətdən çıxmağı bacarırdılar. Onlar əkin sahəsini aramla suvarmaqla (həftədə 2-3 gün ləkin

---

174 Şahpələng Quliyev, *Suvarma /Azərbaycan etnoqrafiyası*, Bakı, Şərq-Qərb, 2007,s.147.

175 Şahpələng Quliyev, *Azərbaycanda çəltikçilik (tarixi-etnoqrafik tədqiqat),* Bakı, Elm, 1977, s.57

suyunu kəsməklə) bitkinin inkişafını təmin edə bilir, nəticədə məhsuldarlıq azalmırdı. Suçular yaxşı bilirdilər ki, çox soyuq su (xüsusilə aprel-may aylarında) bitkinin inkişafına pis təsir edir. Ona görə də, əkin sahəsinin su daxil olan tərəfində iri (nisbətən dərin) lək-başqov düzəldilirdi. Arxla əkinə gələn su əvvəlcə başqova daxil olur, burada nisbətən isinərək əkin sahəsinə axıdılırdı. Suyu isitmək məqsədi ilə başqa bir üsuldan da istifadə edilirdi. Bunun üçün əkin sahəsinə su arxı çəkilərkən onu əyri-üyrü, yaxud dayaz, həm də enli etməklə suyun sürətini yavaşıtmaq, yaxud onun səthinə günəş şüasının daha çox düşməsini təmin etməklə suyun soyuqluqluğunu azaldırdılar. Çəltik əkinlərinin suyu 20-22$^{o}$C olmalıdır. Suyun temperaturu bundan aşağı olduqda məhsuldarlığa pis təsir göstərir. Bəzən çəltik ləklərinə həddindən artıq bulanıq çay suyunun daxil olması ləklərin çox lillənməsinə səbəb olur, bu da bitkinin inkişafını ləngidir. Belə vəziyyətdə suçu arxın əkinə daxil olan yerində iri, dərin lək lilpara düzəldilirdi. Əkinə gələn su buraya dolur, duruldudqdan sonra sahəyə axıdılırdı[176].

Çəltikçilər yorğun düşmüş torpağı qüvvətləndirmək məqsədilə çay suyundan istifadə edirdilər. Bunun üçün onlar sahəyə az müddətə su buraxırdılar ki, lil torpağa çöksün və torpaq qüvvətlənsin.

XIX-XX əsrlərdə əsas suvarma mənbəyi kimi, çaylardan, bulaqlardan, göl və nohurlardan, quyulardan, su anbarları ilə yanaşı, dərin yataqlı çaylardan su çıxaran mexaniki çarxlardan, su nasoslarından istifadə olunmuşdur. İnformatorların verdiyi məlumata görə, XX əsrin ikinci yarısında Arazboyu kəndlərdə, məsələn, Şahvəli, Şükürbəyli kəndlərində su nasosla sahələrə

---

[176] Şahpələng Quliyev, *Azərbaycanda çəltikçilik (tarixi-etnoqrafik tədqiqat),* Bakı, Elm, 1977, s.57.

vurulur, sahə çiləmə üsulu ilə suvarılırdı. Bu dövrdə ənənəvi suvarma üsullarından (əkinlərin gecə suvarılması, suvarılma zamanı peyinin sahəyə axıdılması, "sısqa axın" üsulu) istifadə olunurdu, məsələn, kolxoz və sovxozlarda əkinlərin gecə suvarılması sudan səmərəli istifadəyə kömək etməklə yanaşı, gündüz vaxtı da əkinlərin intensiv suvarılmasına, digər tərəfdən də sərin havada suvarma bitkilərin inkişafına, məhsuldarlığa müsbət təsir göstərirdi.

## SU İLƏ BAĞLI İNANCLAR

Suyu qüvvət və bərəkət mənbəyi kimi sayan qədim insanın "dünyanın yaranmasında ən başlanğıcında" olan su ilə bağlı miflərin, əfsanələrin formalaşmasında insanın həyatında mühüm rol oynayan çayların, göllərin, bulaqların böyük rolu olmuş, nəticədə su kultu ortaya çıxmışdır. Azərbaycan mifologiyasında əksini tapan "Hər yer qaranlıq idi, bir Tanrı var idi, bir su", "Kitabi-Dədə Qorqud" da Qazan xanın "Su həq didarını", yəni Yaradanı görüb, "Göydən nur yağır" və s. oxşar fikirlər xalqımızın su ilə bağlı qədim və sadə fəlsəfəsini ortaya çıxarır.

Azərbaycan xalqının mifik təfəkküründə, folklor nümunələrində su həm göydən enən, həm də yerdən çıxan yaşam mənbəyidir, su və çaylar dağ kultu ilə birgə tutulur. Tanrı qatına yaxın dağlardan axıb gələn, bərəkətin qaynağı olan çaylar cənnətdən yer üzünə enirlər və burada axıb dənizlərə tökülərək, yerin altına çəkilirlər.

Dağlar əsasən sularla bağlıdır, hər bir çay öz mənbələrini dağlardan götürür, ilboyu əriyən qarlar, bulaqlardan axan sular

kiçik irmaqlar yaradır, onlar bir-birinə qovuşaraq iti dağ çaylarına çevrilir. Qədim türklərin yer-su inamı dağla (yerlə) suyun təbiətdəki birgəliyini ifadə edir. Qədim türkün qavradığı təbiətin quruluşu onun inanclarının həm məzmununda, həm də obrazlarının poetik quruluşunda təkrarlanır[177].

Qarabağın dağları ilə bağlı müxtəlif əfsanələr vardır. Qarabağın hər bir dağı əfsanə və rəvayətlərdə canlanır. Zirvəsi daim buludların içində görünməz olan, sinəsi qarlı, adının mənası "uca", "böyük", "sıldırım" olan Böyük Kirs dağı, onun ətəyində yerləşən həmişəyaşıl Bala Kirs dağı, Şuşa və Laçının arasında yerləşən, Bəzirgansu çayının (Qarqar çayını sol qolu) mənbəyi olan Sarıbaba dağı, Turşsunun üzərində yüksələn Sağsağan dağı, Şuşa ərazisində olan Kirs dağı Qarabağ silsiləsinin ən yüksək zirvələrindəndir, Keçəldağ, Çaxmaq dağı, çaqqala ağacları bitən Çaqqala dağı, Malibəylinin yaxınlığındakı Bağrığan dağı və s. dağlar haqqında əfsanələr vardır. Məsələn, "Bağrığan" gülünün bitdiyi Bağırğan və ya Bağrığan dağı ilə bağlı ən məşhur əfsanə "Xarı bülbül", yaxud "Sarı bülbül" əfsanəsidir.

*Vətən bağı al-əlvandır,*
*Nə gəzirsən, xarı bülbül?*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı, sarı bülbül?!*

Bağrığan dağının adı 1905-ci il hadisələri ilə də bağlıdır. Mir Mövsün Nəvvab ermənilərin azərbaycanlılara qarşı qanlı

---

[177] A. Babək , *Azərbaycan folklorunda su ilə bağlı inamlar*, Bakı, Nurlan, 2011, s.212,s.80.

əməlləri haqqında məlumat vermişdir, onun yazdığına görə, ermənilərin qanlı əməllərini eşidən-bilən hər kəsin bağrı qan olardı, ona görə də bu dağ "Bağrıǧan" adı ilə tanınmışdır[178].

Zirvəsi həmişə dumanlı-çənli olan Qırxqız dağı haqqında əfsanələrin birində deyilir: "Bir gün qırx qız "Qızlar bulağı" deyilən çeşmədən şərbət kimi su içəndən sonra dünya gözəlinə çevrilirlər. Qızların hər biri lay divar kimi bir oğlan sevir. Lakin cadu edilən oğlanlar ayrı-ayrılıqda uğursuzluğa düçar olur və öz sevgilərinə çata bilmir, qızlar həyatdan nakam köçürlər. Onların sevgi, məhəbbət oxları daşa dəydiyindən hamısı tək-tək daşa dönür. O vaxtdan dağın adı "Qırxqız" qalır"[179].

Qədim türklərin animist baxışlarına görə, dağlar, göllər, çaylar insan kimi sevib-sevilir, duyurlar, göllər, sular müqəddəsdirlər[180].

Xalqımızın mifik dünya görüşündə suyun müqəddəs tutulmasının ən bariz nümunələrindən biri Novruz bayramı günlərində-Su çərşənbəsində, İlaxır çərşənbədə səhər tezdən, günəş hələ çıxmamış çaydan su gətirilməsi, evə, həyət-bacaya səpilməsidir. Bu, suyun məhsuldarlıqla yanaşı, qoruyucu gücünün olması haqqında inanca bağlıdır. Su gətiriləndə çaydan götürülmüş, bərəkət gətirdiyinə inanılan daş qabın içinə qoyulardı. Bu daş gələn il Novruz bayramınadək saxlanılardı, növbəti ildə həmin daş çaya qoyular, yeni su və daş götürülərdi.

Göydən yağan yağış torpağa bərəkət gətirir eyni zamanda, suyun toxunduğu hər şeyə öz təsirini göstərir. İlaxır çərşənbəsi

---

[178] Mir Mövsün Nəvvab, *1905-1906-cı illərdə erməni-müsəlman davası*, Bakı, Azərbaycan, 1993, s.8.
[179] *Şuşanın dağları,* 30.07.2021, http:// www.azertag.az/ xeber/ susanin_ daglari-1841803,(istifadə tarixi: 30.07.2021).
[180] Mirəli Seyidov, *Azərbaycan mifik təfəkkürünün qaynaqları*, Bakı, Yazıçı, 1983, s.326; s.45.

günü çayın sahilinə enmək, suyun üstündən tullanmaq, çayda, çeşmədə yuyunmaq, evdəki suları töküb qabları təzə su ilə doldurmaq, “Ağırlığım, dərdim-bəlam bu suda axsın getsin” demək də arınmaq, yenilənmək mərasiminin qalıqlarındandır.

*“Şahnisə xanım bir az dincəlib durdu, bulaq başında əl-üzünü yudu və: “Ağırlığım, uğurluğum tökülsün! “ – deyə axar su üzərindən Kiçikbəyimin köməkliyilə atlandı. Kiçikbəyim Məmməd bəyin qolundan tutub, onu da suyun yanına gətirdi, qəhqəhə çəkib onu itələdi, sudan atlatdı”*[181].

Subay qızların həmin gün erkəndən, hamıdan əvvəl gedib bulaqdan su gətirməsi bəxtinin açılması, yeni ailənin qurulması, yeni başlanğıca inamla bağlı idi. “Bu su adi su deyildir, Novruz suyudur. Həmin bulaqdan insanlar hər gün istifadə etmişlər. Ancaq bulağın suyu Novruz günü, gün çıxmamış bərəkətverici su olur”[182].

“İlaxır çərşənbəsi və Novruz bayramı gecəsi (yəni il təhvil olan gecə) Gülablı kəndinin (Ağdam) hündür yeri olan Məşədi Abbas qayasında "Vışka” deyilən hündürlükdə üç-dörd yerdə tonqallar yandırardılar. Bu tonqallar bütün gecəni səhərə kimi yanırdı. Sübhə kimi tonqal ətrafına yığışan insanlar günəşi xoş əhval-ruhiyyə ilə qarşılayar, bulaq başına gedər, hər bir insan, dərdini suya danışardı ki, onu su yuyub aparsın”[183]. Öz dərdini suya danışmaqla yanaşı, öz niyyətini suya söyləmək adəti də olmuşdur.

---

[181] Yusif Vəzir Çəmənzəminli, *Əsərləri,* üç cilddə, II cild, Bakı, Avrasiya Press, 2005, s.664,s.478, s.456.
[182] A. Babək, *Azərbaycan folklorunda su ilə bağlı inamlar,* Bakı, Nurlan, 2011, s.212, s.177.
[183]A.Nəbiyeva, *Qarabağda Novruz bayramı*, “Azərbaycan” qəzeti, 12.03.2019, http://www.azerbaijan-news.az/az/posts/detail/qarabagda-novruz-bayrami-78220,(istifadə tarixi:12.03.2019).

“Demək axır çərşənbə gecəsi suyun sahibi insanı eşidir, onun niyyətlərini dinləyib nəsibini verir. Su həm də insanın bütün ağırlıqlarını təmizləyir, təsdiq olunur ki, bu su ilkin, kosmoqonik sudur, möcüzəlidir, insanın azar-bezarını götürür, sağlamlıq bəxş edir, onun arzularını yerinə yetirir”[184].

Dolu yağanda ilk düşən dolunu ailənin böyük övladı yesə idi, dolunun kəsəcəyinə inanılırdı. Novruz bayramı günlərində Tərtər, Qarqar, Həkəri və başqa çayların sahillərində, yaxınlığında tonqal qalanmış, şənliklər keçirilmişdir. XX əsrin 80-ci illərinin sonunadək Yusifcanlı kəndində bayram günlərində Qarqarçayın, Sonasar kəndində Həkəri çayının sahilində və s. bayram keçirmək ənənəsi var idi.

Qarabağda “çilləkəsmə” mərasimi çay, bulaq üzərində həyata keçirilərdi. Yusif Vəzir Çəmənzəminlinin “İki od arasında” əsərində su kənarında “çillə kəsmək” ayını belə təsvir olunur: *“Tut ağacının altında zərif kaşan xalçaları salınmış, məxmər döşəkçələr, ipək püştələr (yasdıqlar), mütəkkələr düzülmüşdü. Qaravaşlar əlləri döşlərində səf çəkib, xanımları gözləyirdilər. Şahnisə xanım isə suyun kənarında oturub çilləsini kəsdirirdi. Kiçikbəyim üçün Gülablı kəndindən gətirilmiş və o zamandan bəri sarayda qalmış dayə, xanımın qarşısında çömbəlib, onun baş barmaqlarını ağ iplikla çatdı, sonra dedi:*

*– Həzrəti Süleyman eşqinə, cin qızı Mərcan hökmünə, bəni adəmdən, bəni heyvandan, cindən, şeytandan, axar sudan, köklü ağacdan, dibli qayadan, yeddi yolun ayrıcından... hər kəsin çilləsinə düşübsən, çilləni kəsdim!*

*Bu sözlərdən sonra qayçı ilə ipliyi kəsdi. Əlavə olaraq*

---

[184] A.Babək, *Azərbaycan folklorunda su ilə bağlı inamlar*, Bakı, Nurlan, 2011, s.212,s.178.

*xanımın barmaqlarını iki dəfə də çatdı, eyni sözləri oxuyub kəsdi və sonra kəsilmiş iplikləri bir əli ilə qaldırıb xanımın başının üstündə tutdu və o biri əli ilə bürüncdən qayrılmış, üzərində dualar həkk olunmuş "qırx açar camı" ilə bulaqdan bir az su götürüb iplik qırıntılarının üstündən axıtdı. Su xanımın başından aşağı süzələnərək onu bütün dərdlərini yuyub apardı. Dayə Kiçikbəyimin də çilləsini kəsdi, ona xoşbəxtlik dilədi, sonra südü ilə bəsləmiş olduğu bəyimin incə əllərini dodaqlarına basıb öpdükdə gözləri yaşardı..."*[185]

Səməni ovsununda övladı olmayan qadınla bağlı icra olunur, bu zaman səməni qadının başının üstündə saxlanılır, övladı olan bir qadın səməninin üzərində su axıdır, su çilləyə düşmüş qadının üstünə də axır. Övlad böyütmüş başqa bir qadın sanki suyu kəsə-kəsə "A səməni göyərdən, bu gəlini də göyərt"- deyir, yaxud belə nəğmə oxuyur:

*Arpa, buğda dənidi,*
*Göyərən səmənidi,*
*Kəsdim, gəlin, çilləni,*
*Övlad vermək dəmidir*[186].

Bayram günündə çay sahilində, bulaq üstündə cavanlar bir-birinin üstünə su çiləyərdilər, bu zarafatyana bir davranış kimi görünsə də, əslində burada su ilə arınmaq inancının qalıqları qalmaqda idi. Su arındırır, günahları təmizləyir, hər şeyi həyatın başlanğıcındakı təmizliyə və saflığa qaytarır.

Qədimdən suyun-çayın, bulağın "öz yiyəsi"nin olduğuna

---

[185] Yusif Vəzir Çəmənzəminli, *Əsərləri*, üç cilddə, II cild, Bakı, Avrasiya Press, 2005, s.456.

[186] *Novruz bayramı ensiklopediyası,* tərtib edən:Bəhlul Abdulla, Tofiq Babayev, Bakı, Şərq-Qərb, 2008, s.169-170.

inanılmış, buna görə də onu hirsləndirəcək hər hansı davranışdan qaçınılır, xüsusilə axşam və ya gecə çay sahilinə enəndə və ya keçəndə, qajın (kiçik arx) üstündən keçəndə eyni zamanda, çaydan su götürəndə dualar oxunar, "bismillah" deyirlər. Sel, daşqın hallarında və s. suyun nə qədər təhlükəli olduğunu bilən ibtidai insan ondan ehtiyatlı olmağı vacib saymış, təbiətin mühüm ünsürü olan suya sayğı duymuşdur.

Quraqlıq illərində yağış yağdırmaq diləyi ilə keçirilən "Qodu-qodu" oyunu, qadınların çayın içində "cüt sürməsi", çay kənarlarında "müsəlla" mərasimləri Qarabağ əhalisinin mərasimlərində, folklor nümunələrində özünü göstərir. Bölgə suları ilə nə qədər bol olsa da, belə ibtidai mərasim qalıqları, şifahi xalq yaradıcılığı nümunələri göstərir ki, burada süni suvarmanın yaradılması, nəsillərdən-nəsillərə ötürülməsi mühüm əhəmiyyət daşımışdır.

## QARABAĞDA SUVARMA SİSTEMİNİN MÜASİR VƏZİYYƏTİ

Keçmiş sovet dövründə Qarabağın suvarma sistemi yeni təsərrüfat sahələrinin inkişafı, mexanikləşdirilmiş vasitələrdən istifadə və s. amillərin təsiri ilə inkişaf etmişdir. Respublikada 1970-1980-ci illərdə suvarma əkinçiliyinin imkanlarından geniş və səmərəli istifadə edilməsinə xüsusi diqqət yetirilirdi və müxtəlif təyinatlı çoxlu su təsərrüfatı obyektləri (dəryaçalar, kanallar və s.) tikilib istifadəyə verilmişdi[187].

---

[187] *Azərbaycan,* Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, Bakı, 2007, s.388.

XX əsrin 70-ci illərində Qarabağın kənd təsərrüfatının inkişafı üçün meliorasiya və irriqasiya işləri daha da genişləndirildi. Ümummilli lider Heydər Əliyev Qarabağın kənd təsərrüfatını su ilə təmin etmək məsələsini daim diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyildir ki, 1970-1981-ci illərdə Qarabağda təkcə irriqasiya və meliorasiya işlərinə 1550 min manat (rubl) vəsait ayrılmış, kolxoz və sovxozlarda 100-400 metr dərinlikdə artezian quyuları qazılmış, dərin dərələrdən axan çaylardan su vurmaq üçün 86 mexaniki aqreqat (1971-1975-ci illərdə) verilmişdir[188]. Heydər Əliyevin rəhbərliyi dövründə Qarabağda kənd təsərrüfatını inkişaf etdirmək üçün irriqasiya və meliorasiya işlərini nəticəsində suvarılan torpaqların həcmi 1970-ci ildə 41726 hektar, 1975-ci ildə 45 498 hektar, 1980-ci ildə 48750 hektar, 1985-ci ildə 57938 hektara çatdırılmışdır. Kənd təsərrüfatının nailiyyətlərində Qarabağda müstəsna əhəmiyyət kəsb edən suvarılan torpaq sahələrinin artırılmasının böyük əhəmiyyəti olmuşdur[189].

Qarabağda Araz, Tərtərçay, Bazarçay, Həkəri və s. çayların üzərində tikilmiş SES-lər, kompleks təyinatlı hidroqurğular, hidroenerji qurğuları və s. su təsərrüfatı obyektləri təsərrüfatın xarakterinə ciddi təsir göstərmişdir.

Yuxarı Qarabağ kanalı 1958-ci ildə istismara verilmişdir, kanalın uzunluğu 172,4 km-dir. Mənbəyini Mingəçevir dəryaçasından və Kür çayından götürən kanal Qarabağ zonasının, Mil düzünün 122 min hektarını su ilə təmin edirdi. Araz çayında su az olan vaxtlarda bu kanal ilə Bəhrəmtəpə hidroqovşağına su

---

[188] Nazim Məmmədov, *Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları-1980-ci illərin əvvəlləri)*, Bakı, “Optimist” MMC, 2023, s.44.
[189] Nazim Məmmədov,*Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları-1980-ci illərin əvvəlləri)*, Bakı, “Optimist” MMC, 2023, s.46.

axıdılırdı.[190]

Yuxarı Qarabağ kanalı 1970-ci illərdə yenidən qurulmuş, rayonlararası kanallar şəbəkəsi və təsərrüfat daxili kanalların çəkilişi genişləndirilmişdir. Qarabağ ərazisində 1976-1981-ci illərdə 388,5 km. uzunluğunda iri rayonlararası kanallar, 348 km. uzunluğunda təsərrüfatlar daxili kanallar çəkilib istifadəyə verilmişdir. Hətta Ağdərə rayonu ərazisində əkin sahələrini suvarmaq üçün əlverişli suvarma sistemi olan "süni yağış" adlı suvarma sistemi tətbiq olundu ki, bu vasitə həm suyun itkisinin qarşısını alır, həm də bitkilərin məhsuldarlığını artırırdı[191].

Tərtərçaydan çəkilən Qazarx, Daşarx, Şıxarx, Tərtərçay kanalları Papravənd, Qabartı, Xaçın, Qarqar, Gülablı çayları ilə birlikdə Qarabağın düzənlik ərazilərinin suvarılmasında mühüm rol oynamışdır.

Qarabağda 1960-cı illərin sonu-1980-ci illərin əvvəlində energetika obyektlərinin tikintisi böyük vüsət almışdır. Tərtər çayı üzərində tikilən Sərsəng su anbarının tikintisinə Azərbaycan KP MK birinci katibi Heydər Əliyev həmişə diqqət yetirmiş, 1970-ci ildə "Tərtər çayında magistral kanallarla birlikdə su anbarı tikintisini sürətləndirmək haqqında" adlı xüsusi qərar imzalamışdır. Sərsəng su anbarının tikintisinə 95 milyon manatdan (rubl) çox vəsait ayrılmış, tikinti 1976-cı ildə başa çatdırılmışdır[192].

Sərsəng su anbarının (sahəsi 13,85 kv$^2$) ümumi həcmi 560 mln.km$^3$ idi. Sərsəng SES nəinki lazımi qədər elektrik enerjisi

---

[190] Elbrus Paşayev, Fazil Həsənov, *Azdövsutəslayihə İnstitutunun tarixi və inkişaf yolu,* Bakı, Şərq-Qərb, 2010, s. 65.
[191] Nazim Məmmədov, *Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları-1980-ci illərin əvvəlləri)*, Bakı, "Optimist" MMC, 2023, s.46.
[192] Nazim Məmmədov, *Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları-1980-ci illərin əvvəlləri),*Bakı, "Optimist" MMC, 2023, s.45.

istehsal edirdi, həm də bu mürəkkəb hidrotexniki qurğu Qarabağ düzündə 120 min hektar sahədə yeni əkinləri, çoxillik bitkiləri suvarmaq imkanına malik idi. Stansiya hər birinin gücü 25 MVt olan 2 hidroaqreqatdan ibarət olmuşdur, hər il istehsal etdiyi 125 milyon kilovat saat elektrik enerjisi ilə Cənubi Qafqazın vahid energetika sisteminə daxil olmuşdur. Hündürlüyünə görə, Sərsəng SES-in 130 metrlik tökmə bəndi (130 metr) dünyanın hündür bəndli su anbarlarından biri sayılır[193].

Sərsəng su anbarı 6 rayonun (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) əkin sahəsini ümumi uzunluğu 100 km olan kanallar vasitəsi ilə suvarma suyu ilə təmin edirdi. 1990-cı ildə stansiyanın il ərzində istehsal etdiyi elektrik enerjisi 81.9 mln. kVt.s olmuşdur[194]. Qarabağın kolxoz və sovxozlarının əkin sahələrini suvaran birinci kanalın (sağ kanal) uzunluğu 75 km, ikinci kanalın (sol kanal) uzunluğu 25 km-ə yaxın idi[195].

Birinci Qarabağ müharibəsinin nəticələri, Ermənistanın torpaqlarımızın 20 faizini işğal etməsi Azərbaycanın suvarma sisteminə ciddi zərbə vurmuşdur. Ermənistanın təcavüzü nəticəsində regionda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, o cümlədən, sovxoz və kolxozlar, təsərrüfat birlikləri öz fəaliyyətini dayandırmışdır. İşğal olunmuş ərazilərdə kənd təsərrüfatına yararlı 1,32 mln. ha torpaq sahəsi, 1988-ci ildən qalan 311 kənd təsərrüfatı müəssisəsi, 145 üzümçülük-şərabçılıq sovxozu, 135 kolxoz və 31

---

[193] *Azərbaycan,* Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, Bakı, 2007, s.46; Nazim Məmmədov, *Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları-1980-ci illərin əvvəlləri),* Bakı, "Optimist" MMC,2023, s.35.

[194] C.Məmmədov, *"Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları", I Beynəlxalq elmi-praktik konfransın materialları*, Ağdam-Bakı: 16-17 sentyabr 2021-ci il, s.336-345.

[195]Nazim Məmmədov, *Qarabağın inkişaf konsepsiyası (1960-cı illərin sonları-1980-ci illərin əvvəlləri),* Bakı, "Optimist" MMC, 2023, s.45.

təsərrüfatlararası müəssisə dağıdılmışdır. İşğal olunmuş ərazilərdə 7296 ədəd hidroqurğu, 36 ədəd nasos stansiyası, 29 ədəd suvarma sistemi, 26 ədəd suvarma sisteminin baş qurğuları, 1,2 min km təsərrüfatlararası suvarma kanalları, təsərrüfatlararası kanallar üzərində 713 qurğu, 5,6 min km təsərrüfatdaxili sistemləri sıradan çıxarılmış, 128 min ha keyfiyyətli suvarılan torpaqlar düşmən tapdağı altında qalmışdır[196].

Torpaqlarımızın işğalı nəticəsində hələ 1981-cı ildə tikilib istifadəyə verilmiş Kəlbəcər "İstusu" mineral su zavodu da fəaliyyətini dayandırmışdır[197].

Ermənistanın işğalı altında qalan Azərbaycan torpaqlarında 9 su anbarı, 7 sututarı, 6 426 kilometr suvarma şəbəkəsi, 2 hidroqovşaq, 330 kilometr kollektor-drenaj şəbəkəsi, 803 hidrotexniki qurğu, 88 nasos stansiyası, 1 429 subartezian quyusu vardı. Ümumilikdə isə 125 800 hektar suvarılan torpaq sahəsi işğal altında qalmışdı[198]. Tərtərçayının sağ sahil kanalı və s. işğal altında qalaraq ya tamamilə dağılmış, ya da yararsız hala salınmışdır.

Azərbaycanda yerli su ehtiyatlarının 20%-nin Qarabağ və Şərqi Zəngəzur bölgələrində formalaşdığını nəzərə alsaq, əsas çayların mənbəyinin və böyük su həcmlərinin erməni işğalı altında qalmasının ciddi problemlər yaratmasının doğurduğu çətinlikləri təsəvvür etmək mümkündür.

---

[196] *Ermənistanın Azərbaycana təcavüzü*, Sosial iqtisadi fəsadlar. http:// www. shusha.az/ermənistanin-azərbaycana-təcavuzu, (istifadə tarixi: 26.09.2023).
[197] *"İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanışlıq*, http://www. xalqqazeti.az/az/resmi-xronika/136514-istisu-mineral-sudoldurma-zavodunun-tikintisi, (istifadə tarixi:25.08.2023).
[198] *Ermənilər Azərbaycanın su təsərrüfatı obyektlərini vəhşicəsinə dağıdıblar* http://www.news 24.az/52451,(istifadə tarixi:12.10.2023).

Azərbaycan ərazisinin erməni işğalçıları tərəfindən zəbt olunması su sərvətlərimizə də öz mənfi təsirini göstərmişdir. Həm işğal dövründə, həm də 44 günlük Vətən müharibəsinin nəticəsində Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra da Araz çayı və onun qolları – Oxçuçay, Həkəri, Bərgüşad, Bəsitçay, Bazarçay işğalçı Ermənistanın sənaye və məişət tullantıları ilə çirkləndirilir. Bu əslində işğal dövründə aparılmış ekoloji genosidin davamıdır, işğal illərində Qarabağın meşələri sıradan çıxarılmış, ağac materialları müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Məsələn, Bəsitçay sahilləri boyu yayılmış Şərq çinarı meşələri məhv edilmişdir.

Oxçuçayın Araza töküldüyü yerdə aparılmış tədqiqatlar nəticəsində müəyyən edilib ki, su tutumu Arazdan 25 dəfə kiçik olmasına baxmayaraq, Araza qarışan Oxçuçay onun təbii mikroflorasını 65 km axın boyu 80% məhv edir. Oxçuçayın çirklilik dərəcəsini bununla izah etmək olar ki, suda misin miqdarı YVQ-dən 45-70 dəfə, manqan 20-30 dəfə, fenollar 25-40 dəfə çoxdur. Ermənistandan respublikamızın ərazisinə daxil olan Oxçuçay suyunun tərkibində çirkləndirici maddələrdən mərgümüş, mis, molibden, dəmir, qurğuşun, civə və kükürd kimi zərərli birləşmələr də çoxluq təşkil edir [199].

Ermənistanın Azərbaycanla sərhədində bu ölkədən respublikamıza daxil olan çaylardan götürülən su nümunələrinin laboratoriya müayinəsinə əsasən mis (Cu), molibden (Mo) və radonun (Rn-2,4) çox yüksək səviyyəsi aşkar edilib. Belə ki, Cu YVQ-dən 1000 dəfə, Mo isə 2000-3000 dəfə çox olub. Bu cür şəraitdə fauna və floranın bir çox növləri məhv olur. Zəngi (indiki Razdan) çayına axıdılan Razdan İES, "Nairi" Elm-

---

[199] Yusif Mahmudov, *Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011-ci illər),* Bakı, Füyuzat, 2022, s.106.

İstehsalat Birliyi, Şin zavodu, Armenelektrozavod, Məişət Kimya Zavodu, Kanaker Alüminium Zavodu və s. müəssisələrinin çirkab suları da Araz çayına tökülür. Ona görə də, Zəngi (Razdan) çayı suyunun tərkibində mis, fenol, ammonyak, neft məhsulları və s. kimyəvi maddələr YVQ-dən (Yol Verilən Qatılıq) çoxdur. Bu cür çirklənmələr öz təsirini Araz çayının suyunda da göstərir. Oxçuçayda oksigen rejimi sistematik olaraq pozulur, misin YVQ miqdarı 24-25 dəfəyə çatır. Sənaye müəssisələrinin illərlə təmizlənməmiş çirkli suları Oxçuçaya axıdılır ki, bu da onun ağır fraksiyalarının çökməsinə səbəb olur. Nəticədə çayın təkrar çirklənməsi baş verir. Beləliklə, çay suyunun öz-özünə təmizlənməsi mümkün olmur. Bu səbəbdən mis YVQ-dən 7-50 dəfə, fenol 6-15 dəfə, manqan 2-4 dəfə çox olur. Ona görə də, Oxçuçayın Araza töküldüyü yerdə Araz çayının keyfiyyəti sanitar normalara cavab vermir.

Qeyd etmək lazımdır ki, Ermənistan ərazisindən Kür və Araz çayları hövzəsinə il ərzində 350 mln. $m^3$ çirkli su axıdılır[200].

Erməni işğalı dövründə Sərsəng, Suqovuşan, Xaçın su anbarlarının suyunun kəsilməsi, kanal və arxların quruması Ağdam, Bərdə, Tərtər, Ağcabədi, Goranboy, Yevlax və s. rayonlarda minlərlə hektar ərazidə əkin-biçin aparılmasına, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına imkan verməmişdir. Qeyd edək ki, işğal dövründə ermənilər cəbhəyanı rayonların əhalisinə zərər vermək üçün Sərsəng və Suqovuşan su anbarlarının suyunu payızın sonunda və qış aylarında buraxmış, ən çox suya ehtiyac olan vaxt-yaz-yay aylarında isə kəsmişlər. Nəticədə əkin sahələrinin suvarma suyu ilə təminatında ciddi çətinlik yaranmışdır.

[200] Yusif Mahmudov, *Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011-ci illər),* Bakı, Füyuzat, 2022, s.107.

Ermənistanın işğalı altında qalan, ölkəmizin ən hündür (125 m) bəndi olan Sərsəng su anbarı texniki qurğuların baxımsızlığı səbəbindən qəza vəziyyətindədir.

Ermənistanın işğalından əvvəl Sərsəng su anbarından magistral kanallarla Tərtər, Bərdə, Yevlax, Ağdam, Ağcabədi və Goranboy rayonlarının əkin sahələrinin suvarılmasında (79000 ha) istifadə olunurdu, bu rayonların ərazisinə illik su sərfiyyatı 190-220 mln. $m^3$ idi. Bunun 70-80%-i suya tələbat yarandıqda – mövsüm vaxtlarında istifadə üçün buraxılırdı. Ona görə də, həmin rayonların sakinləri normal təsərrüfat fəaliyyəti ilə məşğul ola bilirdilər[201].

İşğal dövründə su anbarında təmir-bərpa işlərinin görülməmiş, avadanlıqların istismar müddəti başa çatmış, aşınmaya məruz qalmışdır, bu isə onun davamlılığının minimuma qədər azaldığını göstərir. Deməli, texnogen qurğuların əksəriyyəti sıradan çıxıb, təhlükəli vəziyyət yaranmışdır: istənilən vaxt baş verə biləcək təbii hadisə ya hər hansı bir təxribat bəndin dağılmasına gətirib çıxara bilərdi. Qəza Yevlax, Goranboy, Tərtər, Bərdə, Ağdam, Ağcabədi rayonlarının 400 mindən artıq əhalisini təhlükə ilə üz-üzə qoya bilərdi. Bütün bu faktlar Sərsəng təcavüzünün Ermənistanın Azərbaycan xalqına qarşı təhdid siyasətinin tərkib hissəsi olduğunu, Ermənistanın Sərsəng su anbarını Azərbaycana qarşı silah kimi istifadə etdiyini sübuta yetirir[202].

İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə

---

[201] Yusif Mahmudov, *Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011-ci illər)*, Bakı, Füyuzat, 2022, s.108.

[202] *Sərsəng su anbarının tilsimi qırılıb*, http://www.xalqqazeti. az/az/sosial-heyat/151141-serseng-su-anbarinin-tilsimi-qirilib,(istifadə tarixi: 01.12.2023).

suyun qarşısını kəsir, daşqınlar zamanı, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar. İkinci Qarabağ müharibəsindən sonra bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımızdan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılmış, geniş proqram icra edilməyə başlanmışdır[203].

İşğala qədər ölkəmizdə kənd təsərrüfatında məhsuldarlığı artırmaq məqsədilə 20-dək suvarma kanalı inşa edilmişdi. Onlardan Cəbrayıl rayonu ərazisində idi: Hasanlıarx kanalı 1951-ci ildə çəkilmişdi. Sugötürmə qabiliyyəti 12 $m^3$/san idi. Xudafərin körpüsü yaxınlığında Araz çayından Füzuli rayonu ərazisinə kimi 38 km uzanır və hər iki rayonun 2,6 min ha sahəsini suvarırdı. XIX əsrin II yarısında inşa olunmuş Maralyanarx kanalının sugötürmə gücü isə 12 $m^3$/san idi. Cəbrayıl rayonunun Maralyan kəndi yaxınlığında Arazdan başlayıb Cəbrayıl və Füzuli rayonlarındakı 2,1 min ha əkin sahələrini və bağları suvarırdı[204].

Son onilliklərdə iqlim dəyişmələri nəticəsində Azərbaycanda su ehtiyatları təqribən 15 faiz azalmışdır, beynəlxalq iqlim modelləri 2050-ci ilədək su resurslarımız daha 15 faizə qədər azala bilər. Əvvəlki dövrlərdə quraqlıq müddəti 2-3 il davam edirdisə, son 8 ildə davamlı quraqlıqlar müşahidə olunur. Dünya ölkələrində olduğu kimi, ölkəmizdə də havanın temperaturunun yüksəlməsi, iqlimin istiləşməsi nəticəsində dağlıq ərazilərdə şaxtalı və qarlı günlərin sayı artır, dağ çaylarını qidalandıran qar ehtiyatı, buzlaqlar azalır. Yağıntıların azalması

---

[203] *İlham Əliyev Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olub,* http:// www. president. az/ az/ articles/ view/,(istifadə tarixi:18.06.2021).
[204] Yusif Mahmudov, *Azərbaycan Respublikasında ətraf mühitin qorunması tarixi (1991-2011-ci illər),*Bakı, Füyuzat, 2022, s.109.

Xəzərsahili rayonlar istisna olmaqla, ölkənin bütün regionlarını əhatə etmiş, anomal hadisələrin, sel-daşqınlar sayı artmış, yağıntılar 2019-cu ildə normadan 17 faiz, 2020-ci ildə isə 25 faiz az olmuşdur.  Kür və Qanıq çaylarında sululuq 2019-cu ildə normadan 29,2 faiz, 2020-ci ilin 6 ayında isə 45,8 faiz, əsas dağ çaylarının formalaşdığı ərazilərdə yağıntının miqdarı orta hesabla 8,7 dəfə azalmışdır. Növbəti onillikdə iqlim norma ilə müqayisədə daha 8 faiz azalması ehtimal edilir [205].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin su təsərrüfatına həsr olunmuş müşavirələrdə eləcə də, fərman və sərəncamlarında əhalinin içməli su ilə təminatı, kənd təsərrüfatının su ilə təchizatı, yeni su elektrik stansiyalarının tikilməsi kimi məsələlərə xüsusi diqqət yetirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 iyul 2020-ci il tarixdə keçirilən, su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirə demişdir: *"Təbii ki, bu infrastruktur layihələri arasında içməli su və meliorasiya layihələri öz yerini tapıbdır. Son illərdə bu sahədə də böyük işlər görüldü. Bu sahə diqqətdən kənarda qalmadı. Sadəcə olaraq, bir neçə rəqəmi ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bu gün isə bu rəqəm 70 faizə çatıbdır. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz idi. Bu gün bu rəqəm təxminən 82 faizə çatmışdır. Regionlarda isə əhalinin içməli su ilə əhatə dairəsi cəmi 9 faiz idi. Bu gün bu rəqəm 63 faizdir. Bu, doğrudan da tarixi nailiyyətdir. Biz bunu,*

---

[205] *İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib*, http:// www. president. az/az/articles/view/39990, (istifadə tarixi: 23 iyul 2020-ci il).

*ilk növbədə, insanların sağlamlığı, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı üçün etmişik. Ancaq bununla bərabər, bu rəqəmlər onu göstərir ki, biz istədiyimizə tam nail ola bilməmişik. Buna görə bundan sonra içməli su layihələri, meliorasiya layihələri bizim gündəliyimizdə ən vacib məsələlər kimi duracaq. Bugünkü müşavirənin əsas məqsədi odur ki, bu sahədə buraxılmış səhvlər, mövcud çatışmazlıqlar bundan sonrakı illərdə aradan qaldırılsın, vahid idarəetmə mexanizmi işlənib təqdim edilsin və biz ardıcıl olaraq qısamüddətli, ortamüddətli və uzunmüddətli fəaliyyət planımızı icra edək. Bunun nəticəsində Azərbaycanda içməli su və suvarma suyu ilə təminat 100 faiz olmalıdır"*[206].

Azərbaycanda 2005-2020-ci illərdə bir sıra nəhəng su layihələri- Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi, Taxtakörpü su anbarının tikintisi (tutumu 270 milyon kubmetr), Taxtakörpü su anbarından Ceyranbatan su anbarına qədər yeni beton kanalın tikintisi, Samur şayının sularının səmərəli bölüşdürülməsi üçün infrastrukturun yaradılması (əlavə 30 min hektar əraziyə su verilməsi), Ceyranbatan su anbarının yenidən qurulması, müasir təmizləyici qurğuların inşa edilməsi, Şəmkirçay su anbarının tam gücü ilə fəaliyyətə başlaması, Göytəpə su anbarı, Tovuzçay su anbarı, Vayxır su anbarının tikintisi və s. layihələr həyata keçirilmişdir. Qeyd olunan 15 il ərzində tikilmiş yeni böyük su anbarlarının həcminin 470 milyon kubmetr olduğunu nəzərə alsaq, görülən işlərin miqyası haqqında geniş təsəvvür yaranır[207]. Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su

---

[206] *İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib,*http:// www. president. az/az/articles/view/39990,(istifadə tarixi:23 iyul 2020-ci il).
[207] *İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib*,http:// www. president. az/az/articles/view/39990,(istifadə tarixi: 23 iyul 2020-ci il).

təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq hökumət komissiyası yaradılmışdır.

Vətən müharibəsi (2022-ci il 27 sentyabr -8 noyabr) və antiterror əməliyyatları (2023-cü il 19-20 sentyabr) nəticəsində Azərbaycan öz əraziləri üzərində tam suverenliyini bərpa etmiş, torpaqlarımızın işğaldan azad olunması Qarabağ iqtisadi bölgəsinin suvarma sistemini canlanmasına, bərpasına, yenidən qurulmasına imkan vermişdir.

İşğaldan azad olunan ərazilərimizin çaylar, göllər və yeraltı sulardan ibarət su ehtiyatları, təxminən 780 milyon hesablanır. Bu isə yerli su ehtiyatlarımızın 20 faizə qədərini təşkil edir.[208] 2020-ci ildə tərtib olunan su təsərrüfatı balansına əsasən, cari ildə ölkənin su ehtiyatları 34,1 milyard kubmetr həcmində proqnozlaşdırmışdır. O cümlədən ilin əvvəlinə su anbarlarında qalıq 10,6 milyard kubmetr təşkil etmişdir, il ərzində ölkə üzrə formalaşan su ehtiyatlarının 23,5 milyard kubmetr olacağı gözlənilirdi. Həmin ölkə üzrə formalaşan yerüstü su ehtiyatlarının 70 faizini qonşu ölkələrdən daxilolmalar, onun da təqribən yarısını təkcə Kür çayı təşkil etmişdir [209].

Sərsəng su anbarının (ümumi həcmi 565 milyon kub metr) işğaldan azad olunması respublikanın altı rayonunda (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 125 min hektara yaxın torpaq sahəsinin suvarma suyu ilə təmin etməyə imkan yaradır. Su anbarının sahəsi 1346 hektar, sahilinin xəttinin uzun-

---

[208] *Sərsəng su anbarının tilsimi qırılıb,* http://www. xalqqazeti, az/az/sosial-heyat/151141-serseng-su-anbarinin-tilsimi-qirilib,(istifadə tarixi: 01.12.2023).

[209] *İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib*, http:// www. president. az/az/articles/view/39990,(istifadə tarixi: 23 iyul 2020-ci il).

luğu isə 50,25 kilometrdir. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarı 75 min hektar yeni ərazilərin suvarılması deməkdir [210].

Hələ İkinci Qarabağ müharibəsindən əvvəl işğaldan azad edilmiş ərazilərimizdə eləcə də, məcburi köçkünlərin məskunlaşdığı qəsəbələrdə əhalinin əkin-biçinlə məşğul olması üçün su təminatı proqramları reallaşdırılmış, çoxsaylı subartezian quyuları qazılmışdır. Təkcə 29 yanvar 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq Ağcabədidə 13, Ağdamda 19, Tərtər 6, Xocavənddə 1 (Nərgiztəpə) subartezian quyuları qazılaraq istifadəyə verilmişdir. Subartezian quyularının qazılması işi bu şəkildə daim davam etmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 31 may 2021-ci ildə Ağdam və Tərtər rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair sərəncam imzalamışdır. Sərəncama əsasən Ağdam və Tərtər rayonlarının əhalisi 25950 nəfər olan 18 yaşayış məntəqəsində əkin sahələrinin və əkin ucun istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə 2021-ci il dövlət büdcəsindən 1,4 mln manat Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Cəmiyyətinə ayrılmışdır [211].

---

[210] Ş.Quliyeva*, Ağdam rayonunun iqtisadi potensialının reallaşdırılması istiqamətləri,* I Beynəlxalq elmi-praktik konfransın materialları, Ağdam-Bakı, s.305-311,(istifadə tarixi: 16-17 sentyabr 2021-ci il).

[211] Günəş Ağakişiyeva, *Ağdamda kənd təsərrüfatının inkişaf imkanları, I Beynəlxalq elmi-praktik konfransın materialları*, Ağdam-Bakı, s.46-51,(istifadə tarixi: 16-17 sentyabr 2021-ci il).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 30 mart 2023-cü il tarixdə "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması haqqında" Fərman imzalamışdır[212]. Agentlik suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təmin edilməsi, meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarı, su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarətin həyata keçirilməsi, yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların saxlanılması və qorunması, su təchizatı sistemlərinin monitorinqinin aparılması sahələrində vahid dövlət siyasətini həyata keçirir.

Ölkəmizdə bərpa olunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə atılmış əsas addımlardan biri isə 2024-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa-olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olmuşdur. Dövlət Proqramının qəbulu bərpaolunan enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaradır[213]. Azərbaycanın məqsədyönlü "yaşıl enerji" siyasətinin aparması məntiqi nəticəsi olaraq Dubay toplantısında (11 dekabr 2023-cü il) 2024-cü ilin noyabr ayının 11-də Bakıda COP 29 konfransının keçirilməsi barədə qərar verilmişdir.

---

212 *"Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*, Bakı şəhəri, http:// www. e-qanun.az/ framework/53813,(istifadə tarixi: 30 mart 2023-cü il).

213 Salman Alıoğlu, *Yaşıl artım və sağlam gələcək naminə qlobal təşəbbüslər,* http:// www. respublika-news.az/az/news/yasil-artim-ve-saglam-gelecek-namine-qlobal-tesebbusler,(istifadə tarixi: 28.03.2024).

Hesablamalara görə, Azərbaycanın daxili su ehtiyatlarının təqribi 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri məhz Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsinin payına düşür. Hər iki bölgənin Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas və digər kiçik çayları böyük hidroenerji potensialına malikdir. Eyni zamanda,Kəlbəcərdə günlük 3093, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatları mövcuddur[214].



**Kəlbəcər.**

**"İstisu" mineral su zavodu, 2024**

[214] Nurlan Abdalov, *Azərbaycanın uğurlu "yaşıl enerji" siyasəti*,http:// www. respublika-news.az/az/news/1707966865-azerbaycanin-ugurlu-yasil-enerji-siyaseti,( istifadə tarixi: 15.02.2024).

Hazırda Azərbaycanın "yaşıl enerji"də də əsas ixracatçı ölkələrdən birinə çevrilməsi istiqamətində ciddi addımlar atılır. Bu məqsədlə Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonası" elan edilmiş, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2022-ci il mayın 3-də Sərəncam imzalamışdır. Proqram çərçivəsində işğaldan azad edilən ərazilərdə ümumilikdə regionda 50-yə yaxın su elektrik stansiyası tikiləcəkdir[215]. "Yaşıl enerji zonası"nın yaradılması çərçivəsində Kəlbəcər və Laçın rayonlarında işğal illərində ermənilər tərəfindən dağıdılmış su elektrik stansiyaları bərpa olunur. Artıq "Kəlbəcər-1", "Çıraq-1", "Çıraq-2", "Qamışlı", "Soyuqbulaq", "Meydan", "Güləbird" SES, "Suqovuşan-1" KSES, "Suqovuşan-2" KSES istifadəyə verilmişdir. Bundan başqa, Laçın rayonunda "Mişni", "Alxaslı" KSES, Zəngilan rayonunda "Cahangirbəyli" SES fəaliyyətə başlamışdır, "Şayıflı", "Zəngilan", "Sarıqışlaq", "Ağbulaq-1" SES-lər də işlər yekunlaşmışdır. Həkəri və Bərgüşad çayları üzərində, eləcə də işğaldan azad olunmuş ərazilərimizdə ümumilikdə 9 yeni su anbarı tikilir [216].

İşğaldan azad olunmuş ərazilərdə 14 çay (Araz, Bərgüşad, Tərtər, Həkəri, Oxçu, Lev, Zabux, Tutqun (Qoturçay), Turağay (35 km), Bəsit, Qarqar, Quru, Xaçın və Köndələn çayları), Xudafərin (1 milyard 600 mln m$^3$), Sərsəng (495 mln m$^3$), Qız

---

[215] Salman Alıoğlu, *Yaşıl artım və sağlam gələcək naminə qlobal təşəbbüslər,* http:// www. respublika-news.az/az/news/yasil-artim-ve-saglam-gelecek-namine-qlobal-tesebbusler,(istifadə tarixi: 28.03.2024).

[216] Mirbağır Yaqubzadə, *Türkiyə şirkətləri Qarabağda kiçik SES-lərin tikintisini həyata keçirəcək*,http:// www. xalqqazeti.az/ az/iqtisadiyyat/157069-turkiye-sirketleri-qarabagda-kicik-ses,(istifadə tarixi: 29.12.2023).

Qalası, Xaçınçay-Dərbənd (22 mln $m^3$), Aşağı Köndələnçay (1981, 9,5 milyon $m^3$), Suqovuşan (5,2 mln $m^3$), Köndələnçay-1 (1951, 3,9 mln $m^3$), Köndələnçay-2 (1962, 2,5 mln $m^3$) və Ağdamkənd enerji və meliorasiya təyinatlı su anbarları, Qaradağlı-1 (10 mln $m^3$), Qaradağlı-2, Qaradağlı-3 (1962, 3 mln $m^3$) su anbarları və s. sututarları isə tam meliorasiya təyinatlıdır. Bu anbarlardan ən böyüyü Xudafərin (1 milyard 612 mln $m^3$) su anbarı, çaylardan ən böyüyü isə Araz çayıdır. Xudafərin və Sərsəng su anbarları əsasən enerji istehsalı təyinatlıdır, 7 su anbarı isə balıqçılıq məqsədləri üçün də istifadə edilir. Su anbarları və çaylar Qarabağ bölgəsində suvarma, içməli su və enerji təminatında çox mühüm əhəmiyyət daşıyır.

Hazırda işğaldan azad olunmuş ərazilərdə təsərrüfatdaxili açıq suvarma sistemləri kompleksi (su mənbəyi-çay, su anbarı, yeraltı sular, sel suları və s., baş qurğu- suvarma suyunu su mənbəyindən magistral kanala ötürən sipərli, bəndli, nasos stansiyaları; baş qurğudan suyu qəbul edib paylayıcı kanallara ötürən magistral kanal və ya ana kanallar; paylayıcı kanallar; elastik və bərk suvarma borularından ibarət tənzimləyici suvarma şəbəkəsi; artıq suları kənarlaşdırmaq üçün sutoplayan, yəni drenaj şəbəkəsi; suvarma sisteminə xidmət üçün yollar; suvarılan əkin sahələrini küləkdən qorumaq, açıq kanallarda buxarlanmanı azaltmaq üçün meşə zolaqları; suvarma kanalları, su sərfini, sürətini nizamlayan qurğular, körpülər) yaradılır. Eləcə də, öz axınına və yağış yağdırma üsuluna əsaslanan qapalı suvarma sistemləri (suyun nəqli və paylanması üçün yeraltı və yerüstü boru kəmərləri şəbəkəsi) qurulur.

İşğaldan azad edilmiş su ehtiyatlarından səmərəli istifadə edilməsi, dağıdılmış infrastruktur obyektlərinin, hidrotexniki qurğuların, enerji, meliorasiya və su təsərrüfatı komplekslərinin

bərpası, yeni su mənbələrinin yaradılması istiqamətində mühüm işlər həyata keçirilir. Artıq Sərsəng su anbarı və Suqovuşan su anbarı baş nazirin qərarı ilə "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm obyektlərin Siyahısı"na daxil edilmişdir.



**Xaçınçay su anbarı**

Ümumilikdə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki su anbarlarının 618 milyon kubmetr tutumu vardır. Son üç ildə görülən işlər nəticəsində Suqovuşan su anbarının hesabına 183 milyon kubmetr su əldə edilmiş, ümumilikdə 36 min hektar ərazi suvarılmışdır. Tərtərçay və Turağayçay çaylarından daxil olan Suqovuşan su anbarında tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 70 kubmetr olan əsas magistral kanala, suburaxma qabiliyyəti saniyədə 50 və 20 kubmetr olan sağ sahil və sol sahil magistral kanallarına verilmişdir. Aşağı Köndələnçay su anbarından 5 milyon kubmetr, Xaçınçay su anbarından isə təqribən 4 milyon kubmetr

su götürülmüşdür[217]. "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsi suvarılır.

Mənbəyini Çaxmaq dağından (1780 metr) götürən Köndələnçayın üzərində tikilmiş, Füzuli rayonunun Dövlətyarlı, Yuxarı Yağlıvənd və Mirzəcamallı kəndlərinin ərazində yerləşən Köndələnçay su anbarlarına intensiv yağış, gursululuq nəticəsində 2014-cü ilin may ayında 11,8 milyon kubmetr ( Köndələnçay-1 anbarına 2,1 milyon kubmetr, Köndələnçay-2 anbarına 1,7 milyon kubmetr, Aşağı Köndələnçay anbarına 8 milyon kubmetr) su ehtiyatı toplanmışdır. Bu da son üç ildə ən yüksək səviyyə sayılmışdır. Köndəlançay su anbarları təmir-bərpadan sonra 6 min hektar min hektardan çox ərazinin (5 min hektar işğaldan azad olunan ərazilər) suvarılmasına xidmət edir[218].

2023-cü ilin sentyabr ayında həyata keçirilmiş antiterror hərəkatından sonra Xankəndi şəhərinin də su ilə təminatı istiqamətində ciddi işlər görülmüşdür. Hazırda şəhərdə iki sutəmizləyici qurğu kompleksi fəaliyyətdədir. 1 saylı nömrəli kompleksin içməli su mənbəyi Xəlfəli çayı, 2 saylı kompleksin içməli su mənbəyini Cəmilli və Ballıca kəndlərindən keçən çaylar təşkil edir, bununla da, şəhər su şəbəkəsi su ilə təmin edilir[219].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2024-cü il sent-

---

[217] *Qarabağdakı su anbarlarının tutumu açıqlandı*, http:// www. news24.az/70551,( istifadə tarixi:15.10.2021).

[218] *Köndələnçay su anbarlarında 11 milyon kubmetrdən çox su ehtiyatı yığılıb*, http:// www. azertag.az/xeber/ kondelenchay_ su_anbarlarinda_ 11_milyon_kubmetrden_chox_su_ehtiyati_yigilib,(istifadə tarixi: 28.05.2024).

[219] *ADSEA: Xankəndi 24 saat su ilə təmin edilir* http:// www.report.az/ infrastruktur/ xankendide-su-teserrufati-berpa-olunub/,(istifadə tarixi:30.09.2024).

yabr ayının 2-də Kəlbəcər "İstisu" mineral su zavodunun açılışı olmuşdur. Mənbəyini dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından götürən və təbii halda 60°C-dən yuxarı temperaturda çıxan "İstisu" mineral suyu minerallarla zəngin nadir suyu kimi xarakterizə olunur. "İstisu" mineral su zavodu müasir avtomatlaşdırılmış sudoldu0rma xətləri və robotlaşdırılmış anbar idarəetmə sistemləri ilə təchiz edilmişdir.[220]

Çay və göllərlə yanaşı, təsərrüfatın inkişafında artezian və kəhriz sularından səmərəli istifadə də mühüm önəm daşıyır. Xüsusilə Ermənistanın işğalı dövründə Qarabağın düzənlik hissələrində suvarma sularının bolluğunun təmin olunması üçün artezian və kəhriz sularından geniş istifadə edilmişdir. Məsələn, Ağdam rayonu ərazisindəki əkin yerləri əsasən artezian quyuları, kəhrizlər və Yuxarı Qarabağ kanalı üzərindəki nasosların fəaliyyəti mühüm önəm daşıyır. Təkcə Ağdam rayonu ərazisində 794 artezian quyusu fəaliyyət göstərir, bu isə əslində XX əsrin ikinci yarısından başlayaraq, xüsusilə son 30 ildə Qarabağın suvarma sistemində yeni iqtisadi faktor kimi qiymətləndirilməlidir.

Su-enerji layihələrinin reallaşdırılması işğaldan azad olunmuş ərazilərimizdə kənd təsərrüfatının bərpasına, minlərlə hektar torpaq sahələrini əkin dövriyyəsinə cəlb edilməsinə imkan verməklə yanaşı, yenidən tikilən şəhər və kəndlərdə əhalinin məskunlaşdırılmasına, həyat şəraitinin yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət göstərməkdədir.

---

[220] *Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə "İstisu" mineral su zavodunun açılışında iştirak ediblər*, http:// www.azertag.az/xeber/prezident_ilham_eliyev_ve_birinci_xanim_mehriban_eliyeva_kelbecerde_istisu_mineral_su_zavodunun_achilisinda_istirak_edibler3160534,(istifadə tarixi: 28.05.2024).

# NƏTİCƏ

Qarabağ bölgəsinin coğrafi, hidroqrafik şəraiti, iqlim və torpaq örtüyü və s. şərtlər əkinçiliyin eləcə də, suvarmanın qədim tarixini izləməyə, təsvir və təhlil etməyə imkan verir. Burada ənənəvi suvarma sisteminin formalaşmasına təsir göstərən amilləri bir neçə qrupa ayırmaq mümkündür: Birincisi, təbii-coğrafi, iqlim və hidroqrafik xüsusiyyətlər; İkincisi, qədimdən bəri yaşayış məskənlərinin yaranmasında su mənbələrinin rolu; Üçüncüsü, əkinçilik təcrübəsinin davamlı olaraq nəsildən-nəslə ötürülməsi, daha da təkmilləşməsi.

Bölgənin hidroqrafiyasının formalaşmasında Kiçik Qafqaz dağ sistemi əhəmiyyətli rol oynayır, bu dağ sisteminin cənub-şərq qurtaracağı olan Qarabağ silsiləsi Araz çayına doğru get-gedə alçalır, tədricən dağətəyi maili düzənliklərə keçir. Tarixən ən intensiv əkinçilik və bağçılıq çay dərələri, çay yataqları boyu və çayların dağlıq ərazilərdən düzənliyə qovuşduğu zolaqlarda yaranmışdır.

Azərbaycan ərazisində hava kütlələrinin relyef və Xəzər dənizi ilə qarşılıqlı əlaqəsi yağıntılara təsir göstərir, yağıntıların miqdarı Xəzərdən qərbə və düzənliklərdən dağlara doğru tədricən artır, Böyük və Kiçik Qafqaz dağ sisteminə aid kiçik dağ çaylarında il boyu axın kəsilmir. Xaçın və Tərtər çaylarının keçdiyi, Qarqarçayın sol sahilindəki dağətəyi məntəqələrdə yağıntıların miqdarının Kür-Araz ovalığının mərkəz və şərq hissəsi ilə müqayisədə iki dəfə çox olması ərazinin yüksəkliyindən yox, onların yaxınlığındakı dağ sistemlərinin morfologiyasından, rütubət gətirən hava kütlələrinin qarşısında yerləşməsi ilə sıx bağlıdır. Belə hündürlük morfologiyası rütubətin yağış

şəklində ayrılmasına Kür-Araz ovalığının mərkəzi və şərq hissəsi ilə müqayisədə daha çox yağıntının düşməsinə şərait yaradır.

Çoxsaylı arxeoloji materiallar burada insanların ən qədim dövrlərdən intensiv şəkildə yaşadığını izləməyə imkan verir. Relyef, iqlim və hidroqrafiya ilə bağlı suvarma sistemi təsərrüfat həyatının formalaşmasına eləcə də, əhali məskunlaşmasına ciddi təsir göstərmişdir. Qarabağ bölgəsində ən qədim paleolit abidələri olan Azıx mağara düşərgəsi, Tağlar mağarası və s. bu ərazidə ibtidai insanın ən qədim dövrlərdən yaşadığını göstərir. Qədim insanların həyatında düşərgələrin yaxınlığından axan Quruçay, Daşaltıçay, Köndələnçayın mühüm əhəmiyyəti olmuşdur.

Cənubu Qafqazda erkən əkinçilik mədəniyyətinə aid 150 maddi-mədəniyyət nümunəsindən 70 faizdən çoxu Azərbaycanın Kür çayı hövzəsindən, Mil-Qarabağ düzənliyindən, Muğandan, Araz boyu ərazilərdən tapılmışdır. Arxeoloji tədqiqatlar təsdiqləyir ki, hələ Eneolit dövründə Mil-Qarabağ düzənliyində, xüsusən Qarqar və Xaçın çayları arasında da çoxsaylı qədim yaşayış yerləri cəmləşmişdir.

İlk tunc dövründə (Kür-Araz mədəniyyəti) inkişaf etmiş əkinçi-maldar təsərrüfatı zəminində yaranan yaşayış məskənlərinin bəziləri böyük yaşayış məntəqələrinə çevrilmiş, əkinçilik və maldarlığın inkişafı əhalinin artımına və patriarxal münasibətlərin möhkəmlənməsinə səbəb olmuşdur. Orta Tunc dövründə əsasən düzənliklərdə və çay vadilərində salınmış, uzunmüddətli oturaq həyat tərzini əks etdirən yaşayış məskənləri əkinçilik təsərrüfatı mərkəzləri idi.

Orta Tunc dövründə Qarabağ ərazisində bəzi yaşayış yerlərinin su mənbələrindən kənarda, münbit torpaqlarda salınması suvarma əkinçiliyinin inkişafını göstərir, həmin dövrdə çəkilmiş arxların qalıqları qalmasa da, yaşayış yerlərinin topoqrafiyası

süni arxlardan istifadə edildiyini göstərir. Son Tunc dövründə dəmyə əkinçiliyinin yayıldığı dağ ətəkləri ilə yanaşı suvarma əkinçiliyinin tədricən təşəkkül tapması ilə şumlama əkinçiliyi geniş yayılmışdır.

Arxeoloji materiallar təsdiqləyir ki, e.ə. I minilliyin ikinci yarısında Azərbaycanın şimal vilayətləri xeyli inkişaf etmiş oturaq əkinçilik - maldarlıq təsərrüfatına malik idi, burada təbii və iri irriqasiya qurğularına əsaslanan suvarma əkinçiliyi mövcud idi. Əkin sahələrində və çay vadilərində e.ə. I minilliyə aid çoxlu sayda qədim  arxların izləri aşkarlanmışdır.

Qədim insanın həyat qaynağı olan çayların, göllərin, bulaqların yaxınlığında yaşaması sonralar ilk suvarma təcrübəsinin yaranması baxımdan mühüm əhəmiyyət daşımışdır. Tədricən suvarma əkinçiliyinin ən qədim formalarından biri olan çala əkinçiliyi ortaya çıxmışdır. Qarabağ bölgəsində dağ çaylarının sıldırım və ya yarğan olmayan, çay suyundan asanlıqla arx çəkilməsi mümkün olan sahillərində kiçik, minerallarla zəngin məhsuldar ərazilərdə taxıl, arpa əkilib-becərilməsi və ya bağ salınmasının qədim təcrübəyə əsaslandığını söyləmək mümkündür. Bu ərazilərin əkin üçün hazırlanması üçün meşədən təmizlənmiş, ağaclar çıxarılaraq yandırılmış, beləliklə, tala əkinçiliyi də formalaşmışdır.

Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi, Qarabağ ərazisində də əkinçilik sistemləri-dəmyə əkinçiliyi və suvarma əkinçiliyi tarixi inkişafın, istehsal münasibətlərinin inkişafı nəticəsində ortaya çıxmışdır. İlkin əkinçilik sistemi olan dəmyə əkinçiliyinin inkişafı, qədim insanların suvarma əkinçilik sisteminə keçməsi daha yüksəkliklərdə olan yaşayış məskənlərinin (mağara, kaha, sığınacaq və s.) yerlərinin tədricən dəniz səviyyəsindən daha az yüksəkliklərə yerini dəyişdirməsi, nəha-

yət, yaşayış məskənlərinin düzən ərazilərdə sayının artması ilə xarakterizə olunur. Bu, istehsal təsərrüfatının ortaya çıxması, toxa əkinçiliyini xış əkinçiliyinin əvəz etməsi, əkinçilik təcrübəsinin artması ilə müşayiət olunmuşdur. Coğrafi, arxeoloji və etnoqrafik materiallar Qarabağ ərazisində dəmyə və suvarma əkinçilik sistemlərinin müxtəlif formalarının (vadi əkinçiliyi, tala əkinçiliyi) yarandığını, əkinçilik təcrübəsinin təkmilləşməsi ilə dağ-vadi əkinçiliyi, növbəli əkinçilik, herik əkinçiliyi və s. əkinçilik formalarının yarandığını təsdiqləyir.

İri yaşayış məskənlərinin, şəhərlərin formalaşması, dövlətlərin yaranması, tarixi-siyasi hadisələrin gedişi təsərrüfatın müxtəlif sahələrinin, xüsusilə əkinçiliyin və maldarlığın inkişafını, onunla bağlı olan ticarət və sənətkarlığın inkişafını şərtləndirmişdir.

Qarabağ ərazisində iri yaşayış məskənlərinin, məsələn, Bərdə şəhərinin yaranması əkinçilik və maldarlığın eləcə də, sənətkarlığın və ticarətin inkişafı ilə yanaşı, irriqasiya sisteminin təşəkkülü ilə əlaqədar olmuşdur. Tərtər çayının sahilində, Qarabağ düzənliyinin mərkəzində yerləşən Bərdə şəhərinin yaxınlığındakı Şortəpə yaşayış yeri (e.ə. VII əsr) maddi-mədəniyyət nümunələrinin, o cümlədən suvarma sisteminin inkişafı ilə seçilir.

Tarixi mənbələrə görə Albaniyanın torpaqları çoxlu sayda çaylar və süni suvarma arxları ilə suvarılırdı. Suvarma sisteminin inkişafı münbit iqlim şəraiti, bərəkətli torpaqların məhsuldarlığını daha da artırmışdır.

Albaniya, Ərəb xilafətindən sonra müxtəlif dövlətlərin-Səlcuqlular, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilərin nəzarətinə keçən, bəylərbəylik, sancaqlıq, xanlıq dövrünü keçən Qarabağın nisbi sərhədləri su mənbələri, xüsusilə çaylarla müəyyən olunmuşdur. Burada təkcə şərti sərhəd deyil eyni zamanda,

çayların və digər su mənbələrinin yaşayış məskənlərinin salınmasında, təsərrüfat həyatındakı rolu önə çıxır.

Gəncə-Qarabağ bəylərbəyliyinin, daha sonra Qarabağ xanlığının təxmini sərhədlərinin çaylarla müəyyənləşməsi siyasi, hərbi proseslərin nəticəsi ilə yanaşı Orta əsrlərə xas inzibati quruluşların formalaşmasından irəli gəlirdi. Hər bir xanlığın, o cümlədən Qarabağ xanlığına aid mahalların ərazisi suvarma sisteminə, əsasən çay eləcə də, göl, bulaq və s. su mənbələrinə görə dəqiqləşdirilirdi. Maraqlıdır ki, Qarabağ vilayətinin nahiyələrinin eləcə də, sonrakı dövrdə xanlığının mahallarının ərazilərinin formalaşmasında da çaylar mühüm rol oynamışdır. Coğrafi eləcə də, tarixi baxımdan Qarabağın sərhədinin əksər hissəsi çaylarla ayrılmışdır və bu xüsusiyyət çayların qədimdən bəri təsərrüfat istiqamətlərini müəyyənləşdirmişdir.

Orta əsrlərdə Azərbaycanın digər bölgələrində olduğu kimi, suvarmanın 4 növü-arəs (kiçik çay), çay (kanalların və ehtiyat su anbarlarının köməyi ilə), kəhriz (suyun torpaq altından xüsusi lağımlar vasitəsi ilə yerin üstünə çıxarılması) və quyu növ və ya üsulları yerüstü və yeraltı olmaqla Qarabağda da yayılmışdır.

Orta əsr mənbələrinin təhlili göstərir ki, torpağın yararlığı və iqlimin münasibliyi ilə yanaşı əkin sahələrinin suvarma imkanlarının olması əkinçiliyin inkişafını şərtləndirən mühüm amillərdən olmuş, sudan istifadənin tənzimlənməsi qaydaları müəyyən edilmişdir.

Orta əsrlərdə Qarabağ kəndlərində əhalinin həm dəmyə, həm də suvarma əkinçiliyi ilə məşğul olmasını vergilərin tərkibinə görə də müəyyənləşdirmək mümkündür. “Cift”, “nim cift”, “resmi zəmin”, “hums-i çeltük”lə yanaşı, üzümçülüyün, meyvəçiliyin və bostançılığın geniş yayıldığı kəndlərdə məhsulun onda bir nisbətində “üşri-bağat”, “üşri-meyvə” vergiləri, tor-

pağa görə sahiblik formaları (*xas, zeamət, timar*), əkin yerlərinin yüksək məhsuldarlığı, yüksək gəlir verməsinə, suvarma imkanlarına görə fərqlənirdi.

Azərbaycanın digər ərazilərində olduğu kimi, Qarabağ və Zəngəzur bölgəsində də suvarma və dəmyə əkinçiliyi sistemlərinin çala əkinçiliyi, tala əkinçiliyi, dincəqoyma əkinçiliyi, herik əkinçiliyi, toxumdəyişdirmə kimi əkinçilik formaları və ya üsulları olmuşdur. Bölgənin çaylarla zənginliyi burada suvarma sisteminin inkişafına gətirib çıxarmışdır. Qarabağda çayların sahilləri çala əkinçiliyi üçün əlverişli ərazilər sayılmış və bu sahələrdən geniş şəkildə istifadə olunmuşdur. Suvarma əkinçiliyi ilə sıx bağlı olan çala əkinçiliyi forması xalq arasında "çaybasar", "çala", "axmaz" adlandırılan torpaqların əkilib-becərilməsi əsasında inkişaf etmiş, bu əkin yerlərində əsasən yazlıq taxıl və bostan bitkiləri əkilmişdir. Azərbaycanın müxtəlif rayonlarında, o cümlədən Xocavənd ərazisində Əmiralılar kəndi yaxınlığında Axmaz oroqrafik adı qeydə alınmışdır, toponimin adından göründüyü kimi, burada "axmayan su yığımını" nəzərdə tutulur[221].

XX əsrin sonlarınadək dərin dərələrlə axan dağ çaylarının sahilləri boyu "şam" (tələ, taxta) adlandırılan tarlalarda çəltikçilik, bağçılıq inkişaf etmiş, bostan məhsulları, kartof, nisbətən iri sahələrdə arpa, yazlıq taxıl əkilib-becərilmiş, çay vadilərinin günəştutan hissəsində bağlar, üzümlüklər salınırdı.

Vadilərdən bir qədər hündürdəki dağətəyi ərazilərdə bağları sulamaq üçün bulaq sularının və kiçik çayların qarşısı bəndlərlə bağlanılır, göllər yaradılır,su kiçik arx və qajlarla istənilən sahəyə aparılırdı.

Tarixən Azərbaycan ərazisində, o cümlədən Qarabağda əkinçilik və maldarlıq təsərrüfatları bir-birini tamamlamışdır,

[221] Nazim Tapdıqoğlu, *Xocavənd ensiklopediyası*, s. 66.

əsasən çayların yaxınlığında məskunlaşmış tayfalar eyni zamanda, həm əkinçilik, həm də maldarlıqla məşğul olmuşdur. Çaylar, süni suvarma sistemləri bu təsərrüfat formaları arasında həm praktiki, həm də mənəvi baxımdan vacib hidroqrafik şəbəkə funksiyasını yerinə yetirmişdir.

Kür və Araz çaylarından çəkilmiş ana arxlar sahil ərazinin torpaqlarının əkinçilik üçün yararlı hala salınmasında mühüm rol oynamışdır. Bundan əlavə, suvarma arxları məhsuldarlığın artmasına və əkin sahələrinin genişlənməsinə səbəb olmuş, sututar geniş ərazidə əkinçi əhalinin məskunlaşmasına əlverişli imkan və şərait yaranmışdır. Qarabağ torpaqlarından çoxsaylı çayların axması burada arxların çəkilməsinə, geniş suvarma şəbəkəsinin yaradılmasına imkan vermişdir. Beləliklə də, sututar geniş ərazidə əkinçi əhalinin məskunlaşmasına əlverişli imkan və şərait yaranmışdır. Qarabağın süni suvarma şəbəkəsi şimaldan cənuba doğru da qurulmuş, dağ çayları arxlar vasitəsilə cilovlanaraq düzənlərə yönəldilmişdir.

Qarabağın suvarma sistemi XIX əsrdə də təsərrüfat həyatında mühüm yer tutmuş, suvarma sisteminin, suvarmaya münasibətin dəyişməməsi təsərrüfat həyatında təcrübənin davam etməsinin sübutudur. XIX əsrdə baş vermiş hərbi-siyasi proseslər, Çar Rusiyasının işğalının başlanması, “Gülüstan”, “Türkmənçay” müqavilələrinin bağlanması, rus imperializminin “dayağı” kimi ermənilərin İran və Osmanlı dövlətlərindən Azərbaycan torpaqlarına köçürülməsi və s. proseslər təsərrüfat həyatına da ciddi təsir göstərmişdir. Həm Çar Rusiyası, həm də keçmiş sovet dövründə erməni əhali xüsusilə çay sahillərində, suvarma şəbəkəsinin yayıldığı, yaxud bulaqlarla zəngin ərazilərdə məskunlaşdırılmışdır.

Qarabağda yəni iri və kiçik çayların sularından taxıl üyütmək üçün dəyirmanların işlədilməsində də geniş istifadə olunmuşdur. XVIII əsrin ilk yarısında Qarabağ bəylərbəyliyində (sancaqlığında) su dəyirmanları və dinglər fəaliyyət göstərmişdir.

XVIII əsrdə təxminən 426 dəyirmanın fəaliyyət göstərməsi, XIX əsrin 30-cu illərində isə dəyimanların sayının 471-ə qədər artması Qarabağda taxılçılığın, suvarmanın inkişafının ən dəqiq sübutlarındandır. Dəyirmanlar gəlir gətirən bir iqtisadi müəssisə kimi fəaliyyət göstərmiş, əksəriyyəti dağ çaylarının sahillərində yerləşmişdir. Onların mövcudluğu müəyyən mənada suvarma sisteminin inkişafını göstərirdi.

Kəhrizlər Qarabağın cənubunda aran ərazilərində geniş yayılmışdır. Hətta burada ilk kəhrizlərin eradan əvvəl I əsrə aid olduğu ehtimal edilir. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda 800-dən artıq kəhriz qeydə alınmışdır ki, onların bir çoxu Qarabağda fəaliyyət göstərmişdir. Kəhrizlərin qazılmasında üsul və qaydalar təkmilləşsədə kəhrizlərin istifadə təyinatı dəyişməmiş, mahiyyətcə əvvəlki dövrlərdə olduğu kimi, əhəmiyyətini itirməmişdir. Qarabağ ərazisi çoxlu böyüklü-kiçikli çaylarla, təbii bulaqlarla yanaşı su quyularının olması ilə fərqlənir.

Qarabağ bəylərbəyliyi, Qarabağ sancaqlığı eləcə də, Qarabağ xanlığı dövründə suvarma sisteminin idarə olunması ciddi dəyişikliyə uğramamış, əsasən olduğu kimi qalmışdır. Qarabağda da taxıl əkinləri, bostan və bağlar arxla selləmə (subasma), şırım, küz, çala (lilman) və s. üsullarla suvarılmışdır.

Keçmiş sovet dövründə Qarabağın suvarma sistemi yeni təsərrüfat sahələrinin inkişafı, mexanikləşdirilmiş vasitələrdən istifadə və s. amillərin təsiri ilə inkişaf etmişdir. Respublikada 1970-1980-ci illərdə suvarma əkinçiliyinin imkanlarından səmərəli istifadə edilməsinə xüsusi diqqət yetirilirdi və müxtəlif

təyinatlı çoxlu su təsərrüfatı obyektləri (dəryaçalar, kanallar və s.) tikilib istifadəyə verilmişdi. XX əsrin 70-ci illərində Qarabağın kənd təsərrüfatının inkişafı üçün meliorasiya və irriqasiya işləri daha da genişləndirilmişdir.

Birinci Qarabağ müharibəsinin nəticələri, Ermənistanın torpaqlarımızın 20 faizini işğal etməsi Azərbaycanın suvarma sisteminə ciddi zərbə vurmuşdur. Erməni işğalı dövründə Sərsəng, Suqovuşan, Xaçın su anbarlarının suyunun kəsilməsi, kanal və arxların quruması Ağdam, Bərdə, Tərtər, Ağcabədi, Goranboy, Yevlax və s. rayonlarda minlərlə hektar ərazidə əkin-biçin aparılmasına, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına, SES-lərdən istifadəyə imkan verməmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsi (2022-ci il 27 sentyabr -8 noyabr) və antiterror əməliyyatları (2023-cü il 19-20 sentyabr) nəticəsində Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmiş, ərazilərimiz üzərində suverenliyimizi bərpa etmişdir. Torpaqlarımızın işğaldan azad olunması Qarabağ iqtisadi bölgəsinin sosial, iqtisadi həyatının canlanmasına, yenidən qurulmasına, bərpa olunmasına eləcə də, suvarma sisteminin yenidən qurulmasına, enerji istehsalının başlanmasına, əkin sahələrimizin suvarılmasına imkan vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" (2022), Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət proqramları (2024) qəbul edilmişdir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi, bölgənin bərpaolunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədi ilə görü-

lən işlər ölkəmizin qarşısında yeni perspektivlər açır. Azərbaycanın məqsədyönlü "yaşıl enerji" siyasətinin aparması məntiqi nəticəsi olaraq 2024-cü ilin noyabr ayının 11-də Bakıda COP29 konfransının keçirilməsi barədə qərar verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il oktyabr ayının 10-da "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nı təsdiqləmişdir. Bu sənəd 2020-ci il 27 iyul tarixli "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020−2022-ci illər üçün Tədbirlər Planı"na əsasən hazırlanmışdır.

Milli Strategiyanın icrası su ehtiyatlarının artırılmasını, keyfiyyətli içməli su və suvarma suyu ilə təminatın yaxşılaşdırılmasını, onun idarə edilməsinin müasirləşdirilməsini, habelə bu sahədə beynəlxalq əməkdaşlığın inkişafını nəzərdə tutur. Strategiya 2024−2040-cı illəri əhatə etməklə üç mərhələdə həyata keçiriləcəkdir:

***1.*** 2024−2027-ci illəri əhatə edən birinci mərhələdə su ehtiyatlarından səmərəli istifadə üçün zəruri infrastruktur və idarəetmə təkmilləşdiriləcəkdir. Bu çərçivədə su ehtiyatlarının yenidən qiymətləndirilməsi, artırılması, inteqrasiyalı idarə edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından istifadə, tullantı və yağış sularının idarə olunması, suyun keyfiyyətinin yaxşılaşdırılması, su təsərrüfatı obyektlərinin genişləndirilməsi və su itkilərinin azaldılması təmin ediləcəkdir.

***2.*** 2028−2030-cu illəri əhatə edən ikinci mərhələdə təməl şərtlərin möhkəmlənməsi əsasında "təmiz su və sanitariya", "iqlim dəyişikliyinə qarşı mübarizə", "dəniz ekosisteminin mühafizəsi" və "torpaq ekosisteminin mühafizəsi" kimi BMT Baş Assambleyasının qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə üstün şəkildə yaxınlaşma təmin olunacaqdır.

***3.*** 2031−2040-cı illəri əhatə edən üçüncü mərhələdə hidroekoloji böhranların innovativ texnologiyalar əsasında effektiv idarə olunması, su ehtiyatlarının artırılması, habelə al-

ternativ su mənbələrindən istifadəni genişləndirməklə dayanıqlı və keyfiyyətli suya tələbatın ödənilməsi təmin ediləcəkdir.

